AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

## TÜRK XALQLARI FOLKLORU

## V KİTAB

# QUMUQ FOLKLORU

BAKI – 2020

**Toplayanı və**
**tərtib edəni:** **İmperiyat XALİPAYEVA**
filologiya elmləri doktoru, professor,
Dağıstan Dövlət Pedaqoji Universiteti

**Elmi redaktoru:** **Abdulhakim HACIYEV**
filologiya elmləri doktoru, professor,
Rusiya EA-nın Dağıstan filialı

**Redaktoru:** **Afaq RAMAZANOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu

**Rəycilər:** **Abdulkadır ABDULATİPOV**
filologiya elmləri doktoru, professor,
Dağıstan Dövlət Pedaqoji Universiteti

**Eldar HACIYEV**
filologiya elmləri doktoru, professor,
Dağıstan Dövlət Pedaqoji Universiteti

**Azərbaycan türkcəsinə**
**uyğunlaşdıran:** **Rahilə ALİYEVA**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Dağıstan Dövlət Universiteti

**Türk xalqları folkloru, V kitab, Qumuq folkloru.** Bakı, Elm və təhsil, 2020, 312 səh.

folklor.az

Q $\frac{3202050000}{098 - 2020}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2020

# QUMUQ FOLKLORU HAQQINDA BİR NEÇƏ SÖZ

*Er çırağı – eki göz*
*El haznası – esgi söz*

Mənsub olduğu xalqın söz sənətini sevməyən insan yoxdur. Folkloru – xalq mahnılarını, nağılları, atalar sözlərini və benzerleri söyləmək və dinləmək bizə böyük ləzzət verir. Bu örnəklər şad günlərdə sevincimizə parlaq günəş kimi şənlik qatır, üzüntülü günlərdə bir əqraba, can yoldaşı kimi qəlblərimizi ovudur; eşq atəşinin yaxdığı zamanlarda gərəkli dost kimi həmdəm olurlar. Hələ ilk addımımızı belə atmadığımız günlərdə anamızın laylalarından başlayaraq son yolculuğumuza uğurlayan ağılara qədər ömrümüzə hökm edən, ruhumuzun qidası, xalqımızın söz xəzinəsi folklordur.

Endireylilərin, erpelilərin, atlıboyunluların rəngarəng nəğmələri, Xaydaq qumuqlarının mahnıları, borağanlıların mizahı-yumoru, ötəmişlilərin qarğışları – bunların hər biri qumuqları bəxtəvər edir.

Qumuqlar sənətin gücünü və dəyərini daha əski zamanlardan bəri yaxşı anlamışlar. Onlar "Qafiyəli sözə əngəl yox" deyə boşuna söyləməmişlər. Çətin günlər gəldiyində bəziləri qılıncını sıyırır, bəziləri isə xalqın qəhrəmanlıq duyğularını coşdurmaq üçün qopuzunu çalardı. Hətta qopuzun hünəri qılıncdan üstün gəlirmiş. Hətta xəstələrə çarə tapılmadığı zaman, qumuq ozanları telli qopuzlarını əlinə alaraq xəstələrə dinlədir və adətən onları dirildərlərmiş. El içində – bir ozan, ağac qopuzu alıb mahir ustalıqla çalmağa başladıqda, xəmir yoğurmaqda olan bir qadın, özü də fərq etmədən, əllərindən xəmiri axıdaraq oynamağa başlamış – deyə danışırlar.

"Biz də ölürük, ölürük, ölüncə yumulur iki gözümüz. Biz öldükdən sonra qalanlar, deyər bizim sözümüz" – deyə, gazag ər söylədiyi dörd sətrin içində, sənət sözünün ölməyəcəyini, yaradıcılıqdakı mirası yaxşı anladığını nə gədər gözəl göstərmişdir.

Qədimlərdə tanınmış ozanlar və salnaməçilər, gənc ozanlardan ən yetənəklisini yanına çağırır, istedadını qiymətləndirir, bu istedadı qorumağı tapşırır, ona dəyərli ərməğan kimi öz qopuzunu və ya salnaməsini verərlərmiş.

Keçənlərdən – əsrlərdən, illərdən, aylardan günlərdən bixəbər olarıqsa, həm günümüzün tarixini doğru olaraq anlamaq, həm də gələcəyi görə bilmək çətinləşər. Bir millətin tarixinin öyrənilməsində şifahi ənənənin də böyük bir önəmi vardır. İllər illəri əvəz edərək dəyişər, yaşar; illərin yolu, yırların yoludur demək də mümkündür. Əsrlər əsrləri, nəsillər nəsilləri əvəz etsə də, xalq yaradıcılığında yeni yaranan örnəklər qədim nümunələri inkar etməz; hər ikisi birlikdə yaşar. Elmi aspektdən nəzər yetirdikdə bu örnəklərdə, onlara heyrətamiz bir şəkildə bağlanan əsrlərin, nəsillərin tarixi izlərini, cizgilərini görə bilmək mümkündür. Şifahi yaradıcılığı baxımından qumuqların tarixini araşdırmaq ayrıca əhəmiyyətlidir, çünki, ilk olaraq, Asiya və Avropanı bir-birinə bağlayan əsas yollardan biri olan Qumuq düzünden çox qövm və xalq keçmiş; bunlar qumuq xalqının tarixini, mədəniyyətini, ayrı-ayrı səviyyələrdə etkiləmiş; bundan başga, mövzusu tarixi hadisələr olan əski sənədlər, tarixi kitablar indilik əlimizdə çox deyil, əski dövrlərin tarixi bunları incələr: əski zamanlardan başlayaraq xalqımız nələr tapmış, nəyə qarşı durmuşlar; necə düşünmüş, kimlərlə qarışmış, əqrəba və ya dost olmuşlar, düşmən kimi gələn kimlərlə savaşmağa məcbur qalmış, folklorumuzu araşdırmadığımız təqdirdə bu qədər çox suallara yetərli və qaneedici cavablar tapmırıq.

Belə bir araşdırmalar etdiyimizdə, şifahi yaradıcılığımızın ən rəngli bir şahidi olaraq belə dediyini görürük: az sayılı xalqımız, üstün sayısız ordular düşsə də, sadəcə qəhrəmanlığına güvənərək ölkəsinin müstəqilliyi üçün savaşmış, dost və qardaş xalqlara da yardım əlini uzadaraq, çətin günlərdə onlardan güc alaraq, çətin dövrlərdə əyilmədən, bəlalara boyun əymədən milli kimliyini saxlaya bilmişlər; xalqımız "Əmanətə xəyanət etmə", "Keçi verən qoyun alır" deyərək namusu, cömərdlik bayrağına tuğ etmiş; fağır bahadırlarımızın "Fağır olsam da əsir deyiləm"

deyərək, bəylərin önündə diz çökmədən, onlara kəskin mizraq kimi sarıldığı günlər az olmamışdır. Yoxsul kəndlilər "Yoxsullar qalmaz yoxsul halında, varlılar qalmaz varlı halında" deyərək, ümidlərini itirmədən xəyallarına çatmaq üçün çabalaşmışlar.

Yuxarıda xatırlanan səbəblər əsası ilə, Oktyabr inqilabından əvvəlki vaxtlardan başlayaraq günümüzədək qumuqların özləri də, başqa xalqların təmsilçiləri də bizim şifahi yaradıcılığımıza dəyər vermiş, onu toplamağa və yayımlamağa qumuq alimlərin, şairlərin – D.M.Şıxəliyev, M.Osmanov, A.Şamsudinov, M.Alibekov, A.Akayev, S.Haciyeva və başqa məşhur araşdırmaçıların hər şeydən əvvəl folklorumuza müraciət etməsi hədər deyildir.

***A.Hacıyev,***
***İ.Xalipayeva***

# MİFLƏR,
# ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## *Kosmoqonik miflər*

Qumuq mifologiyasının kökləri çox qədim zamanlara gedir, çünki daha qədim zamanlarda, hətta İslam öncəsində belə mifologiyada qədim inanclar, ilkin təsəvvürlər öz əksini tapmışdır.

### Dünyalar

Bizim Dünyamızdan başqa daha iki dünya var. Birində Allah, Peyğəmbərlər və cənnətin adamları var. Digəri isə bizim altımızda. Biz isə ikisinin ortasındayıq. Ona görə də kəmərimizi belimizdən bağlayırıq.

### Aydakı ləkələr

Əvvəllər günəş də, ay da yerdə imiş. Günəş gözəl bir qız, ay isə oğlan imiş. Ay bu qızın ardınca dolanır, onunla nə vaxt qovuşacağını düşünürmüş. Günəşin çox qəribə bir xasiyyəti varmış. Elə hey aydan qaçır, gizlənirmiş. Ay göründüyü zaman günəş qaçır və hər tərəf qaranlığa bürünürmüş. Bir gün günəş evdə iş görərkən ay pəncərədən içəri baxır. Günəş evləri təmizləyirmiş, ayı görəndə əsəbləşir və əlindəki silgini ayın üzünə vurur. Ondan sonra ay göyə çıxır. Aydakı ləkələr bax o zamandan qalmadır. O gündən bu günəcən ay günəşin arxasınca qaçır, ama nə tuta, nə də çata bilmir.

### Şimşək çaxdığında nə etməli?

Şimşəyin səbəbi buxarlaşıb bulud halına gələn suyun yağış şəklində yerə enməsinin gecikməsi zamanı göydə gəzən mələklərin əsəbləşərək əllərindəki qamçıları ata vurmasıdır. Göy gurultusu bu qamçı zərbələrinin gurultusudur. Şimşək isə bu zərbələrdən əmələ gələn qığılcımlardır.

## Turşu (Sirius)

Turşunun böyük və kiçiyi var. Kiçiyi haqqında çox bilgi yoxdur. Böyük Turşu isə günəş doğarkən görünür və dənizin üstündən bir alov gəmisi kimi gəlir. Bu alovun içində bir inək sağan qadın görünür. Sonra 15 yaşında bir oğlan uşağı görünür. Sonra çox uzun boylu kişilər böyük xəncərlərlə görünür. Bunlar sanki böyük bir savaş hazırlığı görüntüsündədir. Bu vəziyyəti görən insan bunu heç kimə deməməlidir. Yoxsa ölər.

## Ülkər

Qumuqlar deyirlər ki, Ülkər batarsa, yer üzü qatılaşar. Əvvəllər Ülkərlər yeddi ulduz imiş. Bunun altısı oğlan, biri qız imiş. Böyük ayının ulduz yuvası altı qardaş imiş. Bunların evlənmə zamanı gəldikdə gedib Ülkərlərin bacısını götürüb qaçır. Bundan sonra Böyük ayı yeddi ulduz, Ülkərlər altı ulduz olublar. Bunlar göydə bir-birilərinə əks tərəflərdə – Ülkərlər arxa tərəfdə Böyük ayının ulduzu qarşı tərəfdə bu qızı qaçırarkən görünür.

## Karvanqıran (Yupiter)

Bir gün Məkkəyə gedən karvan bir yerdə dayanır. Karvan səhər vaxtı yola çıxmalı imiş. Bunlar Yupiter ulduzunun dan ulduzu olduğunu zənn edir və karvan yola düşür. Karvandakılar ulduzu dan ulduzu – Çolpan sanıblar, ancaq bu Dan ulduzu – Çolpan deyil, Yupiter imiş. Yupiter Dan ulduzu – Çolpandan öncə çıxır. Bu karvan yolda çıxan firtınaya görə yox olur. O gündən sonra qumuqlar bu ulduza Karvanqıran adını veriblər.

## İnşak

Bizim bütün dağlarımızın arxasında göylə yerin birləşdiyi yerdə Kaf adlı bir dağ vardır. Orada barmaq boyda insanlar yaşayır. Bunlar tüfənglərini yovşana asırlar. Hər gün səhər tezdən axşama qədər bu dağı dəlib digər tərəfə çıxmaq üçün qazırlar. Digər tərəfə çıxmağa az vaxt qalanda, qaranlıq düşür. Bundan sonra “İnşak” deyib evə gedirlər. Səhər gəlib baxdıqlarında qazdıqları yerin yenidən dolduğunu görürlər.

Ruhdan düşməyərək yenidən qazmağa başlayırlar. Əgər bunlar “İnşak” əvəzinə “İnşaAllah” desələr, dağ dolmayacaq və dağı dəlib o biri tərəfə keçdiklərində qiyamət qopacaq.

## Göy niyə belə yüksəkdir?

Əvvəllər göy insanlara çox yaxın imiş. Hündür boylu insanlar əllərini uzadaraq göyə toxuna bilirmiş. O vaxtlarda insanlar Allah ilə danışır və dərdlərini ona deyirlərmiş. Hətta günahsız insanlar göyə çıxa bilirmiş. Bəs göy niyə sonradan belə yüksəlib? Bir gün bir qadın çörək bişirirmiş. Uşaqları da yanında oynayırmış. Uşaqların kiçiyi altını isladıbmış. Anası uşağın altını təmizləyəcək bir şey tapmadığı üçün çörəkdən bir parça götürüb uşağın altını silir. Ona görə də göy insanlara hirslənib yerdən uzaqlaşır.

## Dünya necə yarandı

Allah dünyanı yaradarkən hər gün yanına bir peyğəmbəri çağıraraq “gedib mənə bir ovuc palçıq gətirin” deyir. Bu peyğəmbərlərdən biri palçığı gətirə bilmir, çünki torpaq “mənim bağrımı yarıb, palçığımı almayın” deyə ağlayır. Allah da bir gün Əzrail adlı birini çağırır və “gedib o torpaqdan gətir, mən insanları yaradacağam” deyir. Əzrail torpağın fəryadına fikir vermir, ağ, qara və sarı rənglərdə palçıq götürüb gəlir. Bundan sonra Allah “sən torpağın fəryadına məhəl qoymadan alıb gəldin, bu torpaqdan yaradılan insanların canını da sən alacaqsan" deyir. Allah insanları yaradıb yan-yana düzür, şeytan gəlib dörd bir tərəfinə baxır. Şeytan marağını saxlaya bilməyib insanın qarnına barmağını soxur. Qaşlarını və saçlarını dağıdır, burnunu çəkir (buna görə dağlıların burnu uzun, saçları dağınıqdır).

## Qədr gecəsi

Qumuqlar qədr gecəsi olduğuna inanırlar. Əgər Qədr gecəsi oyaq qalarsa, üç dilək tutan kəsin diləyi yerinə yetər. Qədr gecəsində təkbaşına oyaq qalan rahat olmur. Bir yerə

yığışır, bir-birinə baxıb oyaq qala bilirlər. Onun üçün Qədr gecəsi oyaq qalan dəyirmançılar çox bilir.

Ondan başqa da qumuqlarda buna inanırlar:

Əgər kiminsə başı böyükdürsə, o adam ağıllıdır.

* * *

Bir dəfə bir xatun dəyirmanda çalışarkən dəyirmandaşları birdən dayanır .

– Qədr gecəsi doğdu, nə diləyim mən? – deyərək qadın ağlayıb düşünməyə başlayır. Bu qadının balaca bir uşağı var imiş. O ağıllı olmasın diləyir.

– Balamın başı böyük olsun! – deyərək dua edir. Bunu deyə-deyə bir gün nəzər salır ki, uşağın başı dəyirmandaşı boyda olub. Qadın tez əl-ayağa düşüb:

– Kiçik olsun, kiçik olsun! – deyə dua edir.

– Körpənin başı o saat yumurta boyda olur. Qadın bunu görüb daha da qorxub:

– Əvvəl olduğu kimi qalsın! – deyib yalvarır.

Uşağın başı da əvvəlki vəziyyətinə dönür. Ondan sonra deyirlər ki, o qadın Qədr gecəsini boşlayıbmış.

## *Ovçuluq mifləri və demonik varlıqlar*

### Albaslının intiqamı

Başlıkənddə, Cavan dağında bir adam arabasına ağacları doldurarkən öküzləri itir. Qaranlıq düşdüyündə tüfəngini çiyninə, baltasını da əlinə alıb öküzlərini axtarmağa başlayır. Birdən bir qadın qışqırığı eşidibmiş. Baxır ki, qadını təpəsində böyük bir gözü olan, nə heyvana, nə insana oxşamayan qəribə bir şey qovur. Bu qəribə şeyin ayaqları at ayağı kimi, ağzından od püskürür, hər tərəfi də qıllı idi. Qadını tutduğu anda udmağa hazır idi. Qadın onu görəndə önündə diz çöküb özünü bu canavardan qurtarmaq üçün yalvarır. Adam canavarı təhdid edərək geri dönməsini, yoxsa atəş açacağını deyir. Canavar

adamın sözlərinə məhəl qoymur. Adam baltanı canavara saplayır. Balta canavarın kürəyindən girib sinəsindən çıxır (ova gedənlərin bu heyvanı gördüyü söylənir). Qadın özündən gedir. Kişi görür ki, bu qadının gözəlliyi meşəyə işıq salır, saçları buğdanın sarısı kimidr. Kişi qadının üzünə baxdığında gözləri qamaşır. Qadın özünə gələndə kişidən ona elədiyi yaxşılığın qarşısında nə istədiyini soruşur. Kişi "heç bir şey istəmədiyini, ancaq ürəyindən keçəni verə biləcəyini" deyir. Qadın da deyir ki, əgər hər çərşənbə günü meşəyə gələrsə və bunu heç kimə deməzsə, dünyada hər şeyə sahib olacaq. Aradan zaman keçir, bu kişi çox varlanır. Dözmür, sirrini qonşusuna deyir, o gündən sonra bütün var-dövlətini itirməyə başlayır. Sən demə, qadın meşələrin qoruyucusu imiş.

## Ovçunun arvadı

Albaslınıın Baday adlı ovçu bir dostu varmış. Bu qadın bu kişiyə hər işində kömək edirmiş, ona arvadı kimi də baxırmış. Baday, qadının köməyilə varlanıbmış. Arvadı da bu vəziyyətdən şübhələnir ki, əri birdən-birə necə belə varlanıb. Qadın bir səhər ərinin çıxdığı otağa girib baxır, görür ki, orada çox gözəl bir qız yatır. Qızın uzun saçları yatdığı yataqdan yerə dəyir. Badayın arvadı bu qızın saçları yerə dəyməsin deyə bir ələk gətirib qızın saçlarını ələyin içinə qoyur. O gündən sonra bunların var-dövləti azalmağa başlayır. Əri vəziyyəti anlayıb arvadından niyə ona toxunduğunu soruşur. Qadın da ona yazığı gəldiyini deyir.

## Albaslı və ovçu

Albaslılar meşədə yaşayırmış. Bu qadınlar çox uzun boylu imiş. Çoxlu ərləri və uşaqları varmış. Bu qadınların bədəni qıllı imiş. Ayaqları, dabanı və barmaqları tərsinə imiş. Albaslıların sinələri arxaya doğru uzanırmış, uşaqlarını kürəklərində gəzdirir, orada içirirlərmiş. Bunlar sıx ağaclı meşələrdə yaşayır və ora kimsə gəlsə, öldürürlərmiş. Onlarla qarşılaşan "bıltırga (keçən ilki)" deyərsə və şalvarı ilə vurarsa, qorxudub qaçıra bilərmiş. Əgər belə eləməzsə, insanların qoltuqlarının altından

girib qıdıqlayaraq öldürərmiş. Albaslı kimisə öldürmək istədikdə əgər o adam Albaslının bir tükünü qoparıb Quran arasına qoyarsa, onda bu insanın əmrinə tabe olarmış. Xalq arasında Albaslı belə bilinir.

## Qutluqay

Qədim dövrlərdə itaət altına alınanların olduğu söylənilır. Noqayların arasında Qutluqay adında çox bacarıqlı bir ovçu varmış. Qutluqay bir gün meşədə itir. Bir yerdə oturub ocaq qalayır. Oturarkən ona doğru yaxınlaşan bir səs eşidir. Bunu bir meşə heyvanı sanıb tüfəngini əlinə alır. Nişan alıb gözləməyə başlayır. Görür ki, iki canavar buna doğru gəlir. Qutluqay "Bıltırga" dedikdən sonra atəş açır; canavarlar meşənin dərinliklərində itirlər. Qutluqay, sabah qan damlaları və Albaslının ayaq izlərini izləyərək bir qayanın dibinə gedib çıxır. Görür gecə vurduğu cəsədin yanında bir Albaslı ağlayır. Bu öldürdüyü Albaslının əri imiş. Albaslının ərinin adı Ağaçanglı imiş.

Yaxınlaşan adamı görən Albaslı onu yanına çağırır və ərini basdırmaq üçün kömək istəyir. Ərini o adamın öldürdüyünü anlayır. Tez kişidən öldürdüyü ərinin əvəzinə ona ərlik etməsini, yoxsa ondan ömrü boyu intiqam alacağını deyir. Qutluqay razılaşır, amma istədiyi vaxt kəndə gedə bilmək üçün də izn alır. Albaslı da Qutluqaydan heç vaxt sağ tərəfində olan deşiyə baxmaması üçün söz alır. Bir xeyli vaxt keçdikdən sonra bir gün Albaslı hamilə qalır. Albaslı yatarkən, Qutluqay özünü saxlaya bilmir sağ tərəfindəki deşikdə nə olduğunu görmək üçün baxmaq istəyir. Birdən Albaslı oyanır və sözünün üstündə durmadığı üçün Qutluqaya hirslənir. Sözünə qulaq asmayıb baxdığı üçün onu öldürməli olduğunu, ancaq uşaqları doğulacağı üçün bunu sonra edəcəyini deyir. Artıq birlikdə yaşamayacaqlarını, əgər uşaq qız olarsa, özü ilə aparacağını, əgər oğlan olarsa, atasına verəcəyini deyir. Qutluqay kəndə dönüb öz əvvəlki həyatını yaşayır. Bir gün kənddə hamı əyləndiyi vaxt günəş batarkən Albaslı görünür. Adamlardan biri onu görüb "Albaslı" deyə qışqırır. Hər kəs çox qorxur və qaçır. Bunların

arasından bir tək Qutluqay qaçmayıb Albaslıya doğru yeriyir. Albaslı Qutluqayın qarşısına çıxır, uşağı ona verib adını "İdigə" qoymasını deyir və qayıdıb meşəyə gedir. Qutluqay da uşağını böyüdür. Noqay şahzadələri bu "İdigə" adlı uşaqdan başlayır və bu günkü "Mansurof" sülaləsi burdan gəlir.

## Qanlı Kalabzar

Əski Başlıkənddə Kalabzar adlı biri yaşayırmış. Bu adamın meşədə özünə aid ərazisi və ağacları var imiş. Bu adam hər gün bu yerləri gəzirmiş. Bir gün atının belində meşənin kənarında axan çaydan keçmək istəyərkən at birdən bir daşlıq yerdə durur. Kalabzar atına qamçı vurur ki, getsin. Ancaq at şaxə qalxır. Çarəsiz qalıb atdan enir. Çay boyunca gedərkən bir daşın üstündə oturur. Birdən görür ki, bir Ağ qadın (Ak kadın) çayın qırağında qaraciyər və içalat yuyur. Kalabzar tez arvadın başının üstünü kəsir və deyir:

- Burax onu kafir!

Ağ qadın deyir:

- Bunlar suya dəydi, artıq işə yaramaz.

Kalabzar Ağ qadına atəş açır; Ağ qadın gülləni əli ilə tutub geri fırladır və sonra ona deyir:

- Bu gündən sonra sən qanlısan və bir daha buraya gəlməyəcəksən!

O gündən sonra Kalabzar həqiqətən də bir daha meşəyə getmir.

## Meşə adamı ilə qarşılaşma

Bir gün mən Vatsaxari meşəsində gecələdim. Böyük bir ocaq yandıraraq axşam yeməyimi yedim. Ocaqdakı közü qarışdırarkən birinin yanıma gəldiyini hiss etdim. O vaxtlar on səkkiz yaşında idim. Tüfəngimi alıb ağaca çıxdım. Yerdəki süfrəmdə çörək, pendir, ət və su vardı. Meşə adamı gəlib atəşin ətrafında dolandıqdan sonra çörəyi aldı, dişlədi; bir az çeynədikdən sonra tüpürdü. Anlaşılmayan sözlər mızıldandı. Atım kişnədikcə, o, qorxdu. Tüfəngimi göyə tuşlayıb bunu qorxutmaq üçün atəş

açdım. Qorxub qışqıra-qışqıra meşəyə doğru qaçdı. Ağacdan düşmək istəyirdim, ancaq baxdım ki, meşənin içindən özünə bənzəyən adamlarla gəlir. Onların hamısının bədənində qara uzun qıllardan başqa bir şey yoxdur. Ayaqları, qolları və üzü insana bənzəyirdi, kişiyə oxşayan heybətli bir şey idi. Tüfəngimi hazırladım ki, mənə toxunmasınlar. Bu uzun varlıqlar, hər dəfə atəş açanda qorxub qışqırırdılar. Güllələrim bitənə qədər atəş açdım, yaxşı ki, hava açılmağa başladı.

## Ovçu ilə div

Yaz mövsümündə Vatsaxari meşəsində gecələmək məcburiyyətində qaldım. Ocaq qalayıb oturarkən meşə adamı yanıma gələrək anlaşılmaz bir dil ilə yemək istədi. Boşqabı ona uzadarkən içinə bir ovuc duz atdım. Div yeməyi yedikdən sonra su içmək istədi. Su içməyə gedəndə mən də ağaca çıxdım. Div gələndə atəş açdım, o, ocağın üzərinə düşüb öldü. Onun səsinə başqa divlər gəldi. Havada yanmış saç qoxusu gəlirdi. Digər divlər yoldaşlarının cəsədini alıb getdilər.

## Su anası

Bir kişinin iki camışı var imiş. Bir gecə onlar itir. Kişi atına minir, camışlarını axtarmağa Xamri çayına gedir.

Birdən sudan bəzi səslərin gəldiyini eşidir. Görür ki, ay işığının çaya əksinin düşdüyü yerdə qadınlar yuyunur. Kişi də atını çevirib meşəyə sürür. Kişinin atı ilə getdiyi yerlər aydınlanır. Yazıq kişi elə bilir ki, cinlərin-şeytanların arasına düşüb. Atını tez-tez sürür ki, ordan qurtulsun. Birdən kişinin gözünə çox gözəl bir qız sataşır. Qızın yaşıl uzun saçları var imiş. Qadının gözəlliyindən gözləri qamaşır. Qadın o əsnada yerlə sürünən saçlarını darayırmış. Özü də hiss eləmədən qadının yanına gedir. Birdən ayılır görür ki, qadının yanındadır. Əməlindən peşman olur. Qadın isə çılpaq imiş. Qadın kişidən onunla yatmasını istəyir. Ancaq kişinin nişanlısı varmış. Qadın yaşıl saçlarını kişinin boynuna dolayır, kişi qadının Su anası olduğunu anlayır və qadının istədiyini edir. Bərabər olduqdan sonra qadın

bu kişiyə bir yaşıl üzük hədiyyə edir. Üzüyü verərkən tapşırır ki, heç kimsə bu üzüyü görməsin, bilməsin. Ancaq kişi belə şeylərə çox inanan olmadığından bu yaşıl üzüyü gəlininə verir. Heç bir gün keçmədən güclü yağışlar yağır, Başlıkənddəki çay yatağından daşır. Çay daşan vaxt həmin kişi çayın o tayında imiş. Suyun gəldiyini gördükdə tez çayı keçmək üçün suya girir. Su dərin olur və kişi boğulur. Kişi barmağını suyun içindən çıxarıb birtəhər dairə şəkli çəkir. Bəlkə də kişi buna üzüyün səbəb olduğunu demək istəyirmiş.

### Baltadöş

Qədim zamanlarda insanlar ocağı tanımırdılar. Gecə vaxtı dağlarda, meşələrdə qığılcımlar görünürdü. İnsanlar bu qığılcımlardan qorxurdular. İnsanlar meşələrin otunu otlayırdı. Onu da Baltadöş qoruyurdu. Ondan başqa bir əsrarəngiz quş da var idi. Bu quş, insanların meşədən ot götürmələrinə izn vermirdi. İnsanlar gizlin-gizlin meşədən ot götürməyə gedirdilər. Baltadöş özü insanlara ot verirdi (ən çox qış aylarında ot verirdi). Ancaq bu əsrarəngiz quş insanlara əngəl olurdu. Bir gün bir nəfər qorxmadan meşəyə gedib ot alıb gəlir. Əsrarəngiz quş əvəzində o adamın bağrını dimdikləyir. Bu adam haqqında xalq arasında bir nəğmə yazılır.

Cavan tavda ot bar dey
*Cavan dağda od var deyir,*
Otnu alağan kuş bar dey
*Odu alan quş var deyir,*
Kuşnu kara gözleri bar dey
*Quşun qara gözləri var deyir,*
Kanatları bulutlanı yara dey
*Qanadları buludları yarır deyir,*
Ot alma barğan adamnı
*Od almağa gedən adamın,*
Bauruna yara sala dey
*Bağrına yara salar deyir.*

## *Mifoloji əfsanələr. Çevrilmələr*

### Unanay

Qədim zamanlarda Unanay adında bir qız var imiş. Kənddə səhəri gün nə olacaqsa, bir gecə əvvəl Unanay yuxusunda görürmüş. Bir dəfə Unanay anasına deyir ki, bizim dörd camışımız evə dönməyəcək, amma üzülmə, mən onları tapacağam. Anası qızının bu sözünə hirslənir və "bezdim səndən, hardan bilirsən?" deyə soruşur. Səhəri gün Unanayın dediyi kimi dörd heyvan evə dönmür. Unanay, sabah tezdən qalxıb onları axtarmağa gedir. Meşəyə yaxınlaşdıqda səslər eşidir. Eşitdiyi səsin nəyin səsi olduğunu anlaya bilmir. Qulağını yerə dirəyib dinlədikdən sonra bu səsin qaçan heyvanlardan gəldiyini anlayır və özü də o tərəfə doğru gedir. Unanay meşələrin sahibini görüb birdən-birə cin vurmuş kimi dayanır. Əlində oddan qamçısı vardı və həmin qamçı ilə heyvanları qovurdu. Qamçıdan "vuv vuuuv" səsləri çıxırdı. Unanay, qoz ağacına çıxaraq inləməyə başlayır. Meşənin sahibi qışqıraraq heyvanları geri qaytarmağa çalışır. Axır meşələrin sahibi heyvanları meşənin içinə salıb sevinərək "Vay vay! Hay! Anay, ananay" deyə qışqırır. Birdən qızı ağacda görür "Vah! Qızı, Unanay" deyir. Sonra yaxınlaşaraq Unanaya deyir:

Neçik çikting bu yerlege?
*Necə gəldin bu yerlərə?*
Neçik minding bu örlege?
*Necə mindin bu hündürlərə?*
Ne geltirdi seni mağa?
*Nə gətirdi səni mənə?*
Ne tileysen ormanlağa?
*Nə dilərsən meşələrdən?*
Tarık zatıng men bereyim.
*İstədiyini mən verim*
Ayt tilevungnu goreyim.'
*Diləyin nədir de görüm?*

Unanay isə onun duşüncələrini oxuya bilir. Meşə sahibinin ona pislik etməyəcəyini bilir və belə deyir:

– Mənim diləyim nədir ki, taleyim də nə olsun? Dörd heyvanımız vardı, onları axtarıram, ancaq heç izinə də rast gəlmədim. Sənin ağacın çox pisdir, axtarmaqdan yorulanda gözəl qoxusu var deyə altında oturdum ki, dincəlim, ancaq o məni götürüb budağına qaldırdı. Sən gəlmədən buradan düşmədim, çox pis ağacın var. Meşə sahibi hirslənərək qamçısı ilə ağacı vurur. Ağaç yanmağa başlayır. Sonra meşədə güclü yanğın olur. Bütün heyvanlar ya qaçır, ya da ölür. Beləliklə qız meşəni yandıraraq əsəblərini sakitləşdirir. Meşə sahibi heyvanlarını Unanaya verir və o evinə geri qayıdır.

Bir dəfə də Unanay yuxusunda gözəl bir dəliqanlının atdan endiyini və yox olduğunu, ondan bir əbanın qaldığını görür. Səhər yuxudan oyananda anasına toy etmək lazım olmadığını, onların birlikdə olmayacaqlarını deyir. Anası:

– Mən nə edim bu qıza? Elə hey evimizə bayquş çağırır. Unanayın sozünə qulaq asmayan anası toy eləyir. Bəyi gətirib gələrkən yoldaşları ox atıb oynayırmışlar. Yoldaşlarından birinin oxu gəlir bəyə dəyir. Toy yasa dönür. Səhəri gün Unanay elə hala düşür ki, az qalır ölsün. Anası ondan soruşur:

– Qızım, sevgili qızım, mən sənin üçün nə edim?

Unanay cavab verir:

– Ana, mənə heç nə eləmə, amma məni muncuqlarımla bərabər meşənin sakit bir yerində basdırın. Qəbrimin üstündə quşlara yem verin.

Unanay öldükdən sonra oraya gedənlər qəbrin üstündə böyük, dairəvi bir daş görürlər. Gecə yuxusunda Unanayı görənlər "o daş sənə ağır gəlmirmi?" deyə soruşur. Unanay da "onu siz anamdan soruşun" deyir.

## At yoxdur

Dünyada iki yetim varmış. Biri oğlan, biri qız. Bunlar, çox pərişan və kasıb imiş. Bunlara atalarından bir at qalır. Bir gün oğlan yemək axtarmağa çıxarkən bacısına deyir ki, ata yaxşı baxsın. Bacı evdə oturub qızıl iplərdən corab toxumağa başlayır və atı unudur. Corablar hazır olduqda bir cütünü ayağına geyinir. Bir də baxır ki, at yoxdur. Gedir, atı axtarmağa başlayır, ancaq tapa bilmir və çox yorulub geri qayıdır. Qardaşının ona hirslə-

nəcəyindən qorxan bacı Allaha yalvarır ki, onu quşa çevirsin. Fikirləşir ki, əgər quş olsa, uçub atın yerini tapar. Allah qızın bu istəyini eşidir və onu bir ayağı ağ, o biri ayağı qırmızı bir quşa çevirir. Bu quş bütün dünyanı "at yoxdur, at yoxdur" deyə gəzir.

Qardaş gəlib görür ki, nə bacısı var, nə də at. O da Allaha yalvarıb onu quşa çevirməsini istəyir. Qardaş da fikirləşir ki, quşa çevrilsə, gedib bacısını da, atı da tapar. Allah qardaşın da istəyini yerinə yetirib onu quşa çevirir. Bu quş isə "at cəhənnəmə, qız yoxdur" deyə oxuyaraq dünyanı gəzir. Bacı quş illər sonra bizim tərəflərə uçur, ancaq qardaş quş Məkkədə qalır. Hələ də bu bacı-qardaş bir-birini görmək istəsə də, görüşə bilmirlər. Deyirlər, onlar axirət zamanı görüşəcəklər.

## Daşa dönən qoyunlar

Yaşlı bir qadın və əri çox pərişan bir həyat sürürmüş. Bu qadın Allahdan var-dövlət istəyir. Allah da o qədər var dövlət verir ki, yığıb yığışdırmaq olmur. Ərinin adı Harun, arvadın adı isə Zalım imiş. Bir dəfə Harun qoyunlarını sayırmış. Minincini sayanda bunlara bir qonaq gəlir. Qonaq deyir:

– Salamunəleyküm, evinizə bərəkət!

Ev sahibləri deyirlər:

– Əleykümsalam, qonaq, sənə də bərəkət, içəri gəl.

Qonaq içəri gəldiyi vaxt qadınla əri bir-birinə baxırlar. Qonaqlarına qulluq etmək istəyirlər, ancaq min dənə qoyundan birini kəsməyə razılaşa bilmirlər. Əri çox düşünmədən pişiyini kəsib qonağa təqdim eləyır. Qonaq işarə barmağı ilə ətə toxunub deyir:

– Qalx heyvan, sən mənə haramsan!

Pişik miyoldayaraq süfrədən qalxıb gedir. O gündən sonra ər güvə, arvad isə taxta qurusuna dönür. Bütün var-dövlətləri isə daşa dönür.

Daşa dönmüş var-dövlət Başlıkənd kəndinin arxa tərəfində Selliyə gedərkən görünür.

## Daş atlı və sevgilisi

Bir bəyin Rəbiyə adında bir qızı olur. Qız, anasını xatırlamır, atası isə çox yaşlı imiş. Rəbiyəni qoruyan Abdulməcid adında bir qardaşı varmış. Rəbiyə günəş çıxmadan qalxıb namazını qılır,

səhəngini alıb su gətirməyə gedir. Birlikdə getdiyi qızlar, oğlanlar haqqında, atlar haqqında danışarkən Rəbiyə səssizcə dayanır. Qızlar danışarkən ondan da kimi sevdiyini soruşurlar.

Rəfiqələri onun hər axşam kimin üçün bəzənib-düzəndiyini bilmir. Qızlar axşamlar sevinə-sevinə su gətirməyə gedirlərmiş. Çünki çayın digər tərəfində oğlanlar atları ilə oyun oynayırmış. Abdulməcid də o oğlanların arasında imiş. Bir müddət sonra oğlanların arasına o kənddə yaşayan sadə geyimli bir dəliqanlı da anası ilə birlikdə qatılır. Bu dəliqanlı ilə Abdulməcid rəqib olurlar.

Bir cümə günü, oğlanlar səhərdən axşama qədər əsgər oyunları oynayırlar. Oyunlardan əvvəlki yarışda Abdulməcid qalib gəlir. Daha sonra ox atışlarında, Aslan adındakı bu dəliqanlı qalib gəlir. Bu iki qalib əvvəl uzun dəmir mizraqlarla qarşı-qarşıya gəlirlər. Hansı əvvəl yıxsa, o da qalib gələcəkmiş. İlk atışı Abdulməcid edir. Birdən qızların arasından bir qışqırıq səsi eşidilir. Görürlər ki, Rəbiyə özündən gedib yıxılıb. Qızın rəfiqələri Rəbiyəni qaldırırlar, o isə tez ayağa qalxıb evə gəlir. O anda da Aslan, Abdulməcidin mizrağını qılıncı ilə yerə salır. Sonra atından da yerə salır. Bunu görən xalq "afərin, Aslan, bundan belə kəndimizin ən igid adamı sənsən" – deyə qışqırır.

Abdulməcid məğlub olduqdan sonra qalxıb Aslanı qucaqlayır "belə igidə qoyunlarım fəda olsun", – deyib onu axşam yeməyinə dəvət edir. Axşam atlarını tövləyə bağladıqdan sonra salam verib evə girirlər. Aslan evdə bir qız görüb bunun Abdulməcidin bacısı olduğunu düşünür. Abdulməcid də bacısına – bizə yemək hazırla deyir. Bacısı dərhal yemək hazırlayır. Ev isti olduğundan həyətdə ağacın altında otururlar. Birdən Rəbiyə Abdulməcidə deyir ki, atı açılıb qaçıb. Abdulməcid də Aslanın atına minib atının arxasınca gedir. Aslan isə uzanıb göy üzünü seyr edirmiş. Birdən yanına birinin gəldiyini hiss edir. Başını qaldırıb baxdığında qarşısında çox gözəl bir qız görüb təəccüblənir. Aslan ona baxıb "qardaşını axtarırsansa, o burda deyil" deyir. Qız deyir:

–Yox, mən onu axtarmıram, mənə Aslan lazımdır.

Aslan soruşur:

–Niyə?

Rəbiyə deyir:

–Bu yeməklərdən yemə, qardaşım səni zəhərləmək istəyir. Bunu sənə söyləmək üçün atını açıb göndərdim.

Aslan deyir:

–Sağ ol, mənim həyatımı qurtardın ancaq niyə qardaşın məni zəhərləmək istəyir?

Rəbiyə cavab verir:

–Bu gün ona qalib gəldin deyə.

Aslan qızın sözlərinə inanmaq istəmir və deyir:

–Ola bilməz!

Rəbiyə isə təkidlə deyir:

–Mənim qardaşım bu kənddə özündən daha igid birinin olmasını istəmir. Aslan qızdan soruşur:

–Sən niyə mənə qarşı belə yaxın davranırsan?

Rəbiyə deyir:

–Mənim bunun üçün bir səbəbim var.

– Rəbiyə bunu deyir və utanır. Aslan təkid edərək qızdan "Bunu mənə söyləməlisən" deyir. Rəbiyə bir təhər kəkələyir. Aslan qızı anlayaraq "Bəlkə məni sevirsən?" deyə soruşur. Rəbiyə "hə" cavabını verir. Aslan – "elə isə səni qardaşından istəyərəm, əgər verməzsə, qaçıraram. Razısanmı?" deyə soruşur. Elə bu vaxt Abdulməcid atı gətirib həyətə bağlayır.

Daha sonra bunlara yemək verilir. Aslan başının ağrıdığını bahanə edərək yeməkdən yemir. Səhərisi gün Aslan Rəbiyəyə elçi göndərir. Ancaq qızın qardaşı qızı vermir. Aradan xeyli keçmiş bir gün Aslan maral ovuna çıxır. Ancaq Rəbiyə Aslanın yadından çıxmırdı. Öz-özünə düşünür ki, "Abdulməcid, istəsən də, istəməsən də bacını mənə verəcəksən!"

Bir gün söz-söhbət olur ki, Rəbiyəni qonşu kənddən varlı biri istəyir. Bunu eşidən Aslan Rəbiyəni gəlin gedərkən qaçırmağı planlaşdırır. Rəbiyə rəfiqəsi ilə Aslana xəbər göndərir ki, bu varlı adama ərə getmək istəmir. Aslan da qızın rəfiqəsi ilə xəbər göndərir ki, gəlin köçərkən onu qaçıracaq.

Rəbiyə gəlin köçərkən bir atlı qaçaraq gəlin alayına gəlir, gəlin atdan düşdüyü anda gəlini alıb qaçır. Atlı Aslan imiş.

Abdulməcidə xəbər çatır ki, Aslan bacısını qaçırıb. Abdulməcid bunu eşidən kimi onların dalınca gedir və yolda onları haqlayır. Abdulməcid əlini uzadıb Rəbiyəni özünə tərəf çəkərkən Rəbiyə Allaha yalvarır ki, Abdulməcidə təslim olmaqdansa, daşa dönsünlər. Dua bitən kimi Aslan ilə Rəbiyə daşa dönür və qılıncını endirən Abdulməcidin əli havada asılı qalır.

**Daşa dönən Aymesedu**

Əvvəllər Çoxakənd deyilən yerdə igid, qoçaq bir oğlan yaşayırmış. Onun adı Əli imiş. Əli öləndə, kəndliləri bu sözü deyib ağlayırmışlar:

Tuvğansan sen, Ali batır, atangnı tör üyünde,
*Doğuldun sən, Əli igid, atanın evində,*
Tavlar-taşlar ösdürgen seni aya-kolunda.
*Dağlar-daşlar böyüdüb səni əlində-ovucunda.*
Kirindire bolğan seni güzgü yangurlar...
*Çimdirdi səni payız yağışları...*

Meşədə hansı heyvan varsa, Əli böyük heyvanların buynuzlarından tutub iki yarırmış. Əlinin (həm də Əlisoltan) Aymesedu deyilən gözəl bir xatunu da vardı. Əli ovçuluq edir, Aymesedu ev işlərini görür, gözəl bir kənddə yaşayırlar. Əlinin var-dövləti olmasa da, onu biləyinin gücünə görə xalq “Sultan” adlandırır. Əlisoltanın ox atsan batmayan paltarı varmış.

Bir dəfə Əlisoltan donuz ovunda idi. O donuzun qulaqlarından tutub, iki yaranda sıyrılıb onun əlindən qaçıb çıxır və Əlini vurub, sinəsindən ağır yaralayır. Əli ağır yaralı halda itininköməkliyi ilə donuzun altından çıxır və onu paralayır.

Donuzu öldürdükdən sonra Əli axşam iti ilə birlikdə evinə qayıdır. Aymesedu onun sinəsindəki yaranı görüb: “Ay aman! Sənə nə oldu belə? Kim səni qızıl qanına boyadı, kim bu böyük yaranı sənin igid canına saldı?”– deyə fəryad edir. Nə edirsə, Əlini danışdıra bilmir. Əli “Qadının ağlı ətəyində olur, dursa yerə tökülər. Kişi öz sirrini qadına verməz” deyə düşünür.

Aymesedu Əlisoltanın yarasını sağaltmaq üçün otlardan yığıb gətirib, məlhəm hazırlayır. Ancaq neyləsə də, Əlinin yarası sağalmır. Qadın Əlinin dərdini çəkir. Bir gün dərin fikrə qərq

olanda Əlinin iti ona yaxınlaşıb: "Düşüncələrin yaman ağırdı, başın nəyə qarışıb" – deyə soruşur. "Fikrimdə nə olsun? Əlinin yarasını fikirləşməkdən mənim ürəyim rahat olmur. Özü də nə olduğunu demir," – deyə Aymesedu cavab verir. "Aymesedum, mən nə olduğunu deyim sənə. Amma sən bu sirri Əlisoltana deməzsən"

„Onu qara donuz vurub" – deyə it cavab verdi. Qadın baxıb deyir: "Mən bir daha donuz ətini yeməyəcəm, bu gündən sonra donuz əti haram olsun!" – deyə söyləyir.

Əlinin yarası isə gündən-günə dərinləşir.

Aymesedu onu çay yatağına aparıb yarasını su ilə yuyur. Su duzlu olduğu üçün Əlinin yarasını lap çox ağrıdır. Bunlar neyləsə də, yara sağalmır. Əlinin yarası irinləyir. Bir azdan Əli ölür. Aymesedu isə bundan sonra hər gün sübh namazına durub, su yatağına gedib, belə bir vayax deyir:

Yenglerimni çayıp tuzlu suvlarda,
*Qollarımı batırıb duzlu sularda*
Yara yapırak izledim çuvlarda.
*Sakitlikdə yara yarpaqları izlədim*
Suvda çaysam, yaralarıng sızlar dep`
*Suda çabalasam, yaraların sızlar deyib*
Yapırak balham bolup, yarang tınar dep.
*Yarpaq məlhəm olar, yaran sakitləşər deyib*
Tavlar-taşlar netme bugün çartlamay,
*Dağlar-daşlar niyə bu gün çatlamır*
Alisoltan, nartday ulan, ölgen dep ?
*Əlisoltan kimi igid ölüb deyib?*
Semenderden alğan yangı haralanı
*Səməndərdən alan yeni xaraları*
Bugün tigip, giyermen karalar.
*Bu gün tikib, geyərəm mən qaralar.*
Kara günler, kayğı günler başımda,
*Qara günlər, qayğılı günlər başımda,*
Yüregime tüşdü ullu yaralar!
*Ürəyimə düşdü böyük yaralar!*
Seni alıp, çıksam da tavlağa,

*Səni alıb çıxsam da dağlara,*
Oltursam da yağa boylap, çuvlağa,
*Otursam da dağ ətəyində sakitcə*
Etek tutup, em izlesem de ozünge,
*Ətək tutub məlhəm etsəm də özünə.*
Kanlı yaşlar töksem de gözümden,
*Qanlı yaşlar töksəm də gözümdən,*
Kökler - yerler mağa yazıksınmadı!
*Göyün yerin mənə yazığı gəlmədi!*
Yangız yarılağan yapur yüreğim!
*Yalnız yarılıb partlayan ürəyim!*
Sari saznı yarıp, saldım karnına
*Sarı sazını yarıb qoydum qarnına*
Alimni devlege teng süyegin.
*İgid Əlimin cəsədini.*
Tuzlu suvlar, suv boylanı çayasız,
*Duzlu sular, su kənarlarını yuyasız,*
Insanlağa em suvlanı yayasız –
*İnsanlara məlhəm suyunu yayasız*
Men netgen edim sizge netmesdey
*Mən neylədim sizə mənə neyləmədiniz.*
Alimni yarasın sav etmesdey?
*Əlimin yarasını sağaltmaya?*
Hey, tolkunlar, urulasız taşlağa,
*Ey, dalğalar, vurulasız daşlara*
Yaş yüregime yallık bermeysiz!
*Cavan ürəyimə dinclik vermirsiz!*
Kabu yeller, anaklarda sızgırıp,
*Şərq yelləri, mağaralarda əsib*
Ahlarımnı Alime netme eltmeysiz?
*Ahlarımı Əlimə niyə aparmısız?*
Hey, nartlarday tal terekler,
*Ey, nartlar tək söyüd budaqları*
Batğıç boluğuz minmege köklege –
*Pilləkənlər olunuz, çıxmağa göylərə*

Kökler biyik batğıçsız minmege!
*Göylər ucadır, pilləkənsiz çıxılmır!*
Yer yemişler haram mağa aşama,
*Yer yemişləri yemək mənə haramdır,*
Tırnaklarım töle kazsın yaşama.
*Dırnaqlarım dəyə qazsın yaşama.*
Hey, gün, tutul, bolup yarıksız!
*Ey Gün, yararsız olub tutul*,
Hey, Ay, gürenlen, meni yazıksın!
*Ey Ay, gurlaş, mənə acı!*
Yaşav haram mağa, ölüm parz,
*Yaşam haram mənə, ölüm fərz*,
Hey, kayalar, tınglağız sesime,
*Ey qayalar,qulaq asın səsimə*,
Tikleringe mineyim men, yel eltsin.
*Tərkinə minim məni yel aparsın.*
Hey, kakalar, koşuluğuz yasıma,
*Ey dereler, siz də qoşulun yasıma*,
Töbeleringden tüşeyim – suv eltsin
*Təpələrindən düşüm–su aparsın*!
Hey, batmaklık, batdır meni tübünge,
*Ey bataqlıq, basdır məni dərinə*,
Aççı kamuş, tamurlarıng çaynayım!
*Acı qamışı, köklərini çeynəyim*!
Hey, humluklar, sıtığız meni gözlerimni
*Ey humluklar, sığayın mənim gözlərimi*
Tuma bolup yaşayım!
*Kor olub yaşayım*!
Kara ormanlağa barayımı?
*Qara meşəliklərə gedimmi*?
Kara kaban bolup enni kalayımı?
*Qara qaban olub elə qalımmı*?
Hey, kökler, köküregim netme teşmeysiz?
*Ey, göylər niyə kükrəyib daşmırsız?*
Tavuşumnu Alige netme eltmeysiz?

*Səsimi Əliyə niyə yetirmirsiz*?
Hey, yeller, netme urulmaysız tavlağa,
*Ey yellər, niyə daşlara çırpılmırsınız,*
Alimni netme koşmaysız savlağa?
*Əlimi niyə qoymursuz sağalmağa?*
Hey, gün, ya inandır ya yandır –
*Ey Gün, ya inandır, ya yandır –*
Külge döndür, bir karağa tayandır!
*Külə döndər, bir qırağa dayandır*!
Güçüng bar busa, elt meni köklege,
*Gücün varsa, yetir məni göylərə*,
Yok busa – yetti kat yerlege!
*Yoxsa–yeddi qat yerlərə endir*!
Cannat busa, elt hürü kızlanı yanına.
*Cənnət isə yetir huri qızların yanına.*
Badu cahannemdey dünya mağa görüne!
*Badu cəhənnəmtək dünya mənə görünür*!
Hey, gözlerim, netme çars bolmaysız!
*Ey gözlərim, niyə tutulmursunuz*!
Hey, kanım, netme suvğa dönmeysen?
*Ey qanım, niyə suya dönmürsən*?
Hey, yüregım, netme taş bolmaysan?
*Ey ürəyim, niyə daş olmursan*?
Hey, sesim, Alige netme yetmeysen?
*Ey səsim, niyə Əliyə yetmirsən*?
Hey, canım, çık sanımdan!
*Ey canım, çıx bədənimdən*!
Kaydan, Alisoltanım, yanınga yeteyim,
*Hardasan, Əlisoltanım, yanına gəlim*,
Yanağan göngümnü neçik yal eteyim?
*Yanan ürəyimi necə sakitləşdirim*?
Taşga kaplay ak mangayın, bu yazık
*Daşa qaplanıb ağ alnın, bu yazıq*
Tuzlu suvlar çayıp, rahat etsin dep.
*Duzlu sular yuyub rahat olsun deyib.*

Aymesedu şonda taşğa döngen, dey
*Aymesedu orada daşa dönmüş deyirlər.*
Taşga döngenin bir belgisiz görgen, dey
*Daşa dönəni biri görmüş, deyirlər*
Görüp onu, yazıksınıp getgen, dey.
*Görüb onu, heyfslənib getmiş, deyirlər…*

## Çohagentlilər

***I rəvayət*:**

Çohagent (Çuha aul, Çoka aul) – yaşlıların dediyinə görə, Çohagent xalqı Guvani kəndinin yerində idi. Yaşlıların dediyinə görə, çohagentlilər ilandan qorxurlar. İlanlar adamlara göz açmağa imkan vermir, insanlar da məcbur qalıb yerin altında quyular qazıb yaşayırlar. Anası sudan gələnə qədər ilan beşikdəki uşağı yeyib beşikdə qıvrılıb yatır. Beləliklə çox illər yaşayırlar. Sonra bunlar böyük təpələrdə yerləşdiklərini deyirlər.

***II rəvayət:***

Səməndər – Xəzər xaqanlığının şəhəridir. Alimlərin bir çoxu Mahaçqala yerləşən yerdə olduğunu iddia edirlər. Səməndər çox böyük şəhər olub, burda ticari, mədəni əlaqələr inkişaf etmişdir. Burda müxtəlif parça növləri satılırmış.

## Zülqərneyn padşahın altun buynuzları

Zülqərneynin iki altun buynuzu varmış. Buna görə də onun saçlarını qırxan adamı öldurürmüş. Beləliklə sirrini uzun illər gizləməyi bacarır. Çağırdığı hər bərbəri öldürdükdən sonra növbə Umar adlı birinə çatır. Zülqərneyn saçını bu bərbərə kəsdirdikdən sonra öldürülməsini əmr edib. Umar padşaha "Mənim səkkiz uşağım, xəstə bir anam və arvadım var, məni öldürtmə" – deyə yalvarır. Buynuzlarının olduğunu kimsəyə söyləməyəcəyinə söz verir. Padşah Umarı bağışlayır, lakin bu sirri başqasından eşidərsə, başını kəsdirəcəyini deyir.

Umar illərcə bu sirri gizləyir. Amma bu sirr Umarın içində ağır daş olub sallanır. Bir gün yolda gedərkən bir quyu görür.

Quyunu görüb sevinir. Quyuya əyilib “Zülqərneyn padşahın iki altun buynuzu var” – deyə bir neçə dəfə qışqırır. Bir az dincəlib evə dönür. Yaz gəlir, havalar isinir. Quyunun içindən qamışlar böyüməyə başlayır.

Quyunun olduğu yerə qoyun sürüsü ilə bir çoban gəlir. Bu qamışlardan bir qaval düzəldir. Ağacın altında oturub qavalı çalmağa başlayır. Çaldıqca qavaldan –“Zülqərneyn padşahın iki altun buynuzu var” səsləri çıxmağa başlayır. Elə bu vaxt yoldan arabası ilə gedən padşah bu sözləri eşidir. Padşah tez Umarı yanına çağırtdıraraq deyir:

– Mən sənə xəbərdarlıq etdiyim halda bu sirri kimə söylədin? İndi qulaq as, gör, qavaldan nə səs çıxır?!

Umar çarəsiz yalvarır:

–Vallahi, padşah sağ olsun, bu sirri heç kimə deməmişəm. Ancaq dözə bilmədiyimdən bir quyuya qışqırmışam. Beləcə Zülqərneyn padşahın altun buynuzlarının olduğu dünyaya yayılır. Elə buna görə də qumuqlar – “Birinin bildiyini hər kəs bilər” deyirlər.

## Patimat və Əli

Məhəmməd peyğəmbərin qızı Patimat əri Əliyi sevmirmiş. Amma onunla şəriətin qaydalarına görə yaşayırmış. Atası öləndə belə ərinə demədən cənazəyə getməyib. Qonşusunun əri çoban imiş. Görür ki, bu çobanın arvadı əri gəlmədən yeməyi hazırlayır, yatağını düzəldir və onu döyməsi üçün qapının arxasına çubuq qoyur. Bunu görən Patimat təəccüblənir – “Bu arvad çoban ərini belə qarşılayır, ancaq mən gündə 100 kafirin başını kəsən ərimə bir yemək belə bişirmirəm” – deyərək özünü qınayır. Evə gəlib quş tükü yastıqları sərir, yaxşı yemək bişirir və gözləməyə başlayır. Atın səsindən ərinin gəldiyini anlayaraq Əlini qarşılayır. Qılıncını alır, atından düşəndə kömək edir. Əli buna çox təəccüblənir. Soruşur:

– Nə oldu sənə, Patimat, mən gündə yüz kafir öldürürəm, ancaq sabah sənin üçün 101 kafir öldürəcəm. Səhərisi gün Əli yüz kafirin başını kəsir, ancaq söz verdiyi 101-ci kafiri tapa bilmir. Hava çox isti imiş. Alnına dəsmal qoyubmuş ki, tər gözünə düşməsin. Tərini silmək istəyəndə qaibdən səs gəlir ki,

gir məsciddəki adamı öldür. Əli məscidə girəndə görür ki, bir molla Quran oxuyur. Əli Quran oxuyan birinə qıya bilmir. Ancaq qaibdən səs əmri təkrarlayır. Əli naəlac qalıb adamı öldürür. Ölən adamın bir tərəfi it, bir tərəfi də donuz şəklinə düşür. Ona görə ki, Quran oxuyan adamın ürəyi çox xəbis imiş. Axşam evə gələndə hər şeyi Patimata danışır.

### Qoçunun və onu qorxudan çobanın xəbəri

Endireydə bir çoban olur. Orada bir qoçu da olur. Hər kəs bu qoçudan çox çəkinir.

Qoçunun bir sopası da varmış. Sopanın başı tənbəki, yanı müştük imiş. Bir kəndə, bir yaşayış yerinə gedəndə tənbəkisinə tütün qoyub içinə çəkərək oturarmış. Qoçu, kənddə bir qıza göz qoysa, o qız bir daha ərə gedə bilmirmiş. Qoçunun qorxusundan kimsə o qıza yaxın durmurmuş.

Tərəkəmə körpünün yanında endireyli bir çoban da vardı. Bir gün axşamüstü çoban qoyunlarını hasara salıb, hasarın qapısında da itlərinə yal töküb, özünə gərəkli şeyləri almaq üçün kəndə enir.

Çoban özünə lazım olan şeyləri alıb qayıdarkən, görür ki, bir həyətdə iməclik var. Çoban iməcliyə girib, qarığıdalı yığınının üstündə oturur. Bir azdan "oho" deyə bir səs gəlir. Oğlanlar-qızlar qoçu gəldi deyib səssiz dururlar. Qoçu qəlyanını da çəkib, çobanın yanında, qızların qarışısında oturur.

Çoban:

–Hey, dostum, belədir! – deyib bir qıza hay verir. Yanındakılar sakit dillənir:

–Hey, o qoçunun dostudur, niyə hay verirsən? – deyirlər.

Çoban da:

–İməclikdə dost olmaz – deyir. Qoçu baxa-baxa qalır, səsini çıxara bilmir. Çoban ikinci dəfə səsləyir. Qız çobandan çəkinib almır. Çoban bir daha:

–Hey dostum belə insan! – deyib qıza hay verir. Qız:

– Canın sağ olsun deyib, – çobanın sözünü alır. Bir az qızla zarafatlar da edib, falanca bacımsan deyib, qızı bacı da elan edib, çoban qayıdır. Qoçu:

– Çoban, biz harda görüşək? - deyir. Çoban:

– Mən Tərəkəmə körpünün altında çobanlıq edirəm. Ora gəlsən, görüşərik – deyib gedir. Sonra qoçu da durub gedir.

İməclikdəki oğlanlardan ikisi qoçu çobanı öldürməyə gedəcək, biz də gedib olanlara tamaşa edək deyib gizlində durub izləyirlər. Baxıb görürlər ki, qoçu ata minib, qəlyanını da tüstülədib, "Çoban!" deyə qışqırır. Çoban:

– Höy, höy – deyə səslənir. Qoçu siyirib qılıncını çəmənə doğru uzadır.

– Bax ki, bu xəncər necə xəncərdir? – deyir. Çoban da xəncərə baxıb deyir:

– Xəncərinə söz yox, onu tutan zəif deyilsə, xəncərin sınmayacaq. Sonra qoçu tapancasını uzadır.

– Bəs bu tapança necədir? Çoban alıb baxır:

– Tapança da yaxşıdır. Qundağından tutan zəif olmazsa, tapançan xarab olmaz, – deyib qaytarıb verir.

Çoban özünün topuğuna qədər uzanan xəncərini siyirib çıxarır və qoçudan soruşur:

– Qoçu, bu xəncər necədir? – deyib qoçuya uzadır. Qoçu xəncəri alıb baxır: qara rəngi soluxub bir söz demədən geri qaytarır. Çoban, çaxmağını çıxarıb göstərir:

– Bu tapança necədir? Qoçu alıb ağzına baxır: "belə ki, dəydiyi yeri gömgöy eləməsin". Başqa bir söz də deməyib, qaytarıb verir. Atının başını kəndə doğru çevirir. Çoban:

– Ay qoçu, getmə, bir çəkişərdik! – deyir.

Qoçu deyir:

– Yox, yox! Mən mənə diş batırmaq istəyən qurdu indicə gördüm – deyib atına qamçı vurub, ordan uzaqlaşır.

### Soğan-çörək yeyən çobanın rəvayəti

Bir kənddə bir kişi olur. O kişinin bir sürü qoyunu varmış. Bu kişi qoyunlarına baxmağa bir çoban tutur. Çobana bunları deyir:

Mən bir ilin tamamına qədər sənə yeməyə soğan-çörək verəcəm. Başqa heç nə verməyəcəm. İl bitəndə tövləyə girəcə-

yik. Hansı malı göstərib qırağa çəksən, o sənin, qalanları mənim olacaq. Razısanmı? Çoban:

– Razıyam – deyir. Bir il boyu soğan çörək yeyib qoyuna baxır. İl başa çatan gün çobanı tövləyə aparıb qarışısında durur. Çoban qarışısında duran bir toğlunu götürüb tövlədən çıxır. İkinci toğlunu da götürüb tövlədən çıxanda ayaq saxlayır və düşünür ki, bir il qoyuna baxdım ki toğlum oldu. Gərək mən bu iki toğlunu 10 qoyun edim burda.

Sonra qoyun sahibinə deyir:

– Əgər razı olsan, mən bir il daha sənin qoyunlarına baxaram. Qoyun sahibi:

– Razıyam – deyir. Çoban bir il daha qoyunlara baxır. Bu il soğan-çörək də yemir. Səhər axşam verilən soğanları alıb kənddən çıxanda soğanları bir ağacın dibinə qoyur. Qoyunları sağıb içər deyə, çobana su içməyə də qab vermirlər. Çoban harda ki su olur, çörəyini orda su ilə yeyir, su olmayan yerdə yavan çörək yeyir. Qoyunlar süd verməyə başlayanda hər gün qoyunların məməsini əmib süd içir.

İl bitən gün çoban tövləyə girib qoyun sahibinin qarışısında dayanır. Çoban bir-bir heyvanları çölə çıxarır. Qoyun sahibi də baxır.

Qoyun sahibinin qızının bir quzusu vardı. Qız onun başına xına yaxmışdı. Tövlənin bir qırağında mələyə-mələyə təkcə o quzu qalır. Çoban gedib o quzunu da tutur. Qız qaçıb gəlir ki, onun əlindən quzusunu alsın. Amma çoban imkan vermir. Sonra qoyun sahibinə deyir:

– Qızının əlindəki quzunu da aldım. İndi nə deyəcəksən de! Qoyun sahibi deyir:

– Sən deməyə bir söz qoymadın. Aparırsansa, daha mal da səninki, qız da səninki. Bizi də yazıq etməzsən, baxarsan.

Çoban qoyun sahibinin qızını da, malını da alıb, öz malına özü çobanlıq edib yaşayırlar. Bir ildən sonra əkdiyi soğanların ağacın dibində yetişməyə başladığını görürlər.

# MİFOLOJİ İNAMLAR. YASAQLAR. SINAMALAR. OVSUNLAR. DUALAR

## Qızıl təşti

Deyilənə görə yerin altında gəzən bir altın təsti var imiş. Günahsız insanların ayağı bu quyuya (kümes) girirmiş. Ayağı quyunun içinə girən kişi əlini uzatdığı vaxt ovcuna qızıl dolurmuş. Əgər o adam bunu heç kimə deməzsə, ayağını da yerə iki dəfə vurarsa təsti öz-özünə onun yanına gəlirmiş. Bir dəfə Allah təştiyi pis birinin qarşısına çıxarır. Bu adamın ayağı təstiyə girən kimi əllərilə qızılları çıxarmağa başlayır. Ancaq aldığı qızıllar qara rəngli ilanlara dönüb bədənində gəzməyə başlayır.

Bir dəfə də qızıl təsti yaxşı bir adamın qarşısına çıxır. Ancaq bu adam yerdən heç bir şey götürmədən təstiyi gördüyü yeri yadında saxlamayıb. Heç kimə də bunu deməyib. Gecə yuxusunda görür ki, bir nəfər ona deyir ki, ey miskin, bir dəfə də qızıl təstini yaxşı adama nəsib eləmək istədim. Bəs niyə əyilib onu götürmədin? – deyə soruşur. Səhər yuxudan oyananda gəlib həmin yerə baxır. Ancaq orada təstini tapa bilmir və şansını itirir.

## Qamışdan hörülmüş səbət

Əvvəllər bir kənddə bir adam yaşayırmış. Bunun heç kimi yox imiş. Atasının tək övladı imiş. Onun da bircə oğlu varmış. Bu uşaq atasına çox hörmət edirmiş. Bir gün padşah fərman verir ki, 60 yaşını keçən hər kəsi aparıb dağdan atsınlar. Bu əmri yerinə yetirməyən adam öldürüləcəkdir. Həmin bu kişi oğluna deyir ki, evin ortasında dərin və böyük bir yer qazsın, onu orada saxlasın. Sonra camaatın gözünü boyamaq üçün bir səbət götürsün, bu səbəti çaya atsın. Beləliklə də guya atasını çaya atdığını göstərmək üçün oğlunu da aparıb gedir. Bu kişinin oğlu balaca idi. Atası uşaq ağzından qaçırmasın deyə səbətin içindəkinin babası olduğunu söyləyir. Bunlar gəlib dağın başına çatanda götürüb səbəti dağdan yerə atır. Nəvə bunu görəndə qışqırır ki, – niyə atdın səbəti?!

Aradan bir xeyli keçir, uşaq bir gün gəlir atasından soruşur ki, ata, bəs mənim səbətimi niyə atmısan? Mən səni nəyin içində atacağam?

Bu söhbətdən bir xeyli keçdikdən sonra yayda sular azalır, hamı səbətin boş olduğunu görür. Məlum olur ki, oğul öz atasının səbətini boş atıb.

## Oğlan deyil qız

Bir ailənin hər il bir oğul övladı olurmuş. Uşaq olan kimi də ölürmüş. Çox yaşamırmış. Ailəsi də sonuncu uşaqları anadan olanda, başına saç qoyur. Bununla uşağın oğlan yox, qız olduğunu göstərmək istəyirlər. Üstündən 3 il keçir. Bir gün bir toyda uşağın saçını kəsirlər. Bu el adətiymiş. Hələ də var. Əgər bir ailədə oğlan uşaqları anadan olan kimi ölürsə, onda o uşağın başına saç qoyur, onu qıza bənzədirlər. Uşağın adını da gərək Qalsın qoyasan. Əgər ailədə qız uşağı çox olarsa, onda onun adı Qıztamam qoyulur. Əgər ailədə xəstə uşaqlar çox olarsa, onda uşağın adı Daşdəmir, Dəmirpolad, Dəmirbəy olur.

## Bayquş

Bayquş 60 ildən sonra yaşamaq istəmirmiş. Bundan başqa, bayquş nə deyirsə, o da olurmuş. Xalq arasında bayquşa "kikimav" deyilir. Ancaq bayquşa baxıb bu sözü desən, bayquş səni lənətləyərmiş. İnsanlar "məmləkətinə səni bayquş çağırsın" qarğışına tuş gəlməmək üçün bu quşa bayquş deyilir. Hər hansı bir yerdə quşun səsi eşidilirsə, "Bayquş, oğlun, qızın evlənsin, sən də məqsədinə çat" deməlidir.

## Quru qurbağa

İsti yay günlərində otun arasında gözəl səsi ilə bir qurbağa olur. Bu qurbağanı tutub qaynar suya atmaq lazımdır. Bu qurbağanı atan onun səsini eşitməmək üçün qulaqlarını bərk bağlamalıdır, çünki qurbağanın səsini eşidən adam ölə bilər. Bundan sonra qurbağanı sudan çıxarıb qarnını açdıqdan sonra içindəki dırmığa bənzəyən sümüyü götürmək lazımdır. Qız sevən oğlan və ya oğlan sevən qız bu dırmığa bənzəyən sümüyü onun boynunun

arxasından aşağıya doğru Bəsmələ çəkərək “sən həmişə mənim ol, mənə dön” deyərsə, bu qız və ya oğlan ölənə qədər bu adamı sevər.

## Qurd ağzı duası

Qədim zamanlarda bir adamın hər hansı heyvanı itərsə, onda qurdun ağzı bağlanırmış. Çox insan bu adətin günah olduğunu düşünərək etməzmiş. Qurdun ağzı belə bağlanırmış: bir ip götürülüb 7 dəfə düyün vurulur. Hər düyün atdıqca da bir dua oxunur və yerə atılır. Bunu edən adam heyvan sahibinə, heyvanı geri qayıdan kimi ona xəbər verməsini söyləyir. Çünki qurdun ağzı bağlandıqdan sonra sadəcə o heyvan deyil, bütün heyvanlar ac qalar. Əgər qurd su üstündən keçərsə, onda bu dua keçərsiz olar.

## İsitmə (Qızdırma)

Bir nəfərin belə bir xəstəliyi var idi. Onun anası, bacısı qonşudan soruşur:

– Bu xəstəliyin çarəsi nədir? Qonşu da cavab verir:

– Bu xəstəliyə çarə mənim yemək üçün bişirib sənə verəcəyim şeydir.

Qonşunun söylədiyi də tam olaraq yerinə yetirilməlidir.

## Gujara

Gujara bitkidir. Bu ot xəstəlik zamanı faydalıdır. Ancaq bu otu almaq üçün gərək it səsi eşidilməyəcək qədər çox uzağa gedəsən. Otu tapdıqdan sonra ota salam verib “salamun aleyküm, gujara, sənin adın gujara isə, səni almağa gəldim, sən mənimsən; yeddi xəstəliyə sən çarəsənmi?” deməli və otu götürüb gəldiyi yoldan arxasına baxmadan, geri dönüb otu qaynadıb və buxarını üzünə doğru tüstüləməlidir ki, xəstəlikdən qurtulsun.

* * *

Boylu (hamilə) qadın bir yerə getsə, arxasınca bunlar deyilir:

– Ba hanapi, hanapi!

*–Ay hanapi, hanapi!*

– Oğlan tapsın ya rəbbi!

*–Oğlan tapsın ya rəbbi!*

– Oğlun böyük olub,
–*Oğlun böyük olub,*
– Halat yapsın ya rəbbi!
–*Xalat tiksin ya rəbbi!*

* * *

Xəstə birini baş çəkməyə gələnlər xəstəni gördükdən sonra çıxıb gedərkən ev sahibləri onların arxasınca çıxarsa, xəstənin halı pisləşər. Ev sahibləri belə etməməlidir. Çünki xəstəliyi ziyarətçilərin alıb apardığına inanılır.

* * *

Biri evindən uzağa gedərsə, onun arxasından ev süpürülməməlidir. Gedən adam getdiyi yerə çatdıqdan sonra süpürülə bilər.

* * *

Əri buğda əkməyə gedən qadın evi üç gün süpürməməlidir. Çünki süpürülən evin bərəkətinin qaçdığına inanılır.

* * *

Əgər kimsə geyindiyi papağı əlində fırladarsa, onun başı ağrıyar.

* * *

Çaydanın ağzı evə gələn qonağa doğru qoyulmaz. Yoxsa ev sahibi ilə qonaq savaşar.

* * *

Qazanın qapağı çox fırlandırılarsa, onda qazanın bərəkəti qaçar.

* * *

Günəşə və aya çox baxanın gözəlliyi azalır.

* * *

Əgər kimsə yanında ilan dərisi saxlayırsa, ilan o adama toxunmur.

* * *

Əzrayıl can almağa gələndə atını şaftalı ağacına bağlayır. Buna görə də şaftalı ağacı bir-iki ildən sonra quruyur.

* * *

Revmatizmdən narahat olanlar ağrıyan yerlərinə dovşan dərisi bağlasa, xəstəliyi gedər.

## MƏRASİM FOLKLORU

### *Mövsüm mərasim mətnləri*

Təqvim mərasimlərində Güdürbay əhəmiyyətli yer tutur. Ona müxtəlif adlar verilsə də (məsələn: Güdürbay, Hüssemey, Kassamay, Massay və s.) məzmunca əsasən eynidir.

Güdürbay mərasimi payızda ya da qış başlayanda yerinə yetirilir və onun mənası yeməyi qaytarıb növbəti il daha yaxşı məhsul üçün Allaha yalvarıb ona sadağa, qurbanlar, nəzir-niyazlar verirlər.

Zəmirə isə quraqlıq zamanında yağış yağdırmaq üçün edilən bir mərasimdir. Əgər Güdürbayda sadəcə kişilər və cavan oğlanlar iştirak edirdisə, Zəmirədə qadınlar və qızlar iştirak edirdilər. Yağış yağması üçün bir qab su götürüb məhsulun üstünə tökür, sonra müxtəlif növ yumurta, un verir və b. mərasimlər edirdilər.

Novruz bayramı zamanında qumuqlar "gəlincik" bəzəyirlər. Novruz farscada "yeni gün" anlamında istifadə edilir. Bu bayram fars və türk xalqları arasında qeyd edilir. Tarixi 22 martdadır.

Yırlayık tanglar katğınça,
*Oxuyaq dan yeri sökülüncə*
Tangçolpanlar batğınça
*Dan ulduzları batınca,*
Çolpan tuvsa ay batar,
*Çolpan doğsa, ay batar,*
Biz yırlasak tang katar
*Biz oxusaq, dan batar...*

### Zəmire

Birev: – Ba Zemire, Zemire!
*Bir nəfər: – Ay Zəmirə, Zəmirə!*
Koro: – Halay!
*Xor: – Halay!*
Birev: – Zemirege ne gerek
*Birisi: – Zəmirəyə nə gərək?*

– Batman-batman suv gerek!
*– Batman, batman su gərək!*
– Tuvarçığa ne gerek?
*Dağarcığa nə gərək?*
– Ayağına tegenek!
*Ayağına dəyənək!*
– Koyçu ulanğa ne gerek?
*Qoyun saxlayan oğlana nə gərək?*
– Körpe çaçlı kız gerek!
*Körpə saçlı qız gərək!*
– Ala kaplar giygenbiz,
*Al heybələr geyindik,*
– Ak yangurlar yavsun dep
*Ağ yağışlar yağsın deyib*
– Gök kaplar da giyerbiz,
*Göy heybələr də geyinərik,*
– Kökürep yangur yavsun dep.
*Kükrəyib yağış yağsın deyib.*
– Becenler tolu bolsun!
*Çəlləyiniz dolu olsun!*
– Becenleni boşaltğan
*Çəlləyini boşaldanda*
Sari kurğaklık taysın!
*Sarı quraqlıq getsin!*
– Aşlıklar yaşnap kalsın!
*Yeməklərin təzə qalsın!*
– Aşlığından süyünüp,
*Yeməklərindən sevinib*
Sabançı yaşap kalsın!
*Cütcü sağlıklı galsın!*

**Mürhərək**

Birev: – Güdürbaynı görgenler!
*Güdürbayı görənlər!*
Koro: – Massay Mürherek ( 2

*Xor: – Massay Mürhərək*
– Mürherekge ne gerek?
*– Mürhərəkə nə gərək?!*
– Süt bulan ekmek gerek!
*– Süd ilə çörək gərək!*
– Koyçu ulanğa ne gerek?
*– Ovçu oğlana nə gərək?*
– Kongur çaçlı kız gerek!
*– Qonur saçlı qız gərək!*
Sabançığa ne gerek ?
*Cütcüyə nə gərək?*
– Sabanına suv gerek!
*Kotanına su gərək!*
– Biçençige ne gerek?
*Biçinciyə nə gərək?*
– Çalğısı itti gerek !
*Kərəntisi iti gərək!*
– Orakçığa ne gerek?
*Oraqçıya nə gərək?*
– Orağı itti gerek !
*Orağı iti gərək!*

**Güdürbay**

Birev: – Güdür-güdür güdürbay!
*Güdür güdür güdürbay*
Koro: – Hossay!
*Hossay!*
Birev: – Güdürbaynı görgenler!
*Güdürbayı görənlər!*
– Görüp, salam bergenler!
*– Görüb salam verənlər!*
– Salamıngnı ari koy!
*– Salamını geri goy!*
– Kapçığıma tari kuy!
*Torbama darı qoy!*

– Tari, kuysang tartarman
*Darı qoysan, üyüdərəm*
– Tartıp, boza etermen.
*Çəkib boza edərəm.*
– Kızıl öğüz kırk müyüz
*Qızıl öküz qırx buynuz*
Kırğa çığıp otlasın,
*Çölə çıxıb otlasın*
– Ulanınga kız gelip,
– *Oğluna qız gəlib!*
– Avul - honşu kutlasın!
– *Qonum qonşu qutlasın!*
– Kızıl öğüznü müyüzü
– *Qızıl öküzün buynuzu*
– Bozağa kartık bolsun,
*Bozaya qatılsın,*
– Berseng de, bermeseng de,
*Versən də verməsən də,*
– Devleting artık bolsun!
*Dövlətin artıq olsun!*

## Hüssemey

Birev: – Hali biz yetdik boyga,
*Bir nəfər:– İndi biz bir yerə çatdıg,*
Hor: – Massay husemey!
*Xor: – Massay, hüssemey!*
– Qotanı tolgan qoyga.
*Kotanı dolan qoya.*
– Massay husemey!
– *Massay, hüssemey!*
Kotanı tolgan qoy da bar,
*Kotanı dolu qoyun da var*
– Massay husemev
– *Massay, hüssemey!*

Qozulu qoyga gonum bar!
*Quzulu qoyuna gönüm var!*
– Massay husemey!
*Massay, hüssemey!*
Qozulu qoydan bolmasa,
*Quzulu qoyundan olmasa,*
– Massay husemey!
*– Massay hüssemey!*
Qocgar irkge gonum bar!
*Qoçqar qoyuna gönüm var!*
– Massay husemey!
*– Massay, hüssemey!*
Qocgar irkge de bolmasa,
*Qoçqar qoyuna da olmasa,*
– Massay husemey!
*Massay hüssemey!*
Tavga-tuzge capmaga,
*Dağda-düzde çapmağa,*
– Massay husemey!
*– Massay hüssemey!*
Tay tuyaqlı at gerek!
*Mədən qazan at gərək!*
– Massay husemey!
*– Massay hussemey!*
Bu uyleni sırlama,
*Bu evləri bəzəməyə,*
– Massay husemey!
*– Massay husemey!*
Ali değen nart gerek!
*Əli deyən nart gərək!*
– Massay husemey!
*– Massay hüssemey!*
Abzarıma ay tuşsun!
*Həyətimə ay düşsün!*
– Massay husemey!

*– Massay husemey!*
Altın terek ornasın!
*Qızıl ağac bitsin!*
– Massay husemey!
*– Massay husemey!*
Yılda geleğen şah qonaq,
*İldə gələn şah qonaq*
– Massay husemey!
*– Massay hüssemey!*
Atın şogar baylasın!
*Atın ora bağlansın!*
– Massay husemey!
*– Massay hüssemey!*
Atı xurma aşasın!
*Atı xurma yesin!*
– Massay husemey!
*– Massay heüssemey!*
Berse de, bermese de,
*Versə də, verməsə də,*
– Massay husemey!
*– Massay husemey!*
Ali yuz yıl yaşasın!
*Əli yüz il yaşasın!*
– Massay husemey!
*– Massay hüssemey!*

## Novruz nəğmələri

Birisi: – Bu uyler-ariv uyler,
*Bir nəfər: Bu evlər-gözəl evlər,*
İcinde altın cuyler.
*İçində qızıl cöplər.*
Assalamu alaykum,
*Əssəlamun əleykim,*
Tang yaxşı bolsun, heyler!

*Sabahınız xeyir olsun, heylər!*
Haza Navruz gunu mubarak!
*Haza Novruz günün mübarək!*
Barısı da: – Haza Navruz gunu mubarak!
*Xor:Haza Novruz günü mübarək!*
Şatman, şatman, Navruz gunu mubarak!
*Şatman, şatman, Novruz günü mübarək!*

* * *

– Navruz ete gelgenbiz,
*Novruz edərək gəldik biz,*
Bu gunnu bayram etip,
*Bu günü bayram edib,*
Şukur bolsun Allahga,
*Şükür olsun Allaha,*
Qutulduq yazga yetip!
*Qurtardıq yaza çatıb!*
Haza Navruz gunu mubarak!
*Haza Novruz günü mübarək!*

## ***Ailə-məişət mərasimləri***

### Toy poeziyası

Toy poeziyası qumuq folklorunda çox əhəmiyyətli bir yer tutmuşdur. Onlar xalqın ilkin inanışları ilə də əlaqədardır. Yeni evlənənlərin evliliyinin davamlı olması, gözəl keçməsi üçün sehrli sözlərdən də istifadə etmək lazımdır. Ancaq zaman keçdikcə bu sözlər unudulmuşdur.

Haydak qumuqlarında adət-ənənələr və toy poeziyası daha yaxşı saxlanılıb. Gəlin gələndə deyilən halaylar, sarınlar, kiritle-meler əsasən olduğu kimi saxlanılıb. Temirkazık qumuqlarında toyla bağlı mətnlər çoxdur. Amma bəzi yerlərdə qədim zamanlarda toy ilə bağlı sarınlar çox söylənib. Bu hal yalnızca qumuqlara aid edilən bir hal deyildir. Bu adət əsrlərdən bəri gələrək hələ də yaşamaqda olan bir çox türk xalqlarında vardır.

Çığıp-çığıp karşılardan karasam,
*Çıxıb-çıxıb qarşıdan baxsam,*
Görünmeysen, yav – yüregim yarasan
*Görünmürsən, yar – ürəyimi yarırsan.*
(haşık yırlardan)

## Qədim zamanlarda gəlin gətirərkən oxunan sarınlar

Bəyin qadın qohumları həyətin hündür yerinə çıxar və bayatı deməyə başlar, digərləri də onu müşayət edərmiş. Hər sətrin sonunda "Ay hay, halalay" deyərlərmiş.

**Aya:***

– Qazıxan gələr toy ilə,
Şapi gələr qoyun ilə
Əlimi dəfə vurum.
Ay hay halalay!
Bu gün ilə dayanım!

**Muminat:**

– Mis qazanı qaldıran
Dəmir ocaq deyilmi?
Sevdiyi qızı ələ alan
Ay hay halalay!
Şapi qoçaq deyil mi?

Qazıxan minən sarı at,
Şapi minən yorğa at.
Ən kiçiyi Caminat,
Ay hay halalay!
O da Allaha amanat!

Tövlədə altın ağac
Yalın məst çıxmağa.
Bizə də gəlin gəlir,
Ay hay halalay!
Yalın ipək geyinməyə!

İsti suya çatdığımda
Ayağım dəydi daşa.
Ay gəlinin oğlu olsun
Ay hay halalay!
Can Şapiyə yoldaşa!

Bu Şapinin xəncəri
Arabanın gözəli kimi
Ay gəlinin saçları
Ay hay halalay!
Üzümün salxımı kimi!

Gün-gün imiş, gün imiş,
Bu gün qədir günü imiş
Qədir günü başımıza,
Ay hay halalay!
Bu gün hardan yaranmış?!

Gəlinlər gəlsin bizə,
Vermәlisini versin bizə
Verdiyi lazım deyil,
Ay hay halalay!
Özü lazımdır bizə.

Ocağa qoyulan kötüyün
Yanmasına baxınız
Salihatın boynuna
Ay hay halalay!
Böyük sümük taxınız!

Beləliklə gəlin maşını həyətə çatar. Sonra qızı alıb gedərkən yenə bir nəfər bayatı deyər, digərləri də onu müşayət edər:

**Oğlan tərəfi:**

Söyüd ağacı uca olmasa,
Dənizə kölgə hardan düşər?
Şapi igid olmasa,

Ay hay halalay!
Bu qədir günü hardan olar?

Gəlin alıb gəlirik
Sərpməyə qozunuz var mı?
Biz gətirən gəlinə
Ay hay halalay!
Söyləməyə sözünüz var mı?

**Qız tərəfi:**

Qız mənim bacımdır,
Oğlan mənim qardaşım.
İkisin də evləndirib
Ay hay halalay!
Ondan sonra öləyim!

Mənim ağamın tövləsi
Tövləsində qazları
Oynayıb qıvranıb qalsın,
Ay hay halalay!
Oğulları qızları!

Çörək bişirməyə un da var
Çəpkən toxumağa yun da var
Əvvəl müşkül olsa da,
Ay hay halalay!
Belə gözəl gün də var!

Qazan qazan süd verən,
Qızıl inək deyilmi?
Sevənləri bir edən
Ay hay halalay!
Bizim ürək deyilmi?

**Oğlan tərəfi:**

Arpa atdım qazlara,
Toyuqlar gəlib yesin

Bizə qızını saxlayan
Ay hay halalay!
Məcit uzun yaşasın!

Dənizə körpü salım
Kürk yumağa gedim,
Kürk saçlı ay gəlin
Ay hay halalay!
Sənə qurban olum!

Çatıdan qum tökülür
Çəkmə yenim sökülür
Əzizlənsin ay gəlin
Ay hay halalay!
Üzündən nur tökülür!

Qudalar gəlir, quyruq bişir,
Quyruğu qoy, qazan as,
Ac qudalar doyunuz,
Ay hay halalay!
Bizə də pay qoyunuz!

Xoş gəldiniz qudalar,
Səfa gətirdiniz bizə
Biz ayağa duraraq,
Ay hay halalay!
Xidmət edərik sizə!

**Süydüm tayaknı sarınları // Sevdim dayag sarınları**

| | |
|---|---|
| Qara savat qazdırdım | *Qara savat qazdırdım* |
| Belimdeki hıncalğa. | *Belimdəki xəncərə* |
| Cannatni mayıl kuşu, | *Cənnətin mail quşu,* |
| Gelip kon çu şancalğa! | *Gəl, qon bu kürsüyə!* |

Süydüm tayak, süy, tayak,
Süygenime tiy, tayak,
Süygenime tiymeseng,
Otğa tüşüp, güy, tayak!

*Sevdim dayaq, sev, dayaq,*
*Sevgilimə toxun dayaq,*
*Sevgilimə toxunmasan,*
*Oda düşüb yan, dayaq!*

Tatavullar yırılıp,
Tarlavlanı suv alsın,
Urayım süydüm bulan,
Yavrunlarıng uvalsın!

*Arxlar sökülüb,*
*Tarlaları su alsın,*
*Vurum sevgi ilə,*
*Boynun parçalansın!*

Koysuvnu ari yanında
Endirey bar Yahsay bar.
Urayım süydüm bulan,
Abayınga aksay bar.

*Qoysuyun o biri tərəfində*
*Endirey var, Yaxsay var.*
*Vurum sevgi ilə,*
*Anana şikayətə get.*

Biyler miner ariv at
Khanlar gıyegen – halat.
Açuvlanma, ariv kız,
Atadan kalğan adat!

*Bəylər minər gözəl at*
*Xanlar geyən – xalat*
*Acıqlanma, gözəl qız,*
*Atalardan qalmış adət!*

Uçma hazir turağan,
Karlı tavnu laçini
Gelip oltur şancalda,
Janatni gögürçünü

*Uçmağa hazır olan,*
*Qarlı dağın laçını.*
*Gəlib otur kürsüyə*
*Cənnətin göyərçini.*

Süydüm urayım sağa
– Gözyaşıng töger yimik,
"Butung-kolung sınsın!" – dep.
Artımdan söger yimik.

*Sevgi vurum sənə*
*– Göz yaşın tökər kimi,*
*“Əlin qolun sınsın” deyib,*
*Arxamdan söyər kimi…*

### Toy sarınları

Istolda kaz etigiz,
Mağa da parz etigiz,
Yırlamağa turaman,
Kavğanı az etigiz!

*Stolda qaz ətiniz,*
*Mənə də fərz ediniz,*
*Oxumağa dururam*
*Mübahisəni az ediniz!*

Ullu üyde olturup,
Çaçlarımnı tarayman,
Ayavlu amalıma
Köp yahşılık yorayman!

*Böyük evdə oturub,*
*Saçlarımı darayıram.*
*Rəhmli qardaşıma*
*Çox yaxşılıq arzulayıram!*

Amalımnı ak atı
Karaslağa baylansın.
Amalımnı uyunde
Gelinim de aylansın.

*Qardaşımın ağ atı*
*Dirəyə bağlansın.*
*Qardaşımın evində*
*Gəlinim də dolaşsın.*

Borlalar boyun-boyun,
Men eteyim bir oyun!
– Men etmesem kim eter
Meni amalımnı toyun!

*Salxımlar boyun-boyun,*
*Mən edərəm bir oyun!*
*Mən etməsəm, kim edər*
*Mənim qardaşımın toyun*!

Macigitni başıman,
Tübündegi taşıman,
Toy bolağan ulannı
Giççi kızardaşıman.

*Məscidin başıyam,*
*Dibindəki daşıyam,*
*Toyu olan oğlanın*
*Kiçik bacısıyam.*

Altun çeltirni içinde
Asil kuş çarnamaymı?
Amalını toyünda
Kızaşı yırlamaymı?

*Altun hasarın içində*
*Nəcib quş cibbildəməzmi*?
*Qardaşının toyunda*
*Bacısı oxumazmı*?

Abzarda yaşıl terek
Yaşınığız yılanlar,
Amalım uçun gelgen
Sav boluguz, ulanlar!

*Həyətdə yaşıl ağac*
*Gizləniniz ilanlar,*
*Qardaşım üçün gələn*
*Sağ olunuz oğlanlar*!

Tükenden yavluk aldım,
Çaçakların tüyersen.
Allahisen, gelinim,
Anamnı köp süyersen !

*Dükandan dəsmal aldım,*
*Saçaqlarını hörərsən.*
*Allah eşqinə gəlinim,*
*Anamı çox sevərsən*!

| | |
|---|---|
| Tamğa ilgen halçanı | *Divara asılan xalçanın* |
| Çeçegi altun bolsun! | *Çiçəyi qızıl olsun*! |
| Amayıma gelgen kız | *Qardaşıma gələn qız* |
| Mekenli katın bolsun! | *Yaxşı xatın olsun*! |
| | |
| Toy toyuğuz, toyuğuz | *Toy doyunuz, doyunuz* |
| Toyda horaz soyüğuz, | *Toyda xoruzkesiniz,* |
| Amalımnı toyünda | *Qardaşımın toyunda* |
| Bir biyime koyüğuz! | *Bir oynamağa qoyunuz*! |
| | |
| Vay, meni kızardaşım, | *Vay mənim bacım*, |
| Çaçımnı uçu burma. | *Saçımın ucu burma.* |
| Barın da mağa aytdırıp | *Hamısını da mənə dedizdirib* |
| Özüng arekde turma! | *Özün uzaqda durma*! |
| | |
| Toy-toyuğuz, toyuğuz, | *Toy doyunuz, doyunuz*, |
| Toyğa ögüz soyuğuz. | *Toya öküz kəsiniz.* |
| Sarınlarım da bitdi | *Bayatılarım da bitdi* |
| – Hali sama koyuğuz! | *İndi məni qoyunuz*! |

## Vayah // Yas mərasimi mətnləri

| | |
|---|---|
| Vuya vuya gündur, | *Vuya vuya gündür*, |
| Vov, vov! | *Vöv, vöv*! |
| Vuya bulan turar gündür, | *Vuya ilə matəm günüdür,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Arş yarılıp bakğan gündür! | *Ərşin yarılıb baxdığı gündür!* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Barı halklar bakğan | *Bütün xalqlar baxıb* |
| eken yüzübüzge, | *üzümüzə*, |
| Vov, vov! | *Vöv, vöv!* |
| Allahımnı gerti açuvu | *Allahımın açığı gəlib* |
| çıkğan eken özübüzge, | *özümüzə*, |
| Vov, vov! | *Vöv, vöv!* |
| Vuya haray, haraymedi? | *Vuya, haray haraymədi*? |
| Vov, vov! | *Vöv, vöv*! |
| Sen ekensen yığılğan. | *Sən deyəsən yıxılmısan.* |

| | |
|---|---|
| Vov, vov! | *Vöv, vöv!* |
| Karap nege vay turabız?! | *Nəyə baxıb dururuq*?! |
| Vov, vov! | *Vöv, vöv!* |
| Kabul nege vay bolabız?! | *Niyə vay qəbul edirik?!* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Sıdırıp alğan yerge: | *Qoparılmış yerə* |
| heyler et gelir, | *hey ət gəlir*, |
| Vov, vov! | *Vöv, vöv!* |
| Yulkup alğan yerge | *Tükü yolunmuş yerdən* |
| heyler çaç gelir, | *hey tük gəlir* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Meni anamnı vay ulanı | *Yazıq anamın oğlu* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Dağı tuvmas dağı ölmes! | *Daha doğmaz, daha ölməz!* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Dünyalağa dağı aylanmas! | *Daha dünyalarda dolaşmaz* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Anamnı bal kursağı boşadı, | *Anamın bal qursağı boşaldı* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Seni karap vay görgende, | *Səni baxıb görəndə*, |
| Vov, vov! | *Vöv, vöv!* |
| Kökürey edim kök yimik, | *Guruldayırdım göy kimi*, |
| Vov, vov! | *Vöv, vöv!* |
| Köklege atıladım ok yimik, | *Göylərə atılırdım ox kimi,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Yaşnay edim yaş yimik, | *Çiçəklənirdim uşaq kimi*, |
| Vov, vov! | *Vöv, vöv!* |
| Naziray edim ot yimik | *Parlayırdım ot kimi* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Enniden song ,senden song, | *İndidən sonra, səndən sonra,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Yaşınayım dünyalarda | *Gizlənim dünyada* |
| yok yimik! | *yox kimi!* |
| Vov, vov! | *Vöv, vöv!* |
| İssi günler gelgende | *İsti günlər gələndə* |

| | |
|---|---|
| yayıp koyğan | *sərdiyim* |
| yamuçum, | *kürküm,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Yavunlu günler gelgende | *Yağmurlu günlərdə* |
| yayıp koyğan çatırım, | *açdığım çətirim,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Kuvunlu günler gelgende | *Pis günlər gələndə* |
| kısıp tutğan kamuçum, | *tutduğum qamçım,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Amallarım içinde | Q*ardaşlarımın içindən* |
| saylap alğan batırım! | *seçilmiş bahadırım*! |
| Vov, vov! | *Vöv, vöv!* |
| Kaşları kara kabanım, | *Qaşları qaraqabanım,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Kaburğaları bıtev arslanım, | *Qabırğaları bütöv aslanım,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Kaburğalarıng seni | *Qabırğaların sənin* |
| bugün sögüldü, | *bu gün söküldü,* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Kara kanıng kara | *Qara qanın qara* |
| yerge tögüldü! | *yerə töküldü!* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Gözyaşlarıng urtlap, | *Gözyaşlarını udub* |
| enni toyaım! | *indi doyum!* |
| Vov, vov! | *Vöv, vöv!* |
| Artdağılanı oylap | *Başgalarını düşünərək* |
| enni koyayım, | *indi qoyum.* |
| Vov, vov! | *Vöv, vöv!* |

## Arslanbekni ayduvu // *Arslanbekin ayduvu*

– Kart Atayim, atlanaman kazıkumuk tavlağa...
*Qoca Atam, atlanıram qazıqumuq dağlara...*
– Sen atlangir yahşı ulanlar yoluna.
*– Sən atlan igid oğullar yolunda.*
Kırk gece kırk turup kırk tamurdan süt bergen

*Qırx gecə qırx durub qırx damardan süd verən*
Kart abayğa soramayli atlanma.
*Qoca nənədən soruşmamış atlanma.*
– Kart Abayim, atlanaman kazikumuk tavlağa.
– *Qoca Nənəm, atlanaram qazıqumuq dağlara.*
Sen atlangir yahşi ulanlar yoluna
*Sən atlan yaxşı oğlanlar yoluna*
Yaş olcanğa soramayli atlanma.
*Cavan arvaddan soruşmamış atlanma.*
– Hey yaş olcam, atlanaman kazikumuk tavlağa.
– *Hey cavan arvadım, atlanıram qazıqumuq dağlara.*
Sen atlangir yahşi ulanlar yoluna,
*Sən atlan yaxşı oğlanlar yoluna,*
Sav kaytmassan kart atayni koluna.
*Sağ qayıtmazsan, qoca atanın əlinə.*
Yurup barğan kıçitkanlik toğayga,
*Yeriyib gicitkanlı çəmənliyə çatan*
Kuvun salğan Hartmut bulan noğaya
*Təşviş salan kalmık ilə noğaya*
Arslanbekge tübek tiymay, ok tiygan
*Aslanbekə silah dəyməyən, ox dəyən*
Ol da elivaş terbenmesdey bek tiygan.
*O da ölübaş tərpənməz, bərk toxunub.*
Hey doslarim, bir kacindan suv da içdik,
*Hey dostlarım, bir sürahidən su da içdik,*
Hey doslarim, bir Kurandan ant da içdik,
*Hey dostlarım, bir Qurana and da içdik,*
Biribiz ölgen yerde ölerge,
*Birimizin öldüyü yerdə ölməyə,*
Biribiz kalğan yerde kalırğa,
*Birimiz qalan yerdə qalmağa,*
Hey doslarim, meni tovelege gommagiz.
*Hey dostlarım, məni təpədə gömməyin.*
Tovelege gomsagiz da, yel elter
*Təpədə gömsəniz də, yel aparır*

Tovenlege meni gommagiz,
*Təpənin altında da məni gömməyin,*
Tovenlege gomsagiz da suv elter.
*Təpənin altına gömsəniz su aparır.*
Meni çila, yol kırayğa gomuguz
*Məni yol kənarında gömün*
Otup barağanlar alham eterdey,
*Ötüb gedənlər ayə oxuyarlar,*
Bilmaganlar başim taptap geterdey.
*Bilməyənlər başım tapdalayıb keçərlər.*
Hey doslarim, uylarigizga sav esen kaytsağiz,
*Ey dostlarım, evinizə sağ-salamat qayıtsanız,*
Savluk bulan uylarigizga barsağiz,
*Sağlıq ilə evinizə çatsanız,*
Meni sizin içigizda gormese
*Məni sizin aranızda görməsə,*
Kart Atayim çigar aldigizğa sorama,
*Qoca atam çıxar qarşınıza soruşar,*
Kart atayğa siz aytarni men aytsam:
*Qoca atama siz deyəni mən desəm:*
Sen bergen kara kuyruk kaşğa tay
*Sən verən qara quyruq qaşqa tay*
Şo ot otlay şonu bulan Arslanbeging kaldi dep;
*O ot otlayıb onunla Aslanbekin qaldı deyib;*
Meni sizin içigizda gormese
*Məni sizin içinizdə görməsə,*
Kart Abayim çigar aldigizğa sorama,
*Qoca nənəm çıxar qarşınıza soruşar,*
Kart abayğa siz aytarni men aytsam,
*Qoca nənəmə siz deyəni mən desəm,*
Yalğanlar aytmay, gerti aytsam,
*Yalan danışmayıb, gerçəyi danışsam,*
Sen bergen ak kalaçlar katip dep
*Sən verən ağ çörəklər qatıb deyin*
Şolani bulak başda Arslanbeging guvşey kaldi dep

*O bulaq başında Aslanbekin çeyney qaldı deyib*
Meni sizin içigizda gormese
*Məni sizin içinizdə görməsə*
Ol yaş olcam çigar aldigizğa sorama,
*O cavan xanımım sizdən məni soruşar,*
Sogulmas dep tikgan seni penceging
*Sökülməz deyə sən tikən köynəyin*
Sogulma da yaman yerde soguldu,
*Sökülməz də yaman yerdə söküldü,*
Ezuvundan kara kanlar toguldu,
*Qollarından qara qanlar töküldü,*
Meni sizin içigizda gormese
*Məni sizin içinizdə görməsə*
Gebek çığar kalkilağa karama.
*Gəbək çıxar eyvana baxmağa.*
Ak kalay kumanlarin kolğa alip
*Ağ qalay kumganları ələ alıb*
Ağarğan çal sakalin,yel kagip
*Ağaran çal saqqalını yel qapıb*
Gebek çikğan kalkilağa karama,
*Gəbək çıxmış eyvanlara baxmağa,*
Arslanbekni arzu halin sorama.
*Aslanbekin ərzi-halın soruşmağa*
Hayvan gele gumuş yipday burlenip,
*Heyvan gələr, gümüşə bürünüb,*
Çeçek açğan tereklerdey turlenip,
*Çiçək açan ağaclardan törəyib,*
Hayvani bar kapu artina sıyinip,
*Heyvan var qapı arxasına sığınıb,*
Arslanbekni gerti ölgeni bilinip.
*Aslanbekin gerçək ölümü bilinib.*
Atam-anam yılay turup mağa kor tavar,
*Atam-anam ağlayaraq mənə gor tapar,*
Elgur olcam uç gundan song er tavar.
*Xanımım üç gün sonra ər tapar.*

Kızkardaşim el namusğa tuyular,
*Bacım elin namusunu çəkər,*
Er kardaşim mal kala dep suyunar.
*Qardaşım mal ona qaldı deyib sevinər.*

### Raşıtnı ayduvu// *Rəşidin ayduvu*

Tavlanı bir tarğin alay tumani
*Dağların bir qalın alay dumanı*
Tuzlani bir bavru çivar yilani,
*Ovalanı rənbərəng bir ilanı,*
Bir Başlili Mahammatni Raşit degen ulani.
*Bir Başlılı Məhəmmədin Rəşid deyilən oğlu.*
Havalarda kuv tuşurmay balayak,
*Havalarda tük düşürməz qaranquş,*
Bulutlarda bolurmuken uyasi?
*Buludlarda olarmı yuvası?*
Analardan Arslan tuvğan er eding,
*Analar Aslan təki ər doğub*
Havarsizdan birdan çikdi huyasi.
*Xəbərsiz birdən çıxdı bağırışı.*
Raşit batır yer yağalap yuruma
*Bahadır Rəşid qıraqdan yürümə,*
Bugun senden çarh silkinar, can kurkar,
*Bu gün səndən çərx silkinər can qorxar*
Azireil karşi tursa yuzunga..
*Əzrayıl qarşı dursa üzünə…*
Donmay eding bir aytilğan sözungdan
*Dediyi bir sözündən dönməzdin*
Kotanlar buzup, şolay koyda alding,
*Kotanlar pozub, belə qoyun da aldın,*
Buduretmey kapkin atlar baylay eding.
*Düşünmədən oğurlanmış atları bağlayırdın.*
Oçardagi kızıl çarik kızbaylar,
*Godekan'daki qırmızı çarıqlı qorxaqlar,*
Seni artingdan ne de söyler, ne de aytar,

*Sənin ardınca nə də söylər, nə də deyər,*
Ayta busa ayta tursun kızbaylar,
*Deyəcəksə desinlər qorxaqlar,*
Sen yurudung eki ayri tizingdan,
*Sən yeridin iki ayrı dizinlə,*
Lam geçmey eding bir aytilğan sozungdan.
*Dönmür dediyi bir sözündən*
Aziz caning dar agaçdan ilitmay,
*Əziz canın dar ağacından sallanmır,*
Bugundan song yerge girsin bu dünya
*Bu gündən sonra yerə girsin bu dünya*
Yahşi erkekler neçik ölgenni bilmay!
*Yaxşı kişilər niyə öldüyünü bilmir!*
Orus paça, seni de otung gomulsun
*Rus çarı, sənin də odun gömülsün*
Tepterlering suvğa tuşsun, çirisin!
*Dəftərlərin suya düşsün, çürüsün!*
Ustuvizga naçanniklar olturtğan,
*Üstünüzə naçənniklər oturtturan,*
Kızbaylani yanin maldan telturtğan,
*Qorxaqlarını yanına maldan doldurtduran,*
Kızbaylani yani maldan tolmasin
*Qorxaqların yanı maldan dolmasın*
Kurdaşina namart çikğan ongmasin!
*Dostuna namərd çıxan düzəlməsin!*
Balaş Haci heç uyunda ölmesin,
*Balaş Hacı heç evində ölməsin,*
Abduxalik bir yahşilik gormesin!
*Abdulxaliq heç yaxşılıq görməsin!*
Şu Başlilar urup şonu yikmasin!
*Bu Başlılar vurub onu yıxmasın!*
Kardaşlari papah giyip çikmasin
*Qardaşları papaq geyib çıxmasın*

Raşit doğulanda iki qolu da qan olur. Anası kitab açdırır: “Çox adamın qanın alan adam olacaq” deyir.

**Ayduv**

Tavlardan gelgen tav canlar
*Dağlardan gələn dağ canlar*
Ayaklaring bulan basip toktatding.
*Ayaqların ilə basıb saxladın*
Erenlege sorap gelmes acallar!
*İgidlərə demədən gələr əcəllər!*
Bulutlar goterilmay gun çikmas,
*Buludlar çəkilməz, gün çıxmaz,*
Buyruklar yetmey şolay can çikmas.
*Əmr gəlmir, can çıxmaz.*
Bulutlar goterilgan bugün orlege,
*Buludlar çəkilmiş bu gün yüksəklərə,*
Buyruklar yetgen yesir erlege,
*Əmrlər çatsın yesir igidlərə,*
Erenlege er buyruklar yetgende,
*Ərənlərə igid əmrlər çatanda,*
Uzannirip sala eken korlaga.
*Uzandırıb qoyasan qəbirlərə.*
Syuegina bir suyek tahta tiza eken,
*Meyidinə sümük kimi bir taxta düzəsən*
Ustuna bir uç topurak toga eken,
*Üstünə bir ovuc torpaq tökülərkən*
Bu dünyada gun gormegen erleni
*Bu dünyada gün görməyən igidləri*
Anaları kop kıynalip tava eken!
*Anaları çox əziyyətlə doğar!*
Karalar giygan bugün ak giyar,
*Qaralar geyən bu gün ağ geyər,*
Kayğilar gorgen terkde eter
*Qayğılar görən tərk də edər*
Inanmagiz itga çakı dünyağa!
*İtə inandığın gədər inanmayın bu dünyaya!*
Bu dyüyada mal dey turup baş geter!
*Bu dünyada mal deyə deyə ömür keçər!*

Erenlege emsiz avruv em bolur,
*İgidlərdə çarəsiz ağrılara çarə olur.*
Ulanlağa bulay işlar kop bolur.
*Oğullara belə işlər çox olur.*
Koklege batğiç salsa yetermu,
*Nərdivan`qoysa göyə çatarmı,*
Gok dengizga kılıç ursang otermu ?
*Göy dənizə qılınc vursan dalğalanarmı?*
Burlengen tereklerdey butaksız,
*Çılpaq ağaclartək budaqsız,*
Bir yel kakğan tarilarday urluksuz
*Bir yel vuran çəltiklər də toxumsuz*
Kurdaşina namarti çikgan erleni
*Dostuna namərd çıxan igidin*
Cahannamda canı guysun buyruksuz!
*Cəhənnəmdə canı yansın buyruqsuz!*
Avlaklani aldan kurğan çatiri,
*Çəmənlikdə öncədən qurulan çadırı,*
Ulanlanı ayan tuvğan batırı;
*Oğulları hörmətli doğulan bahadırı;*
Batır eding bugun şolay parz eding,
*Bahadır idin bu gün elə fərz edin,*
Kuvalaşip tutmas şolay çars eding
*Qaçıb-tutub tutmaz alaqaranlıqda*
Batır kolung bugun seni baylandı,
*Bahadır əlin bu gün sənin bağlandı,*
Gep-gertiden bu dünyadan parz yureging aylandi.
*Həqiqətən bu dünyadan fərz ürəyin keçdi.*

## Halilay

Halilay Halilay hoyvay, anay desem aynanay
*Halilay Halilay hoyvay, anay desəm aynanay*
Halilay Halilay hoyvay, halilay girsin savanga
*Halilay Halilay hoyvay, halilay girsin buğda tarlaya*
Halilay Halilay hoyvay, yer oyulsun yamanga.

*Halilay Halilay hoyvay, yer oyulsun yamana.*
HalilayHalilay hoyvay, eki gulleden salip
*Halilay Halilay hoyvay, iki gülldən salıb*
HalilayHalilay hoyvay, uray eding kavanga
*Halilay Halilay hoyvay,vuracagdın gabana*
HalilayHalilay hoyvay, orakni orup orup
*Halilay Halilay hoyvay, oraqla biçib biçib*
HalilayHalilay hoyvay, salir kultege bavluk
*Halilay Halilay hoyvay, salır dərzə düyün*
HalilayHalilay hoyvay, ne bola meni suyseng
*Halilay Halilay hoyvay, nə olar məni sevsən*
HalilayHalilay hoyvay, ulan kardaşing savluk
*Halilay Halilay hoyvay, qardaşın var olsun*
HalilayHalilay hoyvay, it tutar kavanlani
*Halilay Halilay hoyvay, it tutar gabanları*
HalilayHalilay hoyvay, yatgan koru yallasin
*Halilay Halilay hoyvay, yatan goru yansın*
HalilayHalilay hoyvay, bizin ayirganlani.
*Halilay Halilay hoyvay, bizi ayıranları.*

**Qədim mahnı**

Dagıstanna bir iş oldu tamaşa
*Dağıstanda bir iş oldu tamaşa*
O gun bu gun enni destim ne yaşa
*O gün bu gün enni destim ne yaşa*
Iş putirki kapirlari bilmanam
*İş budur ki, kafirləri bilmirəm*
Sanavun bilmanam çohdu esgeri
*Sayını bilmirəm, çoxdu əsgəri*
Men çagırdım Abubakar Umara
*Mən çağırdım Əbubəkr Ömər*i
Va hum dagı aslam Ali Osmana
*Və həm də Əli Osmanı*
Bir umutum gozel Hasan Husene

*Bir ümidim gözəl Həsən Hüseynə*
Bu kapirlar maksuduna etmesin
*Bu kafirlər məqsədinə yetməsin*
Dinibizni harap eylep getmesin
*Dinimizi xarab edib getməsin*
Huya heyler dinibizga amal yok
*Huya heylər, dinimizə əməl yox*
Ak sut veren analardan purman yok
*Saf süd verən analardan fərman yox*
Bu gunuma bacilarim ağlasin
*Bu günümə bacılarım ağlasın*
Kuruhuma bir ak yavluk bağlasin
*Qəbirimə bir ağ yaylıq bağlasın*
Dünya adatım yasım etmesin
*Dünya adətim, yasım tutmasın*
Aziz canım meni zaya getmesin
*Mənim əziz canım zay olmasın*
Hayt kurdaşlar kıyin bolmay tınç bolmas
*Ey dostlar, zəhmətsiz dinclik olmaz*
Har kim bugün capa çekse puç olmas
*Hər kim bu gün cəfa çəksə puç olmaz*
Har kim bugün capa çekse canina
*Hər kim bu gün cəfa çəksə canına,*
Huri kızlar tutar yavluk kanina.
*Huri qızlar tutar yaylıq qanına.*

**Vayah**

Tuvekler tiymay sağa bugün ok tiygan
*Tüfənglər dəymir bu gün sənə, ox dəyir*
Tervenme bolmas yimik bugün sağa bek tiygan
*Tərpənmək olmaz kimi bu gün sənə çox dəyir*
Şo yerlerde aylandirip alganlar
*O yerlərdə səni dövrəyə alanlar*
Arasina ol duşmanlar salganlar

*Aralarına o düşmənlər salanlar*
Hanlar yuruygan yollarda
*Xanlar gedən yollarda*
Haliyaklar taptap etgen maydanna
*Sadə döyüşçülər cıdır vurduğu meydanda*
Çapgay eding çavaringni beti tuşgunça
*Çapsaydın çaparın üzü düşüncə*
Çançgay eding kadavungnu uçu singinça
*Batırsaydın süngünün ucu sınınca*
Har saninga bir sanlarin algay eding
*Hər candan bir can alaydın*
Senden aldin kara yerlege salgay eding
*Səndən əvvəl qara yerlərə salaydın*
Yanmas edim bugunlar men yav çakı
*Yanmazdım bu gün mən yağ təki*
Yarilip olmes edim şunçakı
*Yarılıb ölməzdim əhəmiyyətsiz*
Duşmanlardan tiygan sağa yarangni
*Düşmənlərdən sənə dəyən yaranı*
Yavluklaring bulan sen sivirip
*Yaylıqların ilə sən sıyırıb*
Belbavlaring bulan bek tartip
*Kəmərlərin ilə bərk dartıb*
Betge bet sen amalim turmading
*Üz-üzə sən qardaşım durmadın*
Betge turup sen nege etmeding
*Üzə durub sən necə etmədin*
Ayibim kop sağa meni opkem kop
*Eybim çox sənə mənim öfkəm çox*
Opkeler tugul sağa sozum yok
*Öfkələr deyil sənə sözüm yox*
Boynun nege çapmading
*Boynunu necə vurmadın*
Sağa urganni eki kolu kurusun
*Səni vuranın iki qolu qurusun*

Ur degenni ulan yurtu ulusun
*Vur deyənin oğlunun yurdu boş qalsın*
Uruşlaga cıygan mali yurusun
*Yürüşə çıxan malı viran olsun*
Ulan yerlerinda kız kalsin
*Oğlan yerlərində qız qalsın*
Ullu yurtlari oyulsun
*Qədim yurdu viran olsun*
Kız ornunda taş kalsin
*Qız yerində daş qalsın*
Yeri yurtu boş kalsin
*Yeri yurdu boş qalsın*
Abzarina ala bata ornaşsin
*Həyətində qara otlar bitsin*
Otbaşinda ozen suvlar toktasin
*Ocağında çay suları dursun*
Abzarinda sariekler aylansin
*Həyətində ilanlar gəzsin*
Kapusuna kara kirit urulsun
*Qapısına qara kilid vurulsun*
Eşiklari tersina yavulsun
*Ev-eşiyi alt-üst olsun*
Içinda nahirçilar tavulsun
*İçində naxırçılar olsun*
Tor yaninda kukumavlar kıçirsin
*Dörd tərəfdə bayquşlar ulasın*
Duşman Toguz tuvralsin
*Düşmən doqquz doğransın*
Al kanina boyalsin
*Al qanına boyansın*
Yayilip kalsin yaşlari
*Yayılıb qalsın uşaqları*
Togulup kalsin işlari
*Tökülüb qalsın işləri*
Yaş olcesi yılay kalsin uylarda

*Cavan arvadı evlərdə ağlar qalsın*
Papahlari kalsin ilinip çuylarda
*Papaqları evdə asılı qalsın*
Savutlari ol duşmanni sannuk tupga atilsin
*Silahları o düşmənin sandığın dibinə atılsın*
Belliklari betlik bolup kesilsin
*Püştəbəndi parça parça kəsilsin*
Yazilip ayaklar basmasin
*Yazılıb ayaqlar basmasın*
Ocet ölgen oruslaga tayalsin
*Naxələf ölən ruslara dayasın.*
Şo yerlerde can dey turup can bersin
*O yerlərdə can deyə zarısın can versin*
Canina bir amallar dep telmirsin
*Canına bir çarə deyə çabalasın*
Suvuklarina bir kişilarda tonlar yapmasin
*Üşüyənlərə heç kim kürklər örtməsin*
Suvsaplarina heç kişilar suv bermesin
*Susayanlarına heç kim su verməsin*
Duynelerde heç yahşılık gormesin
*Dünyalarda heç yaxşılıq görməsin*
Açili tavlani otlasin
*Acılı dağların otlarını yesin*
Ağulu suvlani urtlasin
*Zəhərli sular udsun*
Yaş olcesi tovelenge çiksin akırsin
*Cavan arvadı təpəyə çıxsın bağırsın*
Kızğardaşi borular orlep minsin
*Bacısı borulara dırmanıb minsin*
Seni izlap kara ormanlağa girsin
*Səni izləyib qara meşələrə girsin*
Şo yerlerde seni tapmasa
*O yerlərdə səni tapmasa*
Kara kavanlar bolsun
*Qara qabanlar olsun*

Tovenlege çikganda yel eltsin
*Təpə dibinə düşərkən külək aparsın*
Tovenlege tuşganda suv eltsin
*Təpə dibinə düşəndə su aparsın*
Boyun boylap kara goylek giydirsin
*Boyu uzunu qara köynək geyinsin*
Başina kir kanalar saldirsin.
*Başına gara örtülər bağlasın.*

**Ölünün vayahı**

Men soyleymen bir Allahdan purman dep
*Mən söylərəm bir Allahdan fərman deyib*
Aziz canım halk yaninda kurvan dep
*Əziz canımı xalqa qurban deyib söylərəm*
Kol goterdim bu dunyani malina
*Tamah saldım bu dünyanın malına*
Ahıratga yarum napas alman dep
*Axirətdə yarım nəfəs almam deyib*
Avrudum yatdim toşekge
*Ağrıdım yatdım döşəkdə*
Azireil geldi yanima
*Əzrayıl gəldi yanıma*
Karmaklarin saldı altı sanima
*Qarmağını saldı altı yerimə*
Çık dep buyurdu meni aziz canima
*“Çıx!” deyə buyurdu mənim əziz canıma*
Azireil aldi canımni getdi
*Əzrayıl aldı canımı getdi*
Kaldi sanım cansiz bolup toşekde
*Canım cansız olub qaldı döşəkdə*
Aylandirip cullitirilar aldilar
*Çevirib yas tutanlar aldılar*
Getdilar tahtani geltidilar
*Getdilər taxtanı gətirdilər*

Cuvmaga katunlar belsendilar
*Yumağa qadınlar qollarını çırmaladılar*
Çeçip opuraklarim atdilar
*Paltarlarımı çıxarıb atdılar*
Saldi sanimni tahtaga
*Cəsədimi taxtaya saldılar*
Birlari suv tokdu
*Birisi su tökdü*
Birlari işip sapun cuvdu
*Birisi sabunladı*
Beş arşin akni biçdi boyuma
*Beş arşın ağı biçdi boynuma*
Buğar meni çirmadilar
*Bunlar məni çırmadılar*
Canazani geltirip saldi eşikni içina
*Cənazəni gətirib həyətə qoydular*
Cıyildi Əlimlar eşikni avzuna
*Alimlər yığıldı həyətə*
Canazaga alti sanim saldilar
*Cənazəmin altı yanına yığıldılar*
Goterip ziyretlege eltdilar
*Götürüb məzarlığa getdilər*
Birlari alip şipilima saldilar
*Kənarlarını doldurdular*
Ustuma uç topurak atdilar
*Üzərimə ovuc torpaq atdılar*
Kaldi sanim topurakni tuvunda
*Canım qaldı torpağın dibində*
Kara yılan ala gozumnu sordu
*Qara ilan ala gözümü sordu*
Kızıl kanim kara yerge toguldu
*Qızıl qanım qara yerə töküldü*
Altı sanim bir birindan ayrildi
*Altı yanım bir-birindən ayrıldı*
Sueklirim humday bolup uvaldi

*Sümüklərim toz olub töküldü*
Azireil berdi tepterimni koluma
*Əzrayıl verdi dəftərimi əlimə*
Ohudum amallarima bakdim
*Oxudum əməllərimə baxdım*
Ondanda men bir payda gormedim
*Ondan mən bir fayda görmədim*
Kaytip dağı bu dunyağa gelmedim.
*Bir də bu dünyaya gəlmədim.*

# ALQIŞLAR. QARĞIŞLAR

## *Alqışlar*

### Yeməkdən sonra söylənən alqışlar

| | |
|---|---|
| Alhamdulilla aşığızğa, | *Əlhəmdülillah yeməyinizə*, |
| Hadirgün tuvsun başığızğa | *Gözəl gün doğsun üzünüzə* |
| Tepsigiz tok bolsun, | *Sininiz dolu olsun*, |
| Sizin süymeygenler yok bolsun! | *Sizi sevməyənlər yox olsun*! |

### Yaşnı birinçiley beşikge salağanda aytılağan alğış// *Uşağı birinci dəfə beşiyə qoyarkən edilən alqış*

| | |
|---|---|
| Beşik bavu bek bolsun, | *Beşik başı möhkəm olsun*, |
| Beş ulanı,beş kızı, | *Beş oğlu, beş qızı*, |
| Ağası,ulankardaşı bolsun, | *Ağası oğlan qardaşı olsun* |
| Nasipli devletli bolsun! | *Nəsibli dövlətli olsun*! |

***II variant***

| | |
|---|---|
| Beşik bavung bek bolsun, | *Beşik başın möhkəm olsun* |
| Beş ulannı ağası bolğur, | *Beş oğulun ağası olsun* |
| Ata-ananga yaravlu bolğur, | *Ata-anasına yararlı olsun* |
| Adamlağa ayavlu bolğur! | *Adamlığa layiq olsun*! |

### Yangı yılnı yemişin aşayğanda aytılağan alğış *Yeni ilin yemişini nübar edərkən edilən alqış*

| | |
|---|---|
| Bu yangılık yingilik, | *Bu nübarlıq, yenilik*, |
| Dağı yıl da köp bolsun, | *Sonrakı il də çox olsun* |
| Üyubüz-eşigibiz, | *Evimiz, eşiyimiz* |
| Türlü tirlikden tolsun! | *Çoxlu dirilik olsun*! |
| Esenlik savluk bulan | *Əsənliklə, sağlıqla* |
| Aşıbıznı aşayık, | *Yeməyinizi yeyək* |
| Süyünçlük şatlık bulan, | *Sevinclə, şadlıq ilə* |
| Dünyada biz yaşayık! | *Dünyada biz yaşayaq*! |

***Güney qumuqlardakı variantı***

| | |
|---|---|
| Yanğılık engilik | *Nübarlıq, yenilik* |
| Aşay küley kalayık | *Yeyib gülərək yaşayaq* |
| Ha-ha-hay | *Ha ha ah* |
| (dep külep song aşaylar) | *(deyib sonra yeyərlər)* |

**Yangı tuvğan aynı görgende aytılağan alğış//**
***Yeni doğulan ayı görəndə edilən alqış***

| | |
|---|---|
| Ay gördüm aman, | *Ay gördüm aman,* |
| Koltuğumda – Kuran, | *Qoltuğumda Quran,* |
| Kolumda – zuvhan | *Qolumda təsbeh* |
| Ölgençe – devlet, | *Ölüncə dövlət,* |
| Ölgen song – Janat! | *Öldükdən sonra cənnət*! |

***Güney qumuqlardakı variantı***

| | |
|---|---|
| Ay gördüm Allah, | *Ay gördüm Allah,* |
| Amantubillah | *Amantibillah,* |
| Ne gözel aydır | *Nə gözəl aydır,* |
| Alhamdulillah | *Əlhəmdülillah* |

**Masxara alqışlar//Zarafatyana alqışlar**

*Bundan yüz il əvvəl gənclər dəstə-dəstə toplanaraq növbə ilə hər həftə birisinin evində yeyib-içirlərmiş. Hər dəstə öz içindən birini seçir və "Qazı" elan edirlərmiş. Qazı bəzən keçədən hazırlanan kitab kimi bir şey açıb hekayə oxuyarmış, bəzən də dua oxuyarmış. Dua belədir:*

| | |
|---|---|
| Köp bitsin sabanlar, | *Çox bitsin samanlar,* |
| Yeməsin qabanlar, | *Yeməsin qabanlar,* |
| Yaşamasın yamanlar! | *Yaşamasın yamanlar*! |
| Hər yerdə toxluq olsun | *Hər yerdə toxluq olsun* |
| Bizə pislik edənin | *Bizə pislik edənin* |
| Yeri-yurdu pokluk olsun! | *Yeri yurdu poxluq olsun*! |
| Gelin gelsin, yavluk bersin, | *Gəlin gəlsin, yaylıq versin* |
| Tanrı salamatlıq versin | *Tanrı salamatlıq versin* |

Butun bugün oltursun, *Bütün günü otursun,*
Butday urçuk toltursun, *Buğda kirkirəni doldursun,*
Har yılda bir kozlasın! *İldə bir dəfə balalasın!*
Bizə pislik edənin, *Bizə pislik edən*
Bağrın tutub sızlasın! *Bağrın tutub sızlasın!*
Koynuna kolun soxub *Qoynuna qolun soxub*
Honşulağa barmasın, *Qonşulara getməsin,*
Çatsa da gecikməsin! *Çatsa da gecikməsin!*
Arüv xatunnu əri ölsün! *Gözəl xatunun əri ölsün!*
Çirkin xatunnu özü ölsün! *Çirkin xatun özü ölsün*
Haca getdiyi hacınnı *Həccə gedən Hacının*
Duası qəbul olsun! *Duası qəbul olsun!*

### *Qarğışlar*

### Qız ilə oğlanın qarşılıqlı qarğışı

**Qız**

Avlaklağa ot bitsin *Oylaqlarda ot bitsin*
Çalğı bulan çalarday, *Oraq ilə biçilən,*
Ananga bir gün tuvsun *Anana bir gün doğsun*
Töbe çaçın alarday! *Təpə saçlarını uçuran!*
Töbengden Tengiri ursun, *Təpəndən Tanrı vursun,*
Töben-töben salırday! *Pərən-pərən salsın!*
Bulutda kızıl biydayak, *Buludda qırmızı vələmirtək,*
Bulutlarda kozlağın! *Buludlarda törəsin!*
Masmavi oylaqlarda, *Yamyaşıl çəmənlərdə,*
Süyek bolup bozlağın! *Ölüb sızlayasan.*
Süyegin alma barmağa *Meyitin almağa gedəndə*
Dos-kardaşıng *Dost-qardaşın*
bir birin salsın! *bir-birini göndərsin!*
Aman canıng yallasın, *Aman canın yansın,*
Canıngnı Allah alsın! *Canını Allah alsın!*
Can mukamğa gelgende *Əsas məqama gəlincə*
İblis imanıng alsın, *İblis imanını alsın,*
Cuhut keşiş okusun, *Cuhud keşiş oxusun,*
Sari soldat sın kaksın! *Sarı əsgər başdaşı taxsın!*

| | |
|---|---|
| Uyungden-eşigingden, | *Evindən-eşiyindən,* |
| Göbük urup,kan aksın! | *Köpüklənsin qan axsın!* |

**Ulan // Oğlan**

| | |
|---|---|
| Sıtılğırıng açğanlı, | *Bəd ağzını açanda,* |
| Singirlering basğanlı, | *Qırılası* ayaqları *basanda,* |
| Yüreging üstün boldu, | *Ürəyin qabardı,* |
| Avazıng arşğa çalınsın, | *Səsin ərşə çıxsın,* |
| Süyeging salğa salınsın! | *Meyitin daşa dəysin!* |
| Gök külbaylar kozlağın, | *Göy köpəklər törəsin,* |
| Kolunga alıp bozlağın! | *Əlinə alıb ağlayasan!* |
| Tuhumung tuzday irisin, | *Toxumun duztək ərisin,* |
| Avleting ayak basmasın, | *Nəslin ayaq basmasın,* |
| Otuna kazan asmasın, | *Ocağında qazan asmasın,* |
| Har ayda alham etsin, | *Hər ayda əlham oxusun,* |
| Har cumada yas bolsun! | *Hər cümə yası düşsün!* |
| Meni hayırım tiymese, | *Mənim xeyrim dəyməsə,* |
| heyler, | *heylər,* |
| Şu kançık meni | *Bu qancıq mənim* |
| aldımdan tas bolsun! | *Qarşımdan yox olsun!* |

**Ekev erişip karğağan küy // *İki rəqibin qarğış mahnısı***

| | |
|---|---|
| Kazık yimik kağılğın, | *Dirək kimi yerə çaxılasan* |
| Çubuk yimik eşilgin, | *Çubuq kimi eşiləsən,* |
| Töbengden çığıv çığıp, | *Başından çıban çıxıb,* |
| Tabanıngdan teşilsin. | *Dabanından deşiləsən.* |
| | |
| Tilim-tilim tilingir, | *Dilim-dilim doğranasan,* |
| Karas başğa ilingir, | *Piştaxta başına ilişəsən,* |
| Yazbaşda murdar ölüp, | *Yaz başında murdar ölüb,* |
| Kışda yurtğa bilingir! | *Qışda kəndə bildirilsin!* |

**Ögey ananı karğışı va alğışı// *Ögey ananın qarğışı və alqışı***

| | |
|---|---|
| Bu etimler kırılsın, | *Bu yetimlər qırılsın,* |
| Kırk müyüşge tığılsın, | *Qırx küncdə qalsın,* |

| | |
|---|---|
| Barı da ölüp biri kalsın,<br>Onu da Allah alsın! | *Hamısı ölsün, biri qalsın,*<br>*Onu da Allah alsın!* |
| Menikiler yaşasın,<br>Bulanı aşın aşasın,<br>Bulardan kalğan malğa,<br>Yeslik etip yaşasın! | *Mənimkilər yaşasın,*<br>*Onların çörəklərini yesin,*<br>*Bunlardan qalan mala,*<br>*Yiyəlik edib yaşasın!* |

## Qarğış sarınlar

| | |
|---|---|
| Men karğama bilmayman<br>Mollani yaşı çakı<br>Içinga talav çıksin<br>Gaymuşnu başi çakı. | *Mən qarğaya bilmirəm*<br>*Mollanın uşağı kimi*<br>*İçinə şiş çıxsın*<br>*Camışın başı kimi.* |
| Eniş bağip barayding<br>Tahtalı arba bulan<br>Suyeklering çoplensin<br>Saktiyan torba bulan. | *Aşağı baxıb gedəydin*<br>*Taxtalı araba ilə*<br>*Sümüklərin toplansın*<br>*Motal torbası ilə* |
| Kuluş etme çit aldım<br>Teregi çika çika<br>Menden özgeni alsang<br>Tuvralgir tika tika | *Köynək tikməyə çit aldım*<br>*Naxışı xırda-xırda*<br>*Məndən özgəni alsan*<br>*Doğranasan tikə-tikə* |
| Eniş baragan eşek<br>Orge bagip akırsin<br>Seni atangni yurtuna<br>Gök kukumav çakırsin. | *Aşağı gedən eşşək*<br>*Yuxarı baxıb anqırsın*<br>*Sənin atanın yurdunda*<br>*Göy bayquş ulasın.* |
| Atangda elsun anangda<br>Oguzungda tanangda<br>Ustevuna uç kalaç<br>Ustuna kaynanangda | *Atan da ölsün, anan da*<br>*Öküzün də, danan da.*<br>*Üstünə üç qalac*<br>*Üstünə qaynanan da.* |
| Goylegimni aldi keten<br>Gotermeydi nakışdan | *Köynəyimi aldı kətan*<br>*Götürə bilmirdi naxışdan.* |

| | |
|---|---|
| Vay meni cannay dosum | *Vay mənim can dostum,* |
| Kurkmaymusan kargişdan. | *Qorxmursanmı qarğışdan?* |
| | |
| Kapkalar kakildasin | *Qarğalar qaqqıldasın* |
| Balalarin tapmasin | *Balaların tapmasın.* |
| Ekibizni ayirgan | *İkimizi ayıran* |
| Tinç koruna yatmasin. | *Gorunda dinc yatmasın.* |
| | |
| Kapka gele kakilday | *Qarğa qaqqıldayıb gəlir* |
| Bodene gele tuyuna | *Bödene gelir özünə vura vura.* |
| Meni dosumnu alganni | *Mənim dostumu alanın* |
| Suyek girsin uyuna. | *Meyit girsin evinə.* |
| | |
| Otemiş yoldan çikmagir | *Ötəmiş yoldan çıxmaginən* |
| Urup çimçik yikmagir | *Vurub sərçəni yıxmaginən.* |
| Yiksangda aşamagir | *Yıxsan da yeməginən* |
| Bir gunna yaşamagir. | *Bir gün də yaşamaginən* |
| | |
| Men sağa karğamayman | *Mən sənə qarğamaram* |
| Karğasam taşga bolsun | *Qarğasam daşa dönsün* |
| Taş kanzilardan avlanip | *Daş pilləkəndən hərlənib* |
| San saning başğa bolsun. | *Bədənin tikə tikə olsun.* |
| | |
| Başli yoldan baraydim | *Başlı yoldan gedəydim* |
| Başdançik tuvek tağip | *Baş aşağı tüfəng taxıb* |
| Ekida gozung çiksin | *İki gözün də çıxsın* |
| Bizin uylaga bağip. | *Bizim evə baxıb.* |
| | |
| Kızlar kızlar kırilsin | *Qızlar, qızlar qırılsın* |
| Meni canim tinarday | *Mənim canım sakitləşsin.* |
| Kısirlar yardan uçsun | *Dullar uçurumdan uçsun* |
| Kavurğasi sinarday. | *Qabırğası sınsın.* |
| | |
| Ot tuşsun ol avulga | *Od düşsün o mahala* |
| Opge koşar bavurga | *Ağciyəri qatar qaraciyərə.* |

| | |
|---|---|
| Anangni başi tuşsun<br>Kümes tolgen şavurga. | *Ananın başı düşsün<br>Dolça dolu duzlu suya.* |
| Kara kara deydilar<br>Gentde kara yok yimik<br>Mağa kara deygenler<br>Bolsun kara nap yimik. | *Qara qara deyirlər<br>Kənddə qara yox kimi<br>Mənə qara deyənlər<br>Olsun qara neft kimi.* |
| Hacuvdayni suvurup<br>Suvurgan song kuvurup<br>Sukuraga suv togup<br>Elsun abang bugulup | *Qarğıdalını ələyib<br>Ələdikdən sonra qovurub<br>Cama su töküb<br>Ölsün anan boğulub.* |
| Yar başga olturayim<br>Tuvegim telturayim<br>Kızın mağa bermese<br>Anasin elturayim. | *Təpə, başında oturum<br>Tüfəngimi doldurum<br>Qızını mənə verməsə,<br>Anasını öldürüm.* |
| Aylanmadan aylanip<br>Ala oguzga or da yok<br>Bir meni gunahimdan<br>Sağa yatma kor da yok. | *O yan bu yana dönməyə<br>Ala öküzə yüksəklik yox.<br>Bir mənim günahımdan<br>Sənə yatmağa gor da yox.* |
| Minagan kara ating<br>Kapu artinğa baylansin<br>Meni koyup alganing<br>Kara giyip aylansin. | *Minən qara atın<br>Qapı arxasına bağlansın.<br>Məni qoyub alanın<br>Qara geyib gəzsin.* |
| Anay desem allani<br>Tuye çaynar tallani<br>Yatar koru yallasin<br>Bizin ayirganlani. | *Anay desəm allanı<br>Dəvə çeynər çinarı.<br>Yatan goru yansın<br>Bizi ayıranların.* |
| Altı tavnu artinda<br>Taşlangan tayak kalsin<br>Suygen kızın koyagan<br>Ulanlar sayak kalsin. | *Altı dağın arxasında<br>Daşlanan dayaq qalsın.<br>Sevən qızı qoyanlar<br>Oğlanlar sayıq qalsın.* |

| | |
|---|---|
| Tirman tirmanda kalgir | *Dəyirman dəyirmanda qalırsan,* |
| Eki cire un algir | *İki torba un alasan,* |
| Anida lakay aşap | *Onu da köpək yeyib* |
| Şonnanda kuru kalgir | *Orda da boş qalasan.* |
| | |
| Aytayimuken yarap | *Söyləyimmi yarəbb* |
| Koyayimuken yarap | *Qoyummu yarəbb* |
| Kanğali kokureging | *Geniş gövdən* |
| Kavunsun mağa karap. | *Qovrulsun mənə baxıb.* |
| | |
| Sen suye dep eşitip | *Sən sevirsən deyə eşidib* |
| Az kaldim suye turup | *Az qaldım ki, səni sevim.* |
| Getsin amurung zaya | *Ömrün zay olsun* |
| İçingdan guya turup | *İçindən yana yana qalıb.* |
| | |
| Kaşlaring kara savat | *Qaşların qara mina* |
| Tulumlaring yavlanip | *Tulumların yağlanıb* |
| Göz tiysin gozleringa | *Göz dəysin gözlərinə* |
| Olerdey talavlanip | *Ölüncə azarlanıb.* |
| | |
| Ot tuşsun guliyarga | *Od düşsün güliyara* |
| Guliyardagi malğa | *Güliyardakı mala* |
| Ot tuşmay yalin tuşsun | *Od düşməsə, alov düşsün* |
| Eki yuregi barga | *İki ürəyi olana.* |
| | |
| Tav biyik dep minmagan | *Dağ böyük deyib çıxmayan* |
| Suv teren dep girmagan | *Su dərin deyib girməyən* |
| Talav çiksin içinga | *Birə çıxsın içinə* |
| Dos hatirin bilmagan | *Dost qədrini bilməyən.* |
| | |
| Sarinlar ayta turup | *Sarınları söyləyə-söyləyə* |
| Yureging kannirayim | *Ürəyini ələ alım* |
| Ustungnagi kaptaling | *Üstündəki kürkün* |
| Ot salman yannirayim | *Od salmadan yandırım.* |
| | |
| Vay meni aruv zatim | *Vay mənim gözəl canım* |
| Yekme oguzum minma atim | *Çəkən öküzüm, minilən atım* |

| | |
|---|---|
| Başinga yaramasin<br>Menden ayagan zating. | *Başına yarımasın*<br>*Məndən əsirgənən şeyin.* |
| Oylay oylay turaman<br>Oyum yetmey oyuma<br>Mendegi ot kavunsun<br>Ulan seni boynunga. | *Düşündükcə dura bilmirəm*<br>*Fikrim yetmir düşünməyimə*<br>*Məndəki od dolansın*<br>*Oğlan sənin boynuna.* |
| Çum terekni tuvuna<br>Çivara yılan kozlasin<br>Meni koyup alganing<br>Bavrun tutup bozlasin | *Zoğal ağacının dibinə*<br>*Cızıqlı ilan balalasın.*<br>*Məni qoyub alanın*<br>*Bağrını tutub sızlasın.* |
| Tav maralni kop suyup<br>Tavğa yavğan cengertge<br>Uyung yıgilsin ala göz<br>Sen salding meni dertge | *Dağ maralını çox sevib*<br>*Dağa yayılan çəyirtkə*<br>*Evin yıxılsın, alagöz*<br>*Sən saldın məni dərdə.* |
| Yirlayik yir ozunu<br>Kesilsin tili uzunu<br>Biz yirlap yivanayik<br>Cani çiksin ozunu. | *Oxuyaq yırın özünü*<br>*Kəsilsin dilin uzunu.*<br>*Biz oxuyub əylənək*<br>*Canı çıxsın özünün.* |
| Olay sağa kan yavsun<br>Arkalik baziğina<br>Neçede hazim gele<br>Ulanni nazigina. | *Belə sənə qan yağsın*<br>*Dirəyin enində.*<br>*Mənim çox xoşuma gəlir*<br>*Oğlanın arıqlığına.* |
| Hara sağa kan yavsun<br>Eşik avzungdan başlap<br>Başlap tutgan dosumsan<br>Bolmayman seni taşlap. | *Aman sənə qan yağsın*<br>*Eşik qapısından başlayıb*<br>*Əzəldən dostumsan*<br>*Səni daşlamaram.* |
Tozulğan xalk tüzge tüşüp olturğan,
*Qovulan xalq çölə gəlib oturmuş*,
Solak boyda Çirkey dep gentlər kurğan.
*Solak boyda Çirkey deyib kənd quran*.
Song tatarları çığışğa getgenler,
*Sonra tatarları çıxışa getdilər*,
Çeçenleni artık yazık etgenler.
*Çeçenləri artıq yazıq etdilər*.
Song  da kaytğanları Dağıstanğa,
*Sonra da qayıtdılar Dağıstana*,
Azap bere turup yolukğan canğa
*Əzab verə gəlib rastlayan cana*
Ahır barıb kamağanlar Kadarnı
*Axır bunlar yağmaladılar Kadarı*,
Segiz ming uylük ullu şaharnı
*Səkkiz min evlik böyük şəhəri.*
Kadar buğar karşı turğan karğanıb,
*Kadar buna qarşı durub qarğışlayıb,*
Aksak Temir bolmağan abat alıb.
*Axsaq Temir olmayan addım atıb.*
Song tatarlar Kadar bulan yaraşğan
*Sonra tatarlar Kadar ilə yaraşan,*
Hilla bulan başğa bir yol oylaşğan:
*Hilla ilə başqa bir yol düşünüb:*
Yibergen Kadarğa soldatların,
*Göndərdi Kadara əsgərləri,*
Bu soldatlar barıb, girgen Kadarğa

*Bu əsgərlər gedib girə Kadara,*
"İç yanından hucum etgen şaharğa
*"İçəridən hücum edən şəhərə*
Tışıyakdan da bular ullu ğüç salğan
*Çöldən də bunlar böyük güc qatar*
Makrü bulan ahır Kadarnı alğan.
*Makrü ilə axırda Kadarı alırlar.*
Bu boylarda hıylı uyler yallatğan
*Bu boylarda xeyli evlər yandırıldı*
Aksak tülkü arslanlanı aldatğan
*Axsaq tülkü aslanları aldatdı.*

**Altın yazılı xətt var**

Ming eki yüz orus tarihni çağında
*Min iki yüz rus tarixi zamanında*
Ağımlı Akdaş suvnu yağında
*Axımlı Axdaş çayının yanında*
Kumuk xalqlar olturuşğan sozulup –
*Qumuq xalqı səpələnib yaşayır–*
Belgisi bar tarihlerde yazılıb.
*Sənədlər var, tarixlərdə yazılıb.*
Ong yağında Akdaş, Kızılyarlar ,
*Sağ tərəfdə Axdaş, Qızılyarlar,*
Sol yağında ullu ağaçlı tavlar ,
*Sol yanında böyük ağaclı dağlar .*
Arkabaşda uzun sızak talası
*Arxasında uzun talası,*
Kumuklanı başlap tikgen kalası.
*Qumuqların başdan tikilən qalası.*
Buğün şonu Endirey dep atı bar,
*Bu gün onun Endirey deyə adı var,*
Tarihlerde altın yazıv hatı bar.
*Tarixlərdə altın yazılı xətti var.*
Neçese yıllar şondan getgen song,
*Ondan sonra neçə il keçsə də,*

Aksak Temir tolkunları ötgen song,
*Axsaq Temirin dalğaları keçdikdən sonra,*
Tavğa tartıb, Yahsaysuvnu yağında
*Dağa çatıb, Yahsay çayının yanında*
Olturuşğan kalmuk hannı çağında.
*Yaşamışdır kalmık xanın çağında.*
Endireylər kalmuk hannı öltürüp,
*Endireylər kalmık xanı öldürüb,*
Bar devletin tahşaharğa gəltirip,
*Var-dövlətin şəhərə gətirib,*
Kalmuk asger şonda kaçma başlağan,
*Kalmık əsgər onda qaçmağa başlayan,*
Başda olturğan minaların taşlağan.
*Başda oturan yerlərəni qoyub.*
Kumuklar kalmuk hannı kuvalap,
*Qumuqlar kalmık xanı qovub,*
Şo yerleni tartıb kolğa aldılar,
*O yerləri geri qaytardılar,*
Endireyden köp xalklanı göçürüp,
*Endireydən xalqını köçürüb,*
Taşlı geçiv degen yurtnu saldılar.
*Daşlı keçiş deyilən yurdu saldılar.*
Andan da bir uzak zaman getgen song,
*Ondan da bir az zaman keçdikdən sonra,*
Orus paça kolu yetgen song,
*Rus çarının qolu çatandan sonra*
Oçarhaci inaralnı öltürüp,
*Oçar hacı generalını öldürüb,*
Haligi Yahsay yurtnu saldılar.
*İndi ki Yahsay yurdunu saldılar.*
Kumuklanı şonda buzup, talata,
*Qumuqları onda pozub, soyub*
Süyüp tikgen ocakların yallata.
*Sevərək tikdikləri evləri yandırdı.*
Şolaylıkda Kumuk üçge bölüne,

*Beləcə qumuqlar üçə bölündü*
Üçünçüsü Köstek bolup görüne,
*Üçüncüsü Köstək olub görünür,*
Şolardan da çıga Kaçılık yurtlar ,
*Onlar da Kaçılıq yurdunu saldı*
Razi bolup biy – özdeni, kartlar .
*Buna razı oldu zadəganlar və yaşlılar .*

## Amanhornu yırı //*Amanhorun yırı*

Yaşı ullu ağavlarım, tınglağız,
*Yaşı böyük qardaşlarım, dinləyin,*
Yaş giççi inivlərim, anglağız,
*Yaş kiçik qardaşlarım, anlayın,*
Alçak yırav homuzumnu küyleymen
*Alçaq səsli qopuzumu kökləyib*
Tavarihden bir-eki söz söyleymen
*Tarixdən bir-iki söz deyim.*
Kitaplanı açıp, ohup qarasın,
*Kitabları açıb oxuyub baxsın*
Biz bilebiz onu içinde ne barın.
*Biz bilərik onun içində nə var.*
Bu Kızların tavarihin sorasak,
*Bu Kızların tarixini soruşsaq,*
Alçak yırav aytma yaray habarın
*Alçaq aşıq deyə bilər xəbəri*
Ming yetti yuzbeşinçi yıl ötgen song,
*Min yeddi yüz beşinci il keçdikdən sonra.*
Onu üstünden onyetti yıl getgen song,
*Onun üstündən on yeddi il keçdikdən sonra,*
Peter paça özü yazıb, hatıkoyğan,
*Peter çarı özü yazıb xətt qoyub,*
Karasuvğa Kızlarkala atıkoyğan.
*Qarasuya Kızlarqala ad qoyub.*
Karasuvu taşıp, xalkı kıynalğan.
*Qaraçay daşıb xalqı bezdirdi.*

Ol avlakda Tatarhan dep han bolğan,
*O çöllərdə Tatarxan deyilən xan vardı*
Öktemligi yuregine sıymayğan
*Ötkəmliyi ürəyinə sığmayan*
İnsan bir de özün süymes can bolğan,
*İnsan özü də sevilməyən can olub*
Maldan-mülkden eki gözü toymağan,
*Maldan mülkdən iki gözü doymayan,*
Yasak tutmay, birevnü de koymağan
*Pay verməyən kimsəyi qoymadı,*
Yasak tutup, xalqın malın talağan.
*Pay tutub xalqın malını taladı,*
Hakimlege akça berip, yarağan.
*Hakimlərə axça verib yarınan,*
Köp kalmuknu yesir de etgen, kul da etgen,
*Çox kalmıkı yesir də edən, qul da edən,*
Haznasına avur aslan pul da etgen,
*Xəzinəsində ağır batman pul da edən,*
Güçlenmegen zakonların güçletgen,
*Güclənməyən qanunları gücləndirən,*
Üstlü-tüplü hansaraylar işletgen.
*Üstlü aşağılı xan saraylar işləyən.*
Dengiz suvğa yuvuk bolğan saraynı
*Dəniz suya yaxın olan sarayı,*
Onu bolğan eki türlü yormesi:
*Onun vardı iki cür qamçısı:*
Bir yormesi – yez mıhlardan kadavlu
*Bir qamçısı yez mıxlarla batırılmış*
Ekinçisi – atıkamuçu yalavlu.
*İkincisi dəridən at qamçılı*
Ura bolğan kara xalkğa ayamay,
*Vuranda qara xalqa düşünmür,*
Ak bolatdan bolğan onu temeni
*Ağ poladdan idi onun təməni,*
Kara xalkın gözlerine basağan,

*Qara xalqın gözlərinə basan ,*
Abzarında bolğan onu emeni
*Həyətində idi onun palıd ağacı*
Adamlanı kıl arkanğa asağan.
*İnsanları kəndirlə asan.*
Danğırağan aç avlakğa yes bolup,
*Donquldayan boş otlağa sahib olub*
Aylanasın handek kazıb, baylağan
*Ətrafını xəndək qazıb bağlayan.*
Ol avlakğa Sibirim dep atıkoyup,
*O otlağa Sibirim deyə ad qoyub.*
Karaxalknı işletmege haydağan.
*Qara xalqı işlətməyə apardı.*
Hansoyuğuz hansarayda yimene
*Xan soyunuz xan sarayında əylənir*
Vazir-vakillerin cıyıp başına**.**
*Vəzir-vəkillərini başına yığıb.*
Karaxalklar, bu kıyınğa, kayğırıp
*Qara camaat bu dərdi bölərək*
Betin cuvup gözünden akğan yaşğa,
*Üzün yuyub gözündən axan yaşa*
Kara xaklar arz etmege yer tapmay,
*Qara xalqlar ərz etməyə yer tapmır,*
Tatarhanın zulmusuna çıdağan.
*Tatarxanın zülmünə dözən.*
Katın-kızlar kutulmağa yer tapmay,
*Qadın-qızlar qurtulacaq yol tapmır*
Töşün açıp, kargış etibp, yılağan.
*Sinəsini açıb qarğış edib ağlayan.*
Yerli karğış yerin tapmay koyamı ?
*Yerli qarğış yerini tapmazmı?*
Bu karğışlar heç boşuna getmegen: –
*Bu qarğışlar heç boşuna getmədi.*
Köp zulmu yessi bolğan Tatarhan
*Çox zalım sahibi olan Tatarxan*

Art ğünlerde muradına yetmegen: –
*Sonrakı günlərdə muradına çatmayan.*
Haparsızdan bir geçeni içinde
*Xəbərsizcə bir gecənin içində*
Hansarayda ötğür kılıç oynağan
*Xansarayda ötkəm qılınc oynadan,*
Ertenine bu habarnı eşitip,
*Səhərə bu xəbəri eşidib,*
Karaxalkın yurekleri kuvnağan.
*Qara camaatın ürəkləri sevindi.*
Yahsaylı men Alçak yırav yırlayman,
*Mən Yahsaylı Alçaq aşıq söyləyirəm,*
Kitaplardan ohup görüp bulanı :
*Kitablardan oxuyub görüb bunları:*
Hansarayda Tatarhannı öltürgen
*Xansarayda tatarxanı öldürən*
Amanhordur, Mahammatnı ulanı
*Amanhordur, Məhəmmədin oğlu.*
Barakalla Amanhordan ulanğa,
*Bərəkallah Amanhordan oğluna,*
Öz namusun kızbaylağa satmağan!
*Öz namusunu qorxaqlara satmayan!*
Süyek yarı, sızlavuklar çıkğanda,
*Sümük yarıb çibanlar çıxanda*
Avruyman dep töşek salıb, yatmağan,
*Xəstəyəm deyib, döşək salıb, yatmadı,*
Geçeletip tulparına yer salğan,
*Gecədən yəhərlədi atını,*
Ol atlanğan igitleni uyunde,
*İgidlərin evində atlanan,*
Urup yıkğan Taşgeçivnü biyin de.
*Vurub yıxan Daşkeçivi bəyinin də.*
Arslan murza, sağa tüşgenne namus,
*Arslan murza, sənə düşəndə namus,*
Yaş igitni tutup, tusnak etmege,

*Cavan igidi tutub dustaq etməyə,*
Kır avlakda asmak kurup, asmağa,
*Çəmənlikdə dar ağacı qurub asmağa,*
Başın gesip, kanlısına eltmege?
*Başını kəsib qanlısına aparmağa?*
Yat, Amanhor, kaburungda parahat,
*Yat, Amanhor, qəbrində rahat yat,*
Senden artda duşmanlarıng kalmağan,
*Səndən sonra düşmənlərin qalmadı,*
Sağa namart bolğan Arslan murza da
*Sənə namərd olan Aslan mirzə də*
Taşgeçivde on gün yaşap, kalmağan!
*Daşkeçivdə on gün yaşamadı!*

### Tarğunu haqqında yır

Hey, ulanlar, kolumdağı homuzum
*Hey, oğullar, qolumdakı qopuzum,*
Tüp kılından tartıp buğün küyleymen.
*Alt mizrabdan çəkib bu gün bəmləyirəm.*
Kulak yayıp, tınglaçığız hali siz,
*Qulaq açıb söylədiklərimi dinləyiniz*
Tarğu yurtnu tarihinden söyleymen,
*Tarğu yurdunun tarixindən danışacam,*
Tarğu yurtnu bir zamanı bar edi
*Tağrı yurdunun bir zamanı var idi,*
İçinde şavhal biylər turağan,
*İçində şavhal bəylər yaşayan,*
Erevüllü erenleri birigip,
*İgildlərdən igidləri, bir olub*
Elinde şariatnı kurağan,
*Elində şəriətin quran,*
Tarğu yuyrtta köp ullular bar edi,
*Tarğu yurdunda çox böyüklər var idi,*
Oçarlarda tığılışıp olturup,
*Oçarlarda yan yana oturub,*

Tındırıklı pikru etip, oy kurup,
*Bərk düşünüb, plan qurub,*
Ulanları hazirlenip üstünde,
*Oğulları hazırlanıb üstündə,*
Tübeklerin tığıp otdan tolturup,
*Tüfənglərin yığıb odla doldurub,*
Yavlarına yandan alıp urağan,
*Yağılarına yandan alıb vuran,*
Yavğa karşı yabuşmağa çapmağa
*Yağıya qarşı döyüşməyə, çapmağa*
Er-katın hazirlenip turağan,
*Qadın-kişisi hazrlanıb durublar,*
Tarğu yurtnu bir zamanı bar edi
*Tarğu yurdunun bir zamanı var idi,*
Tölelerden tartıp atlar çığarıp,
*Tövlələrdən çəkib atlar çıxarıb,*
Atlarına kaplap yerlər salağan,
*Atlarına gözəl yerlər eyləyən,*
Kollarına savutların alağan,
*Əllərinə silahların alan,*
Yağalanı basıpgelgen yavlanı
*Torpağına basıb gələn yağıları*
Tarğu yurtnu bir zamanı bar edi
*Tarğu yurdunun bir zamanı var idi.*
Yavlar gelse, emirilip çığağan,
*Yağılar gəlib, əmr edib çıxan,*
Öz güçüne bazıp, çapğan duşmannı
*Öz gücünə əmin olan düşməni.*
Tarğuda osal erlər az edi.
*Tağruda qorxaq ərən az idi,*
Başına namus tüşse, kütmeygen,
*Başına namus düşəndə qorumayan ,*
Tarğu yurtnu bir zamanı bar edi
*Tarğu yurdunun bir zamanı var idi,*
Gelgen konak cumalatıp getmeygen.

*Gələn qonaq cumalayıb getməyən.*
Tarğu yurtnu bir zaman bar edi
*Tarğu yurdunun bir zamanı var idi.*
Yamanlağa girme yeri tar edi
*Yamanlara girmə yeri dar idi*
Aylan ayak titirerdeyğüçünden
*Gəzən ayaq titrəyirdi gücündən,*
"Er Tarğu!" – dep erler çıkğan içinden!
*"Ər Tarğu" deyib ərlər çıxır içindən!*
Tarğu yurtda köp ullular bar edi
*Tarğu yurdunda çox böyüklər var idi,*
Zakon bulan şariatnı bilegen.
*Qanun ilə şəriətini bilən.*
Camiyatda cah ulanlar köp edi,
*Cəmiyyətdə cahıllar çox idi,*
"Hayt!" – degende "Vayt" – dep arğıp gelegen.
*"Haydi"deyəndə "Vaydı" deyib gələn.*
Tarğu aldın alay tiziv yurt edi
*Tarğu əvvəldən elə bir yurd idi,*
İçinden tirmen suvlar ağağan;
*İçindən dəyirman sular axan,*
Yaşavuna, turuvuna, halına
*Yaşamına, duruşuna, halına*
Aylan ayak tamaşağa bağağan
*Gəzənlər gözəlliyinə tamaşa edən,*
Giççiləri ullulağa edepli,
*Kiçikləri böyüklərə hörmətli,*
Katınlar erkeklege hürmetli,
*Qadınlar kişilərə hörmətli,*
Savutlar altın bulan kazılğan,
*Silahlar altun ilə qazılmış,*
Tarğu yurtnu buğününe karasa
*Tarğu yurdunun bu gününə baxılsa,*
Osal erlər asil atın azdırğan.
*Qorxaq ərlər əsil adı batırdı.*

**Arslanxannı yırı //Arslanxanın yırı**

Atlan atlansen Arslan han, degende,
*Atlan atlan, sən Arslanxan deyəndə,*
Atlanmağa səeni keping süygende
*Atlanmağa kefin istəyəndə,*
Yahsaylağa can yıbata barğanda,
*Yahsaylara əylənməyə gedəndə,*
Seni artıngdan kağız gelip ohuldu,
*Sənin ardınca məktub gəldi oxundu.*
Geçeletip sen Arslan han, kaytsın dep.
*Gecələyib sən Arslan xan qayıtsın deyə*
Endireyni tübün tutup terbetding,
*Endireyin dibini tutub titrətdin.*
Tonavçular çıkdı seni aldınga.
*Quldurlar çıxdı sənin qarşına.*
– Allahısen, tonavçular, koyuğuz!
– *Allah eşqinə, quldurlar, imkan verin!*
Yahşı erkekge oşay sizin soyuğuz!
*Yaxşı adama oxşayır sizin soyunuz!*
Ne gelecek meni hıtır tonumdan?
*Nə gələcək mənim köhnə kürkümdən*
Duvlatsağız, hatar çıgar kolumdan.
*Toxunsanız xəta çıxar əlimdən.*
Atayım bar avuzluğun çaynayğan,
*Atam var, qocalıqdan ağzı çeynəyən*
Açuvlansa, uyge girme koymayğan,
*Qəzəblənsə, evə girməyə qoymayan,*
Öz balasın soyğan uçun toymayğan.
*Öz balasına əziyyət versə də doymayan.*
– Tüş-tüşsene sen Arslan han, tüşsene,
– *Düş-düşsənə, Arslanxan, düşsənə,*
Savutlarıng yer karşınga ilsene
*Silahlarını önünə qoysana,*
Sen, Arslan han, koymacaknı bilsene!
*Sən, Arslan xan, qoymayacağını bilsənə!*

– Minme süysem, tüşme süysem – meni atım!
*– Minmək istəsəm, düşmək istəsəm – mənim atım!*
Arslan han tüğülmü meni atım?
*Arslanxan deyilmi mənim adım?*
Siz de kimsiz at savutlar almağa ?
*Siz kimsiziniz at silahlar almağa?*
Men de kimmen at savutlarıbermege !
*Mən kiməm ki, sizə silah verməyə!*
Belindegi kaytğan kınğır kılıçın
*Belindəki qaytan əyri qılıncın*
Ol batırım onda alğan suvurup,
*O igidim o vaxt alıb sıyırıb,*
Kızbaylanı uç aylanğan kuvurup,
*Qorxaqları üç dolanıb qorxudub,*
Teberilip arasına girdi, dey,
*İtələyib arasına girdi deyir,*
Aylanıb yağasına çıkdı, dey
*Gedib yaxasına çıxdı, deyir.*
Urup şonda beş-altısın yıkdı dey.
*Vurub orda beş-altısın yıxdı deyir.*
– Hayt, ulanlar, aytmadı dep aytmağız,
*– Haydi, oğullar, söyləmədi deyib, deməyin,*
Arslan hanğa tirep tübek çağığız,
*Arslanxana dirək, tüfəng dirəyin,*
Kalğanığız tamaşağa bağığız!
*Qalanınız tamaşaya baxınız!*
Arslan hanğa tirep tübek çakdı, dey
*Arslanxana dirək, tüfəng çaxdı deyir,*
Ol da, elivaş, kalğan eken atılmay,
*O da oğraş, qaldı atılmadı,*
Kalğanlar Arslan hanğa katılmay.
*Qalanlar Arslan xana qatılmadı.*
Atını başın noğay yolğa burdu,dey,
*Atın başın noqay yoluna burdu deyir,*
Atına uçkamuçu urdu dey.

*Ata üç qamçı vurdu deyir,*
Haydap barğan atayını ustüne,
*Gəlib çatdı atasının yanına,*
Atasu uzun tartıb küstüne.
*Atası narahat dərin düşünür..*
– Assalamlar bolsun, atay, sağa, da,
*– Əssalam olsun ata sənə də*
Allahisen, ayıp etme mağa da:
*Allah eşqinə ayıb etmə mənə də.*
Endireyden men atlanıdım geçede,
*Endireydən mən atlandım gecədə,*
İşlerim çetim tüşdü neçe de,
*İşlərim çətin oldu necə də,*
Bu yolumdan meni , atam, geç! – dedi,
*Bu yolumdan mənim, atam, keç! – dedi*
Bu yolumdan meni, atam, geçmesəng,
*Bu yolumdan mənim, atam, keçməsən,*
Sağa meni ulanlığım heç! – dedi
*Sənə mənim oğulluğum heç! – dedi.*

## Dağıstan hakkında yır//Dağıstan haqqında yır

Dağıstannı ahvalından söyleymen
*Dağıstanın əhvalından söyləyim.*
Bu dünyanı har-bir işin oylayman,
*Bu dünyanın hər işini düşünüm,*
Bu dünyalar çır-çırından aylanğan,
*Bu dünyalar fır-fır fırlanar,*
Busurmannı butu-kolu baylanğan,
*Müsəlmanın qolu-ayağı bağlanar,*
Bu dünyağa ahır zaman aylanğan!
*Bu dünyada axır zaman fırlanar!*
Hayt, Dağıstan toldu mucuk uylerden,
*Haydi, Dağıstan doldu «mucuk» evlərdən,*
Akça berip, yerler aldı biylerden,
*Axça verib torpaq aldı bəylərdən,*

Dağıstanda kurdu mucuk uyleni,
*Dağıstanda «mucuk» evlər saldılar,*
Akça berip, bek aldatdı biyleni
*Axça verib çox aldatdı bəyləri.*
Dağıstanğa haydap mucuk saldılar,
*Dağıstana qovub «mucuk» saldılar,*
Busurmandan tartıp savut aldılar,
*Musəlmandan çıxarıb silah aldılar,*
Ol mucuklar Araseyni taşladı,
*O «mucuklar» Rusiyanı tərk etdi,*
Busurmannıyurtun buza başladı.
*Müsəlmanın yurdunu dağıtmağa başladı.*
Har-bir uyden saylap esgər alacak
*Hər bir evdən əsgər seçib alacaq,*
Mahdi tuvsa, bizge kömek bolacak,
*Mehdi doğsa bizə kömək olacaq,*
Ol tuvğunça mucuk gelip tolacak.
*O doğunca «mucuk» gəlib dolacaq.*
Siz turmağız haman bulay bolur dep,
*Siz durmayın, həmən belə olur deyib,*
Hayt, Dağıstan mucuk uyden tolur dep,
*Hey Dağıstan «mucuk» evdən dolur deyib,*
– Bu dünyalar bulay turmas haman da.
*– Bu dünyalar belə qalmaz həmən də,*
Yahşı erkekler bolğan aldınzamanda.
*Yaxşı kişilər olub qədim zamanda.*
Yahşı atlılar bu gavurnu kolunda,
*Yaxşı atlılar bu gavurun əlində,*
– Batır erler getdi Sibir yolunda,
*– Yaxşı igidlər getdi Sibir yolunda*
Heç kalmadı arslan tuvğan batırlar,
*Heç qalmadı aslan doğan igidlər,*
Kalğanlardan kolay eken katınlar.
*Qalanlardan yaxşıdır qadınlar.*
Şamil haci imam bolup yaşadı,

*Şamil Hacı imam olub yaşadı,*
Onu satıp, şo tavlular aşadı.
*Onu satıb bu dağlılar yedi.*
Güçü barlar hakimlege yaraylar,
*Güclülər hakimliyə yararlar,*
Tüpden taba bizin buzma karaylar.
*Dibdən bizə quyu qazarlar,*
Biz, ulanlar, İstambulğa geteyik
*Biz oğlanlar İstanbula gedək*
– Elibizni gavur alsa ne eteyik ?
*– Elimizi gavur alsa neylərik?*
Bu gavurlar alma tura elibiz,
*Bu gavurlar almağa hazır elimizi,*
Bir hıncalsız kalma tura belibiz.
*Bir xəncərsiz qalmağa hazır belimiz.*
Paçalardan bizge prikaz ohuldu,
*Çarlardan bizə əmr oxundu,*
Süygen gişi Osmanlığa barsın dep
*İstəyən kəs Osmanlıya keçsin deyib,*
Süymegenlər gavur elde kalsın dep.
*İstəməyənlər gavur elində qalsın deyib.*
Anı eşitip, yazıldılar getmege,
*Bunu eşidib yazıldılar getməyə,*
Hayt, koymadı negetine yetmege
*Haydi, qoymadı muradına yetməyə,*
Bu gavurlar özlər aytıp, yazdırdı
*Bu gavurlar özləri adların yazdırdı,*
Har-bir yolda bular bizin azdırdı.
*Hər bir yolda bunlar bizi azdırdı.*
Heç barmı eken bu sözleni hatası?
*Heç varmı bu sözlərin xətası,*
Yılay kalsın osal erni atası!
*Ağlar qalsın alçaq düşmənin atası!*

## Şamilni hakkında yırlar//Şamil haqqında yırlar

### Birinci yır

Geçe busang, geçivlerden aldın geç,
*Keçirsənsə, bu cığırlardan öncə kec,*
Geçivleni artın günün bilip geç
*Keçirsənsə düşünərək bilib keç*
– Geçivleni art günü tayğakdır.
– *Cığırların sonrakı günü sürüşkəndir.*
Yuvuğum dep bir osalğa sır aytsang
*Dostum bilib bir qorxağa sirr versən,*
O da onu artın tutup ayğakdır.
*O da onu arxasın tutub danışacaqdır.*
Ayta busang, özüngnü igidine ayt:
*Desən, öz igidinə de,*
Sidirip etin alğan bulanı söz de aytmas,
*Ətini kəssən də söz deməz*,
Kısğaçlağa salğan bulan sır da aytmas
*Mənganəyə salsan da sirr verməz.*
Girip getding kara tavnu içine,
*Gedib girdin qara dağın içinə*,
Sen tayandıng bir Allahnı güçüne.
*Sən arxalandın bir Allahın gücünə.*
Tavlanı oküregen buğası,
*Dağları titrədən buğası,*
Ayhay, Şamil, terek eding altınlı,
*Ay hay, Şamil, ağac idin gızıldan*,
Tamurları tavnu-tüznü tarağan,
*Budaqları dağı düzü darayan*,
Yapırağıng yulduz yimik yanağan,
*Yarpağı ulduz kimi parlayan*,
Tavlarda sağıl taşday sınaldıng
*Dağlarda sağır daştək sınandın.*
Yavlarda kılıçlarday kınaldıng,
*Düşmənlərdə qılınctək səlisləşdin.*
Kınalğan kılıçlanı kınısan,

*İtilənən qılıncların qınısan,*
Dağıstannı taşdan salğan sınısan!
*Dağıstanın daşdan salan başdaşısan*!
Şamil batir, seni tavlu katin tapsa da
*Şamil igid, səni dağlı xatun doğsa da,*
Ustünge tav kürçesin yapsa da
*Üstünə dağ kürçəsin yapsa da*,
Tamurlarıng tüzlüknü çöllerinde.
*Köklərin düzlük çöllərində.*
Heç unutulmazsan Dağıstan ellerinde
*Heç unudulmazsan Dağıstan ellərində,*
Sen görsetgen hünering, har bir zatıng,
*Sən göstərdiyin hünərin hər bir şeyin*,
Şamil batır, seni kurç iğit atıng!
*Şamil igid, sənin igiddir adın!*

**İkinci yır**

Arak tavnu bavru çubar kuvu eding,
*Arak dağın uçan quşu idin*,
Atalanı arslan Şamil ulanı !
*Ataların arslan Şamil oğlu!*
Al töbede aldın kurar çatırnı
*Qarşı təpədə aldın gurulası çadırı*,
Panarlanı yırak yanğan çırağı ,
*Fənərlərin parlaq yanan çırağı*,
Payhammarlar canday görgen, inanğan,
*Peyğəmbərlər tək inanclı,*
Batır Şamil, batır eding ellerden.
*İgid Şamil, igid idin ellərdən.*
Asgerlering tizip, yolğa sala eding,
*Əsgərlərini düzüb yola salardın,*
Enni seni batırlığıng bolmadı,
*İndi sənin igidliyin olmadı*,
Bu dünyada sen görmegen kalmadı,
*Bu dünyada sən görmədiyin qalmadı*,
Bu dünyada çüy - çüyünden boşadıng.

*Bu dünyada hər şeyinən boşaldın.*
Şamil, seni Allah buzma süygende,
*Şamil səni Allah pozmaq istəyəndə*,
Alışlardan arş yulduzu sozuldu,
*Səmadan ərş ulduzu sözüldü*,
Aldın tutğan yolung artda buzuldu.
*Öncədən tutan yolun sonra pozuldu*
Çeçen tavda dörtmüyüşlü tala eding,
*Çeçen dağda dörd künclü tarla idin,*
Tav artında taşdan etgen kala eding.
*Dağ arxasında daşdan edən qala idin.*
Karlı tavnu gökçumall karında
*Qarlı dağın göyşumal qarında*
Kılıçıngnı, yurütmeding kakdırmay
*Qılıncın yeritmədin vurmadan*
Seni, Şamil, kotanıng yok, tavung yok,
*Şamil, sənin kotanın yox, dağın yox.*
Bu dünyada kayğıng etme savung yok.
*Bu dünyada qayğını deyəcək canlı yox.*
Şamil batır, kayda bardıng-kalmadıng,
*Şamil, igid, hara getsən-qalmadın*,
Guni tavğa minmey turup bolmadıng,
*Quni dağa çıxmayıb qalmadın.*
Guni tavung, seni yar boldu
*Quni dağın sənə yar oldu*,
Sağa geng dünyalar tar boldu
*Sənə gen dünyalar dar oldu.*
Şamil batır, Guni tavnu elinde
*Şamil igid, Quni dağının elində,*
Olağa dinni  satma yol da yok.
*Onlara dinini satmağın yolu da yox.*
İmam Şamil asgerin tav saparğa yiberdi
*İmam Şamil əsgərini dağ səfərə yolladı*

**Başlının yırı (Mahtıni yırı)//*Başlının yırı(Mahtının yırı)***

Dağıstanlar, barı birge döngen dep
*Dağıstanlar, hamı birgə döndü deyib*,
Gavurlanı kür yuregi söngen dep
*Gavurların ürəyi söndü deyib,*
Dağıstanda atılmağa top yok dep
*Dağıstanda atılmağa top yox deyib,*
Bu duşmanlar aldın yimik kop yok dep
*Bu düşmənlər deyildiyi qədər çox deyil deyib,*
Alim Medet kağız yazğan Mahtige,
*Alim Mədət məktub yazdı Mahtiyə.*
Mahti bizin içibizge gelsin dep
*Mahti bizim içimizə gəlsin deyib,*
Bu sözlerde yalğanbar busa, ölsün dep
*Bu sözlərdə yalan varsa ölsün deyib.*
Mahti şonda yuhlap bolğan, uyanğan.
*Mahti o vaxt yuxlayırdı oyandı,*
Tavday biyik nazberişge tayanğan,
*Dağtək böyük nazbalışa söykəndi,*
Töşeginde, tizin basıp, olturğan,
*Döşəyinə dizin qoyub oturdu,*
Yuregin küllü dertden tolturğan.
*Ürəyini çoxlu dərddən doldurdu.*
Bu dünyağa kulak tutup karasa,
*Bu dünyaya qulaq verib dinləsə,*
Kağız yuruy geçe demey, gün demey.
*Məktub gedir gecə-gündüz deməz.*
Geçeletip, kop kağızlar yurulse
*Gecələri çox məktublar gedərsə,*
Kim kurumsak turma bolur innemey?
*Hansı qurumsaq durar sakit?*
Mahti barğan başlılanı içine.
*Mahti getdi başlıların içinə,*
Karasa bay kızbaylar güçüne,
*Baxsa bəy qorxaqların gücünə,*

Mal görgende talavurğa şaylanğan,
*Mal görəndə quldurluğa hazırlanan,*
Yav görgende arka-arkadan aylanğan.
*Yağı görəndə arxa-arxaya çəkilen.*
Yerge girsin başlılanı bayları ,
*Yerə girsin başlıların bəyləri,*
Günü gelse, katın yimik bolağan!
*Günü gələndə qadın kimi olurlar!*
Başlı şonda bolmağanday buzulğan
*Başlı o zaman heç olmayantək pozulub,*
Cıyğan malı cıymağandaytozulğan.
*Yığan malı yığmamıştək qeyb olur.*
Mahti çıkğan Tabasaran tavlağa,
*Mahti çıxdı Tabasaran dağlarına,*
Bayrak bergen Amirbekni Ağayğa.
*Bayraq verdi Əmirbəyin Ağaya.*
İnarallar tüpden kağız yazdırğan
*Generallar dibdən məktub yazdırdı,*
Hunzahdağı Abdusalam kukayğa:
*Hunzahdakı Əbdusalam qorxağa:*
"Ne de urup, Biybolatnı öltürsün,
*“Nə də vurub Bəybolatı öldürsün,*
Ne de tutup, tusnak etip, geltirsin.
*Nə də onu dustaq edib gətirsin.*
Özü öltürgen soldatların geçe,dey,
*Özü öldürdüyü saldatlardan keçir deyir,*
Özüne karap yurekler çeçe dey.
*Özünə baxıb ürəklər keçər deyir.*
Samurlanı boyun tutğan karavul,
*Samurların boyunda duran qaravul,*
Urup, şonda Biybolatnı öltürgen.
*Vurub onda Bəybolatı öldürdü.*
Kazandan çıkğan kara kul,
*Qazandan çıxan qara qul,*
Yaş biylege avur namusgeltirgen.

*Gənc bəylərə abır-namus gətirdi.*
Mahti şonda savbol etgen xalkına,
*Mahti onda sağ ol dedi xalqına,*
Samurlanı salkın suvun boylağan.
*Samurların sərin suyunu yolladı,*
Kazavatğa tüşüp, ölgen şahit dep,
*Qazavata düşüb ölən şəhid deyib,*
Akaykadi şonda canın kıynağan.
*Akay kadi onda canına qıydı.*
Yanğız Mahti ne etme bolsun koplege,
*Yalnız Mahti neyləsin çoxlara,*
Yağındağı Akaykadi ölgen song?
*Yanındakı Akaykadi öldükdən sonra?*
Yahşı erkeklər ölmey turup bolurmu,
*Yaxşı kişilər ölməsə olarmı ,*
Arba bulan avur namusgelgen song?
*Araba ilə abır-namus gələndən sonra?*

## ***Ballada yırlar***

## **Zubayırnı yırı//Zubayırın yırı**

– Oy, paşman, hayt ulanlar, oy paşman,
*– Oy, peşman, ay igidlər, oy peşman,*
– Oy içinde oylay kalğan bir yaşman.
*– Oy içində düşünüb qalan bir cavanam.*
Meni bulan birçe olturğan erlege
*Mənimlə birgə oturan ərlərə,*
İçme içki, aşamağa türlü aşman!
*İçməyə içki, yeməyə hər cür yeməyəm!*
Geltirigiz, bal ayaklar içeyik
*Gətiriniz qədəhləri içək,*
Bal ayaklar birçe içe dep aytsınlar,
*Qədəhlərdən birgə içirik desinlər,*
Bizin alay barlay gelgen kızbaylar,
*Bizim dövlətimizi çalan qorxaqlar,*

Bizin görüp, paşman bolup kaytsınlar!
*Bizi görüb peşman olub qayıtsınlar!*
Yara tiydi Zubayır, degen erlege,
*Yara dəydi, Zubayır, deyən ərlərə,*
Can kurdaş tabulmadı şol yerde,
*Can yoldaş tapılmadı bu yerdə,*
Bu gavurlar bir burulup karamay,
*Bu gavurlar dönüb baxmır,*
– Bir kurdaşı ne yering dep soramay.
*– Bir yoldaşı nə haldadır deyə soruşmur.*
– Vay, kızardaş, seni kaydan tabayım?
*– Vay,bacı, səni hardan tapım?*
Tutar eding gelip meni başımnı ,
*Gəlib tutardın mənim başımı,*
Berir eding men uşatğan aşımnı !
*Verərdin mən istəyən yeməyimi!*
Bu sözleni yazma yahşı kağızga,
*Bu sözləri yazmaq yaxşıdır kağıza,*
Berme gerek atayımnı koluna.
*Vermək lazımdır atamın əlinə.*
Ol atası ol kağıznı ohuğan,
*Atası o kağızı oxudu,*
– Anası tınglap karap, yılağan.
*– Anası dinləyib baxıb ağladı.*
Kızardaşı Allahından tilegen,
*Bacısı Allaha yalvardı,*
Ya, Allahım, Zubayırnı kaytar dep.
*Ya Allahım Zubayırı qaytar deyə.*
Kamuçu urup, girip gelgen Zubayır:
*Qamçı vurub girib gələn Zubayır:*
Assalamlar bolsun sağa, atayım,
*– Əssalamlar olsun sənə atam,*
Arğumakdan tüşeyimi, abayım?
*Ağrımaqdan düşümmü mən anam?*
– Tüşme, balam, tüşme, balam Zubayır,

*– Düşmə, balam, düşmə balam Zubayır,*
Seni gorme yaş murzalar gelecek,
*Səni görməyə cavan mirzələr gələcək,*
Yurup gelip, seni, kolung alacak
*Yürüyüb gəlib sənin qolun alacaq*
Tang katğınça at oynata tur balam!
*Dan sökülüncə at oynadıb dur balam!*
Tang katğınça at oynata turdu, dey,
*Dan sökülüncə at oynatdı deyir,*
Hayt görme yaş murzalar geldi, dey,
*Gənci görməyə cavan mirzələr gəldi deyir,*
Yurup gelip, ayta kolun aldı dey.
*Yürüyüb gəlib qolun aldı deyir.*
Avup bir arğumakdan tüşdü,dey,
*Yıxılıb arğumagdan düşdü deyir,*
Çabıp barıp, konak uyge girdi, dey,
*Çapıb gəlib qonaq evinə girdi deyir,*
Konak uyge yamuçusun yaydı, dey,
*Qonaq evində kürkünü yaydı deyir,*
Bu çağına ot-güllesin kuydu, dey,
*Yanına od gülləsini qoydu deyir,*
Ot-güllege bir toşun tayadı, dey,
*Od gülləsinə bir döşün dayadı deyir,*
Tütününe betin de boyadı dey.
*Tütününə üzü də boyandı deyir,*
Aylağa kara bulut yabulğan
*Aya qara bulud yayıldı,*
Konak uyde Azireyil tabulğan
*Qonaq evində Əzrayıl tapıldı.*
Kızardaşı çabıp barğan ustüne
*Bacısı çapıb gəldi üstünə,*
Zubayır uzun tartıp küstüne.
*Zubayır uzanıb ah çəkir:*
– Vay, amalım, bugün sağa ne eteyim,
*– Vay, qardaşım, bu gün sənə neyləyim,*

Başımnı alıp kayda geteyim?
*Başım alıb hara gedim?*
Seni artıngdan men ölmesem yaramas,
*Səninlə mən də ölməsəm yaramaz,*
Dünyalağa enni gözüm karamas!
*Bu dünyaya indi gözüm baxmaz!*
Kara bavlu hıncalnı tağar edim,
*Qara saplı xəncərini taxardım,*
Kanıngnı yerde yatma koymas edim
*Qanını yerdə qoymazdım,*
Kimler bulanı enni karşı bolayım,
*Kimlər ilə indi qarşı durum,*
Seni bulan bir kaburğa gireyim!
*Səninlə bir qəbirə girim!*
Vay, atayım, boynuma urmay ölturdung,
*Vay atam, boynuma vurmayıb öldürdün,*
Amalıma bu kıyınnıgeltirding.
*Qardaşıma bu bəlanı gətirdin.*
Şo Caminat uçun nege ölesen
*O Caminat üçün niyə öləsən,*
Şonu uçun canıng nege beresen?
*Onun üçün canın niyə verəsən?*
Dünyalarda dağı gişi yoкmu edi
*Dünyada başqa kişi yox idimi,*
Sağa tiygen bolatmı edi okmu edi,
*Sənə dəyən güllə idimi ox idimi,*
Es tapdırma bir de adam yoкmu edi!
*Köməyə başga adam yox idimi?*

**Aznavurnu yırı//*Aznavurun yırı***

Hamza biy atlanışğan elinden,
*Hamza bəy atlanmış elindən,*
Barıp tüşgen Aznavurnu uyune.
*Gedib düşmüş Aznavurun evinə.*
– Ay, Aznavur, atlan atlansen atlan!

*"Ay, Aznavur, atlan atlan sən, atlan!"*
– Atlanarday meni, biyim, ongum yok:
*"Atlanacaq, mənim bəyim, halım yox,*
Sadağıma, saylap, salma oğum yok,
*Sadağıma seçib qoymağa oxum yox,*
Uvuçuma, ölçep, tökme otum yok.
*Avucuma ölçüb tökməyə barutum yox."*
– Sadağınga, saylap, oğung bereyim,
*"Sadağına seçib oxunu verim,*
Uvuçunga, ölçep, otung bereyim.
*Avucuna ölçüp barutunu verim.*
Mençi sağa tiri namus salırman,
*Mən ki sənə güclü namus verərəm,*
Kütme, bolsang şol namusnu göreyim!
*Edə bilsən bu namusu, görüm."*
– Uyge barıp, kart atamdan sorayım,
*– Evə gedib, qoca atamdan soruşum,*
Kart anamdan halallığım alayım.
*Qoca anamdan halallığım alım.*
– Meni atam, atlanaman,ne aytasan ?
*"Mənim atam, atlanırım, nə dersən?"*
– Atlanğanğa mençi,balam, ne aytayım?
*"Atlanmışa mən ki, balam, nə deyim?*
Sen atlanğın yahşılanı yoluna,
*Sən atlan yaxşıların yoluna,*
Esen kaytğın kart atangnı koluna!
*Əsən qayıt yaşlı atanın qoluna.*
Seni uçun dep kısğa geçe kırk turğan,
*Sənin üçün, qısa gecədə qırx dəfə qalxan,*
Kırk tamurdan süt bergen
*Qırx damardan süd verən,*
Kolların kolbav etip, baylağan,
*Əllərin qolbaq edib bağlayan,*
Tizlerin beşik etib, çaykağan,
*Dizlərini beşik edib sallayan,*

Arigi uyde, balam, seni can anang –
*O biri evdə, balam, sənin can anan,*
Şol anangdan sorap sama atlançi .
*O anandan soruşaraq atlan ki."*
– Meni uçun dep kısğa geçe kırk turğan,
*"Mənim üçün, qısa gecədə qırx dəfə qalxmış,*
Kırk tamurdan süt bergen,
*Qırx damardan süd verən,*
Kolların kolbav etip, baylağan,
*Qolların qolbaq edib bağlayan,*
Tizlerinbeşik etip, çaykağan,
*Dizlərini beşik edib yelləyən,*
Anam men, atlanaman, ne aytasan?
*Anam mən, atlanarım, nə deyərsən?"*
– Atlanğanğa mençi,balam, ne aytayım?
*"Atlanmışa mən ki, balam, nə deyim?*
Sen atlanğın yahşılanı yoluna,
*Sən atlan yaxşıların yoluna,*
Esen kaytğın kart atangnı koluna!
*Əsən dön yaşlı atanın qoluna!*
Seni bulan bir kursakda yaşağan,
*Səninlə bir qarnımda yaşayan,*
Tartışp, tıyınların aşağan,
*Çəkişib yemək yeyən,*
Kızardaşğa sorap sama atlançı .
*Bacına soruşub atlan ki!"*
– Meni bulan bir kursakda yaşağan,
*"Mənimlə bir qarında yaşayan,*
Tartışıb, tıyınların aşağan
*Çəkişıb yemək yeyən,*
Kızardaşım, atlanaman, ne aytasan?
*Qızqardaşım, atlanıram, nə deyirsən?"*
– Atlanğanğa mençi, amalım, ne aytayım ?
*"Atlanmışa mən ki, qardaşım, nə deyim?*
Sen atlanığın yahşılanı yoluna,

*Sən atlan yaxşıların yoluna,*
Esen kaytğın kart anangnı koluna!
*Əsən qayıt yaşlı ananın qoluna!*
Beşiginde sağa aytılğan,
*Beşiyində sənə söylənən,*
Beş yaşında geleşgen,
*Beş yaşında nişanlanan,*
Onbeşinde otavunga geltirgen,
*On beşinde otağına gətirdiyin,*
Kazığına kara karğa konmağan,
*Qazığına qara qarğa qonmayan,*
Seni, olcang karğağanlar ongmağan,
*Sənin arvadın, bəddua edənlər, bəxtsiz,*
– Şoğar da sorap sama atlançı .
*Ondan bir soruşub atlan ki!"*
– Beşiginde mağa aytılğan,
*"Beşiyində mənə söylənən,*
Beş yaşında geleşgen,
*Beş yaşında nişanlanan,*
Onbeşinde otavuma geltirgen
*On beşində otağıma gətirilən,*
Kazığına kara karğa konmağan,
*Qazığına qara qarğa qonmayan,*
Meni olcam karğağanlar ongmağan,
*Mənim arvadım, bəddua edənlər bəxtsiz,*
Katın olcam, atlanamanne aytasan?
*Xanım qadınım, atlanıram, nə deyirsən?"*
– Atlanğanga mençi, erkek, ne aytayım?
*"Atlanmışa mən ki, kişi, nə deyim?*
Sen atlanğın yamanlanı yoluna,
*Sən atlanasan yamanların yoluna,*
Sav gelmegin kart atangnı koluna!
*Sağ dönməyəsən yaşlı atanın qoluna'.*
Özüm biçip, özüm tikgen ak kaptal –
*Özüm biçib, özüm tikdiyim ağ kaftan,*

Tigivləri sayın alay ok tiysin,
*Tikişlərindən elə ox dəysin,*
Tüymeleri sayın alay top tiysin!
*Düymələrindən elə top vursun!*
Gamza biying bergen gök gümeng –
*Həmzə bəyin verdiyi göy zirehin,*
Toğalar sayın ala kan sıysın!
*Topuqlarına qədər qan axsın!*
Tübeklər tuvra tiygen yaranga,
*Tüfənglərin açtığı yarana,*
Kaptalıngdan mamuk alıp, yula etsin!
*Kaftanından pambıq alıb, sarısın!*
Şöşgeler kıya çapğan yaranga,
*Qılıncların əyricə açdığı yarana,*
Yamuçungdan çılgav etip, baylasın!
*Yapıncıdan calağ edib, bağlasın!*
Ak tuyaklı kurdaş seni kara atıng –
*Ağ dırnaqlı dostun sənin qara atın,*
Noğaylanı başçıları paylasın!
*Noğayların başçıları paylasın!*
Çıçkan sırtlıseni kurdaş sarı atıng
*Siçan sırtlı dostun sənin sarı atın,*
Ya,bir Allah, şahalayğa aylanısın!
*Ya, bir Allah, şahalaya dolansın!*
Xalklağa hurcun-hurcun mal gelir
*Xalqlara xurcun-xurcun mal gəlir,*
– Men olcanga sari at bulan sal gelir.
*Mən arvadına sarı atla cənazə gəlir.*
Töbelerden çığıp-çığıp, kararman,
*Təpələrdən çıxıb-çıxıb baxaram,*
Töbelerden seni gele görmesem,
*Təpələrdən gəldiyini görməsəm,*
Töbe çaçım, tin tin etip, tararman.
*Təpə saçımı, ayırıb darayaram.*
Şonda da seni gele görmesem,

*Onda da gəldiyini görməsəm,*
Uyge kaytıp, tazıyatıng tutarman.
*Evə qayıdıb, yasını saxlayaram.*
Uç gün seni, tazıyatıng tutğan song,
*Üç gün sənin yasın saxladıqdan sonra,*
Seni yimik bir erkekni tapmasam,
*Sənin kimi bir kişi tapmasam,*
Öz anama, tul kaldım dep bararman!
*Öz anama dul qaldım deyib gedərəm!"*

**Oçarlarda gömsünlər**

Ol yesirge ol yerlerde ok tiygen,
*O yetimə o yerlərdə ox dəydi,*
Ol da, elivaş, öler yimik bek tiygen.
*O da, ölümcül yaralandı.*
– Hayt, ulanlar, şıbir-gübür etmegiz,
*– Ay oğlanlar, dedi-qodu etməyin,*
Bu yerlerde meni koyup getmegiz!
*Məni bu yerlərdə qoyub getməyin!*
Bu yerlerde meni koyup getsegiz,
*Məni bu yerlərdə qoyub getsəniz,*
Esen-aman yerigizge yetmegiz!
*Sağ-salamat evinizə çatmayın!*
Bu yerlerden siz de getip bitginçe
*Bu yerlərdən siz gedincə,*
Kart atam çıgar sizge karama –
*Qoca atam çıxar sizə baxmağa,*
Hasiretdir men ulanın sorama
*Həsrətdir oğlunu sizdən soruşmağa.*
Şogar bir siz aytarnı men aytsam:
*Onda siz deyəni mən desəm:*
Arımas dep bergen mağa alaşa
*Yorulmaz deyib mənə verən atın*
Yaman yerde arıdı dep aytarsız.
*Yaman yerdə qoydu deyərsiz.*

Şondan da biraz ari barğınça
*Bunu deyib ordan gedincə,*
Kart abayım çıgar sizge qarama –
*Qoca anam çıxar sizə baxmağa*
Hasiretdir men balasın sorama.
*Həsrətdir mən balasını soruşmağa.*
Şoğar da bir men aytarnı sizge aytsam:
*Ona deyəcəyinizi mən sizə desəm:*
Etgen edi mağa bugün ak kalaç –
*Etdiydi mənə bu gün ağ çörək*
Yaman yerde uvaldı dep aytarsız
*Yaman yerdə yıxıldı deyərsiz.*
Şondan da biraz ari barğınça,
*Ordan bir az uzaqlaşanda,*
Men aytarnı men de aytıp bitginçe,
*Dediyimi söyləyib bitincə,*
Erkardaşım çıgar sizge karama –
*Qardaşım çıxar sizə baxmağa,*
Hasiretdir men inisin sorama
*Mən qardaşını sizdən soruşmağa.*
Şogar da bir men aytarnı sizge aytsam:
*Ona deyəcəyinizi mən sizə desəm:*
Sınmas dep de bergen alay kılıç
*Sınmaz deyib verən qılıncın,*
Yaman yerde beş sındı dep de aytarsız.
*Yaman yerdə beş yerdən sındı deyərsiz.*
Şondan da biraz ari barğınça
*Ondan bir az uzaqlaşanda*
Men aytarnı men de aytıp bitginçe "
*Mənim dediklərimi mən də deyib bitirincə",*
Kızardaşım çığar sizge karama –
*Bacım çıxar sizə baxmağa –*
Hasiretdir men amalın sorama.
*Həsrətdir mən qardaşını sizə soruşmağa.*
Şogar da bir men aytarnı sizge aytsam:

*Ona deyəcəyinizi mən sizə desəm:*
Bugün mağa tikgen edi çit gölek –
*Bu gün mənə tikdiyi çit köynək*
Oyuvlar sayın da alay kan singdi.
*Al qana bulaşıb deyərsiz.*
Şondan da biraz ari barğınça,
*Ordan da bir az uzağa gedincə,*
Kız arivüm çıgar sizge karama –
*Qız gözəlim çıxar sizə baxmağa,*
Hasiretdir men olcasını sorama.
*Həsrətdir mən ərini sizdən soruşmağa,*
Şogar da bir men aytarnı sizge aytsam:
*Ona deyəcəyinizi mən desəm:*
Töbelege çıgıp alay karasın,
*Təpələrə çıxıb baxsın,*
Töbelerde gele meni görmese,
*Təpələrdə gəldiyimi görməsə,*
Töbe çaçın bir-bir etip kolğa alsın;
*Təpə saçını yolub töksün*
Aççılağa çığıp alay da karasın,
*Qayalara çıxıb yenə də baxsın,*
Aççılarda gele meni görmese
*Qayalarda gəldiyimi görməsə,*
Açığıp bolsa da alay yılasın.
*Ağlasın sızlasın.*
Atam-anam yılay turup kör tabar,
*Atam-anam çox göz yaş töküb gor tapar,*
Kız arivüm uç geçeden er tabar,
*Sevdiyim isə üç gün sonra ər tapar.*
Kızardaşım el namusğa tuyuner,
*Bacım el namusuna baxar,*
Erkardaşım, mal kaldı dep suyuner.
*Qardaşım mal qaldı deyib sevinər.*
Bolsa meni töbelege gömmesin:
*Olsa məni təpələrə basdırmasın,*

Allah berip, kart yeller kuvğanda,
*Allah verib bərk yellər əssə də,*
Bolsa meni oytanlağa gömmesin:
*Olsa məni dərəyə basdırmasın,*
Allah berip, ak yangurlar yavğanda
*Allah verib ağ yağışlar yağanda.*
Bolsa meni oçarlağa gömsünlər.
*Olsa məni oçarlara basdırsınlar,*
Başlığıma meni sınım salsınlar,
*Başıma başdaşı qoysunlar,*
Tanığanlar alham ohup öterdey,
*Tanıyanlar alham oxuyub keçərlər,*
Tanımağan başın burup geterdey
*Tanımayanlar başın döndərib gedərlər*

## Yurdlar haqqında deyilmiş yırlar

### Birinci yır

Hasavyurtnu kızıl-ala bayrağı,
*Xasavyurdun qızıl-ala bayrağı,*
Yahsaylanı aşarday kaymağı,
*Yahsaylanın şirin olur qaymağı,*
Endireyni örü bulan enişi,
*Endireyin yoxuşuyla enişi,*
Gencavulnu hıyar sıylı yemişi,
*Gəncəvulun xiyar sayğılı yemişi,*
Köstekler orak da ora, biçen de,
*Köstəklər oraq da çalar, biçən də,*
Botayurt alabotanı içinde.
*Botayurt pencər içində.*
Bavtoğaylar yuvuk arada turamı?
*Bavtoğaylar bir arada qalarmı?*
Çiryurtlanı suvğa salğan burağı
*Çiryurdun suya salan çuğunduru,*
Yanğı yurtnu çalı bulan kazığı,
*Yeni yurdun çalılı dirəyi*

Gişi bilmey Çontavulnu yazığı,
*Heç kim bilmir Çontavullun yazığı,*
Gişi bilmey, Temiravul bay bolğan,
*Heç kim bilmir Dəmiravul bəy olub,*
Oğar karap, bu Gamzayurt şay bolğan
*Ona baxıb, bu Qamzayurd zəif olub,*
Ayıp etme, Şavhalyurt artda kalğan,
*Ayıb etmə, Şavhalyurd arxada qalıb,*
Kaziyurtnu teng yartısın suvalğan,
*Qaziyurdun tən yarısın su almış,*
Ekinçini, nemis gelib biylegen
*İkincini alman gəlib incidib,*
Uçünçüge tavlu gelib töğülgen,
*Üçüncüyə dağlı gəlib tökülüb,*
Dörtünçunu orus vatış yelegen,
*Dördüncünü rus yeksan eləyib,*
Beşinçini anglamaydır kulağı,
*Beşincinin anlamır qulağı,*
Altınçını asil çığa bulağı
*Altıncının gözəl çıxır bulağı*

### İkinci yır

Ullu Ancige Hazar Dengiz urunğan,
*Böyük Anciyə Xəzər dənizi vurur,*
Tarğuğa da takır-tukur cıyılğan,
*Tarğuya da takır-tukur yığılır.*
Ağaçavul ağaç da sata,biçen de,
*Ağaçavul ağac da satır, əkin də,*
Atlıboyun bir yarlanı içinde,
*Atlıboyun böyuk dağlar içində,*
Torkaliler yuzum satıp,bay bolğan
*Torkalilər üzüm satıb bəy olur,*
Kapçuğaylar pastan satıp, şay bolğan,
*Kapçuğaylar qovun satıb zəif olur,*
Halimbekavul – bali bulan yaşavu,
*Halımbekavul bal ilə yaşayır,*

Muselimavul – arpa ekmekdir aşavu,
*Müsəlimavulun arpa əkməkdir yeməyi,*
Ördeği Kazanışda hıncal işley arımay,
*Yuxarı Qazanışda xəncər işiylə yorulmur,*
Tövengi Kazanışda ariv bola sari may,
*Aşağı Kazanışda gözəl olan kərə yağ,*
Kumuklanı çaka bulan yurüşü,
*Qumuqların gırma daşda yerişi,*

### *Zarafatyana yırlar. Qaravəllilər*

### Böteke bötekege yetgende // Balış balışa dəyəndə

Malnı da Allah yaratğan
*Malını da Allah yaradıb;*
Mal da sayak kalar dep
*Mal da fanidir deyib*
Koyçunu Allah yaratğan;
*Çobanı Allah yaradıb,*
Koyçu öktem bolar dep
*Çoban ötkəm olar deyib,*
Köknü biyik yaratğan;
*Göyünü böyük yaradıb.*
Kök solkullap, tüşer dep
*Göy sallanıb düşər deyib,*
Yulduzdan kadav kakğan,
*Ulduzdan dirək çaxıb,*
Alaşa gişini ağmağı,
*Qısa kişinin axmağı,*
Biyik gişini tokmağı,
*Böyük kişinin toxmağı,*
Dögerek etgen innırnı
*Yuvarlaq etdi anbarı,*
Karğanı avuzu muyuz zamanda,
*Qarğanın ağzı buynuz zamanda,*
Kapçıknı avuzu kiyiz zamanda,

*Torbanın ağzı keçə zamanda,*
Karasam, kara ağaçda
*Baxsam qara ağacda*
Kartım yığın uluy,
*Qocalarım ulayır,*
Nart dengizde yuruy.
*Nart dənizdə yeriyir.*
Aç bolğanda aşamağa bürlügen bişgen,
*Ac olanda yeməyə böyürtkən bişmiş,*
Kara dengizge sönmes yimik ot tüşgen
*Qara dənizə sönməz kimi od düşmüş.*
Men kast etdim uç dengizge yetmege,
*Mən əhd etdim üç dənizə yetməyə,*
İçindegi bavur – bavurbakalar,
*İçindəki qurul-qurul qurbağalar,*
Kire salğan Aştarhanğa getmege.
*Kirə salır Həştərxana getməyə.*
Bir şatlıkda, bir toklukda
*Bir şadlıqda, bir toxluqda*
Mollanı papahı kalsın poklukda,
*Mollanın papağı qalsın poxluqda,*
Ata ölüp, yaydak kalsın,
*Ata ölüb yetim qalsın,*
Katın ölüp, boydak kalsın,
*Arvadı ölüb dul qalsın,*
Yıl boyunda birni alsın,
*İldə birini alsın,*
Ondan da kuru kalsın!
*Ondan da quru qalsın!*

### Koyannı yırı//Dovşanın yırı

Çapmay tutdum koyannı
*Çapmayıb tutdum dovşanı,*
Tutmay soydum koyannı.
*Tutmayıb soydum dovşanı.*

Şö koyandan on gilevke et çıkdı,
*O dovşandan on girvənkə ət çıxdı,*
Kırk gilevke may çıkdı.
*Qırx girvənkə yağ çıxdı.*
Şö mendegi may bulan
*O məndəki yağ ilə*
Bir çarığım maylanğan,
*Bir çarığım yağlandı,*
Bir çarığım huylanğan.
*Bir çarığım huylandı.*
Huylanğan çarığımnı
*Huylanan çarığımı*
Giyip, yurüdüm.
*Geyib yeridim.*
Uç dengiz yolukdu:
*Üç dəniz yoluxdu:*
Ekisi kuruğan dengiz,
*İkisi quruyan dəniz,*
Birisini suvu yok.
*Birisinin suyu yox.*
Suvu yok dengizden,
*Suyu yox dənizdən,*
Torumnu salıp,
*Torumu salıb,*
Uç çabak tutdum:
*Üç balıq tutdum:*
Ekisi kuruğan
*İkisi quruyan,*
Birisnikanı yok.
*Birisinin qanı yox.*
Kanı yok çabaknı alıp, yurüdüm.
*Qanı yox balığı alıb yeridim.*
Uç yurt yolukdu:
*Üç yurd yoluxdu:*
Ekisi buzulğan yurt,

*İkisi dağılan yurd,*
Birisini içinde gişi yok.
*Birisinin içində kişi yox.*
Gişi yok yurtnu kıdırıp,
*Kişi olmayan yurdu gəzib*
Uç kazan tapdım:
*Üç qazan tapdım:*
Ekisi buzuk kazan,
*İkisi sınıq qazan,*
Birisini tübü yok.
*Birinin dibi yox.*
Tübü yok kazanğa salıp,
*Dibi yox qazana qoyub*
Kanı yok balıknı asdım,
*Qanı yox balığı asdım,*
Söngen otbaşğa salıp,
*Sönən odbaşına salıb*
Otbaşında suv çıkğan,
*Odbaşında su çıxdı,*
Alay kaynay kazan da!
*Elə qaynayır qazan da!*
Aşamay, toydum balıkdan!
*Yemədim doydum balıqdan!*
Getip bara tura edik
*Gedib gedirdik,*
Girip getdim batuvğa
*Girib getdim bataqlığa,*
Şancal tegenek bitsin
*Tikan ağacı bitsin*
Yanğız yatğan yatıvğa!
*Yalnız yatan yatağa!*

**Segiz horaznı yırı//*S*əkkiz xoruzun yırı**

Segiz horaz da, yegip
*Səkkiz xoruz da yəhərləyib*

Segiz gün saban sürdüm,
*Səkkiz gün tarla sürdüm,*
Oğar, da, kop aylanıp,
*Orda da çox gəzib,*
Bir oymak tari çaçdım,
*Bir oymaq darı səpdim,*
Oğar saklavçu koyup,
*Orda gözətçi qoyub,*
Kaytıpgeldim uyüme.
*Qayıdıb gəldim evimə.*
Saklavçu aytıp yiberdi,
*Gözətçi xəbər göndərdi mənə,*
Tarini orma gelsin dep,
*Tarlanı çalmağa gəlsin deyib,*
Koluma orak alıp,
*Əlimə oraq alıb,*
Elbege tonum salıb,
*Əynimə donum geyib,*
Haydap bardım tarlağa.
*Varıb getdim tarlaya.*
Taride bir kaban bar
*Tarlada bir qaban var,*
Mağa çapsa, yaman bar!
*Mənə dəysə pis olar!*
Ari-beri karadım
*O yan bu yana baxdım,*
Kolumdagüllemni
*Qolumdakı gülləmi,*
Sillep, urdum kabanğa.
*Silləyib vurdum qabana.*
Aylan kaban, güy tari.
*Gəz qaban, yan darı,*
Güyüp tari de bitdi
*Yanıb darı da bitdi,*
Kaçıp kaban da getdi

*Qaçıb qaban da getdi.*
Cıyıp-terip karadım
*Yır-yığıb baxdım,*
Bir oymak tari çıkdı,
*Bir oymaq darı çıxdı,*
Şönu sahçıga berdim
*Onu da sahçıya verdim*
Kaytıpgeldim uyume
*Qayıdıb gəldim evimə.*

# YOMAKLAR // NAĞILLAR

## *Can-canivarlani hakkinda//Heyvanlar haqqında nağıllar*

### Tülkü-tülkü – tükü qızıl[15]

Bir ayı, bir tülkü, bir qaban, bir dovşan, bir çaggal, bir qurd, bir xoruz olur. Bunlar bir yerə yığışıb işləyir, birgə yeyirmişlər. Ayı igid idi, qaban qoca idi, qurd ovçu idi, dovşan çoban idi, çaqqal çavuş idi, xoruz molla idi. Bircə tülküyə iş tapşırılmazdı. Bunlar hər biri öz işini görüb yaşayırdılar. Bir gün yeməyə heç bir şey tapmayanda tülkü dedi:

– Tülkü-tülkü – tükü altın
Tükü qızıl-altın!
Qurd ağsaqqalımız,
Ayı igidimiz,
Çaqqal çavuşumuz.
Dovşan çobanımız,
Xoruz mollamızdır.
Molla bizim nəyimizə lazımdır?
Gəlin, onu yeyək.

Bunlar xoruzu yeyirlər. Bir gün bunlar yenə ac olur. Tülkü yenə deyir:

– Tülkü-tülkü – tükü altun
Tükü qızıl-altın!
Qaban bizim ağsaqqalımız,
Ayı bizim igidimiz,
Qurd bizim ovçumuz,
Çaqqal da çavuşumuz,
Dovşan da çobanımız.
Çoban bizim nəyimizə lazımdır?
Gəlin onu yeyək.

Dovşanı da yeyirlər.

Bir gün bunlar yenə ac qalırlar. Tülkü də deyir:

---

[15] Bu nağıl Azərbaycan folklor yaddaşında "Tülkü, tülkü, tünbəki" adı ilə qeydə alınmışdır.

– Tülkü-tülkü – tükü altın
Tükü qızıldan-altın!
Qaban bizim ağsaqqalımız,
Ayı bizim igidimiz,
Qurd bizim ovçumuz,
Çaqqal çavuşumuz.
Çavuş bizim nəyimizə gərək
Gəlin onu yeyək.
Çaqqalı da yeyirlər.
Yenə acırlar. Tülkü yenə deyir:
– Tülkü-tülkü – tükü altın
Tükü qızıldan-altın!
Qaban bizim ağsaqqalımız,
Qurd bizim ovçumuz,
Ayı bizim igidimiz,
İgid bizim nəyimizə gərək?
Gəlin onu yeyək.

Bunlar ayını da yeyir. Ayının əti bitəndə, yenə acırlar. Tülkü qurda baxıb:

– Tülkü-tülkü – tükü altın
Tükü qızıldan-altın!
Qaban bizim ağsaqqalımız,
Qurd bizim ovçumuz,
Ağsaqqal bizim nəyimizə gərək?
Gəlin onu yeyək.

Qurd vurub qabanı öldürür. Qabanın da əti bitir. Tülkü fikirləşir ki, neyləyim ki, qurd məni yeməsin.

Günlərin birində tülkü özü yalnız gəzintiyə çıxır. Bu bir quyruq tapır. Tülkü quyruğa baxıb fikirləşir:

Bir bəlası olmasa, yolda quyruq tapılmaz. Burda tələ olmalıdır. Tez qurdun yanına gəlib:

– Mən bir quyruq görmüşəm, sənsiz yeyə bilmədim, gəl gedib onu yeyək – deyir.

Bunlar tez o quyruğu yeməyə gedirlər. Quyruq görünən yerə çatanda tülkü təmkinlə quyruğu qurda göstərib:

– Budur bu quyruğu ye– deyir.
– Sən niyə yemirsən?– deyir qurd tülküyə.Tülkü:
– Mən bu gün oruc tutmuşam.– deyir.
Qurd inanıb, ac olduğu üçün yemək üçün quyruğa tərəf gedir, yolda tələyə düşüb qalır. Qurd tələyə düşür, təlaşlanır, tülkü gələn kimi quyruğu yeməyə başlayır. O zaman qurd deyir:
– Sən oruc olduğunu demişdin, necə yeyirsən quyruğu indi?
– Ay gördüm oruc bitdi – deyir tülkü.
Qurd deyir:
– Mən niyə görmürəm ayı?
Tülkü:
– Tələnin yiyəsi gələndə görərsən! – deyir.
Tülkü quyruğu yeyir, doyub gedir. Qurd da tələdə qalır.
Bir vaxt sonra tələnin sahibi gəlib qurdu görür. Qorxuya düşür. Qurd tələdən çıxıb qaçır.
Tülkü eşidir ki, qurd tələdən qurtulub qaçıb. Qurd onu görəndə tanımasın deyə külə bələyib rəngini dəyişdirir. Çox yerləri gəzməyə də qorxub köhnə dəyirmanda yaşayır. Bir gün qurd gəzə-gəzə bu dəyirmana gəlib çıxır. Bunu görəndə tülkü təmkinini saxlayıb dəyirmançı olduğunu deyir. Qurd isə onu tanımır, soruşur:
– Tülkü, burda neyləyirsən, nə yeyirsən, necə yaşayırsan? Tülkü deyir:
– Vallahi, necə yaşayım, bu dəyirmanı dolandırıb, ordakı daşın dibinə dilimi salıb ordan çıxan unu yalayıb yaşayıram. Qurd deyir:
– Mən də yalayımmı o unu?
– Yaxşı, yala, yalaya bilirsənsə yala – deyib tülkü bunu göndərib, dəyirmandaşının da yanında oturub dilini də daşın dibinə salır. O da çıxır dəyirmanın başından su tökür. Dəyirman dolanıb hərəkətə keçir və qurdun dilini əzir. Tülkü isə dəyirmandan qaçıb gedir. Bu fikirləşir ki, qurd bunu izləyəcək. Ona görə də buraları yandırır.
Bir gün qışın oğlan çağında tülkü sudan keçəndə bunun qarşısına qurd çıxır. Qurd bu dəfə də bunu tanımır. Salam verib soruşur:

– Necə yaşayırsan, nə yeyib nə içirsən?

– Necə yaşayım: hər gün axşam olanda bu suya quyruğumu salıram. Səhər olunca quyruğumdan balıqlar yapışır mən də o balıqları yeyib yaşayıram. Qurd deyir:

– Nə olar mənə də bu gecə burda durub quyruğumu suya sallamağa icazə versən? Quyruğumu çıxaranda balıqlar yapışsa quyruğuma, mən də onları yesəm!

– Yaxşı, bu gecə bu suyun ixtiyarı səndədir – deyir tülkü.

Axşam olanda qurd quyruğunu suya soxub dayanır. Tülkü də buna baxır.Vaxt gələndə tülkü qurda deyir:

– Dart görək, quyruğun ağırdımı?

Qurd quyruğunu tərpədib:

– Vallah bir az ağır kimi görünür – deyir.

– Qoy, lap ağırlaşsın, doyacağın qədər balıq gəlsin – deyir tülkü. Gecə yarısında tülkü bir daha soruşur:

– Ağırdımı, quyruğun? Quyruğunu dartıb baxır:

– Yaxşı ağırdır – deyir.

– Qoy bir az da ağır olsun– deyir tülkü.

Dan yeri sökülməyə başlayır, tülkü yenə də

– İndi vəziyyət necədir? Ağırlaşmısanmı? – qurd quyruğunu dartanda çox ağrıdır, quyruğunu çıxara bilmir. Tülkü də deyir:

– İndi quyruğunu möhkəm dart, çox şey gələcək – deyir.

Qurd quyruğunu tərpədir, amma quyruğu buz bağladığından tərpədə bilmir. Tülkü muradına çatır, qurd da nə edəcəyini bilmir, təlaşlananda bunların üstünə suya gələn qadınlar çıxır. Onlar əvvəl tülkünü, sonra qurdu öldürür.

## Tülkünün nağılı

Biri varmış, biri yoxmuş, bir yerdə yaşayıb duran bir tülkü varmış. Bir gün bu tülkü ağaclıqda gedərkən ayağına tikan batar. Ora qaç, bura qaç, tikanı çıxara bilmir. Çarəsiz qalan tülkü kəndə gedir.

Baxır, bir bacadan tüstü çıxır. Burda mənə kömək edəcək bir insan olar deyə bu evə girir. Evdə isə bir qadın çörək bişirir. Tülkü ona:

– Ayağıma tikan batıb, çıxarsana, – deyə söyləyir.

– Çıxararam, vallahi, – deyib qadın tikanı çıxarıb, oda atır. Bir az oturduqdan sonra tülkü:

– Hardadır, tikanımı ver, evə getməsəm olmaz, – deyir.

– Vay, onu mən oda atdım, – deyə qadın cavab verir.

– Niyə atdın ki?! – deyə öfkələnir tülkü.

– Vay, tikanı nə edəcəksən?! – deyə qadın təəccüblənir.

– Sənə nə, tikan mənimdir, ver! Ya da yerinə bir çörək ver.

– Vay, bu nə deyir?! Deyə qadın təəccüblənir, tikana çörək mi verilər?!

– Ya tikanımı ver, ya çörəyimi!

– Verməərəm! – deyir qadın.

– Verərsən vallahi, əgər belə etsəm:

– Ey qadın, bu çörəyim sizdə qalsın, bir az gəzib gələcəm, deyir.

– Yaxşı, qoy qalsın, deyir qadın və çörəyi rəfə qoyur. Sonra, tülkü getdikdə, düşünür:

– Tülkünün çörək nəyinə lazımdır? Onu toyuqlarım yedi desəm, tülkünün hardan xəbəri olacaq? – deyir və çörəyi yeyir.

Tülkü, bir azdan geri qayıdıb deyir:

– Hardadır, çörəyimi ver, gedim. Qadın:

– Çörəyi toyuqlarım yedi.

– Niyə yeməklərinə icazə verdin?! – deyə tülkü hirslənir. Ya çörəyimi ver, ya da toyuğunu ver! – deyir. Qadın:

– Vermirəm! – deyir.

– Verərsən, əgər belə etsəm! – deyə tülkü, bunun toyuğunu alıb qaçır. Uzaqlaşınca, belə bir mahnı oxuyur:

– Ay, mənim tikanım,
Tikan verib aldığım çörəyim,
Çörək verib aldığım toyuğum.

Bu toyuğu da alıb, bir başqa evə girir, orda da, "Toyuğum bir az sizdə dursun"deyir və çıxıb gedir. Ev sahibi düşünür:

– Ayyyy, toyuğu quzumuz öldürdü deyərəm, tülkü nə edəcək ki?! – deyir və kəsib toyuqdan yemək bişirirlər. Tülkü qayıdıb gəlib:

– Toyuğumu ver, getməliyəm,– deyir.

– Vallahi, onu quzum öldürdü, – deyir.

– Mən anlamıram, ya toyuğumu, ya da quzunu ver! – deyə tülkü hirslənir. Qadın deyir:

– Vay, toyuğa quzu verirlərmi? Tülkü deyir:

– Ver!

– Verməərəm!

– Verərsən, belə etsəm! Deyir tülkü, quzunu alıb qaçır. Uzaqlaşınca yenə mahnı oxuyur:

– Ay mənim tikanım,
Tikan verib aldığım çörəyim,
Çörək verib aldığım toyuğum
Toyuq verib aldığım quzum.

Sonra quzunu bir başqa qadına verib, belə deyir:

– Baxsana bu quzuma, mən gedib gəzib gəlim, deyir.

– Yaxşı baxaram –deyir o qadın. Tülkü getdiyində düşünür: Bu quzuyu qızım öldürdü desəm nə olacaq ki". Bunlar quzunu kəsib bişirib yeyirlər. Tülkü qayıdıb gəlib:

– Hə, haradadır, quzumu ver, gedim, – deyir.

– Vallahi, qızım oynayarkən bilmədən quzunu öldürdü,– deyir qadın.

– Öldürdü?!

– Vallahi öldürdü! – deyir qadın.

– Mən bir şey bilmirəm, ya quzumu, ya da qızını ver! – deyə tələb edir tülkü.

– Vay, quzu üçün qız verirlərmi? Verməərəm!– deyir qadın.

– Verərsən!

– Vallahi,verməərəm!

– Vallahi, verərsən, belə etsəm! – deyə, qızı da alıb tülkü yox olub gedir.

Sonra qızı bir torbaya qoyub, torbanın ağzını möhkəm bağlayaraq, gəzməyə gedir. Buarada qoyun güdən çobanlar qızın olduğu torbanın üstünə gəlirlər.

– Vah, bu nə torbadır!– deyə çaşıb, onu açıb baxırlar. Baxsalar içində bir gözəl qız uşağı var.

– Sən nə edirsən burada? – deyə soruşurlar. Qız başına gələn hər şeyi danışır.

– Biz edərik ona edəcəyimizi! – deyə, çobanlar torbadan qızı da çıxarıb, onun yerinə it küçüklərini qoyurlar.

Bir azdan sonra tülkü belə mahnı oxuyaraq qayıdıb gəlir:

– Ay mənim tikanım,
Tikan verib aldığım çörəyim,
Çörək verib aldığım toyuğum,
Toyuq verib aldığım quzum,
Quzu verib aldığım qızım,
Qardaşını qucaqlasana! –

deyə torbanı qucaqlayır. Torbanın içindəki küçüklər hav-hav deyə hürür. Onlardan qorxan tülkü yarğandan düşüb tikə-tikə olur. Böyüməyib yarımayıb tülkü qalsın. Yarıyıb böyüyüb biz qalaq.

**Buzav, qozu va börülər // Buzov, quzu və qurdlar**

Arslanbek adında bir kişinin bir buzovu, bir də quzusu varmış. Bir gün onlar otlaqda otlayırmış. Otlayarkən onlar xeyli uzağa gedirlər. Yolda dovşan dərisi tapıb, onu da qoltuğuna vurub, gedirlər. Ancaq axşam olduğunun fərqinə varmırlar. Sonra onlar tüstü çıxan yeri görüb, oraya gedirlər. Burada bir torpaq dam var imiş.Onlar hamısı da oraya girdi. Baxsalar, içki içən doqquz dənə qurd var. Salam verib, dovşan dərisini də qapı ardına qoyub buzov da, quzu da girib, bunların yanında oturur. Qurdlar qonaqlarına hörmət etməyib özlərinin qopuzçusuna söyləyirlər:

– Buzov çal, buzov çal.
– Hinti-minti, hinti-minti.
Quzu hazır günorta yeməyinə.
Hinti-minti, hinti-minti.
Buzov hazır günorta yeməyinə! –

deyə qopuzçu qurd da çalıb oxuyur. İnək qurdların onları yemək istədiyini anladıqda qurdlara deyir:

– Verin, indi mən də çalım. Qurdlar, buzovun heç nədən xəbərsiz olduğunu düşünüb, yemədən öncə bizə gülməli bir şey oxuyar deyib qopuzu buzova uzadırlar. Buzov qopuzu çalır:

– Hinti-minti, hinti-minti,
Doqquz dəyirli kürklüyüm,
Hinti-minti, hinti-minti,
Qapı arxasında yaxalıq,

– deyə oxuyur. Qurdlar qapı arxasına baxıb görürlər ki, dovşan dərisi var. Fısıldayaraq "Bunlar nə güclü heyvandır, bizim doqquzumuzu da öldürüb, dərilərimizdən kürk düzəltmək niyyətindədirlər. Gəlin, qaçaq" – deyirlər. Qalxıb doqquz qurd da qaçıb gedir. Sonra buzov quzuya belə deyir:

– Bunlar qaçdı, amma daha da çoxalıb gələrlər deyə düşünürəm. O zaman bizi bicliyimiz qurtarmaz. Gəl, buradan gedək, – deyir.

Onlar torpaq damdan çıxıb, bir ağaca dırmanıb gözləyirlər. Bir müddət sonra qurdlar on iki nəfər olub gəlirlər. Birdən quzunun işəməyi gəlir.

– İşəməyim gəldi, nə edim? – deyə bu, buzovdan soruşur.

– Yerə ensən, səni qurdlar yeyər, bir budaqdan tutub işə bari, – deyir buzov.

Quzu işəməyə hazırlanarkən budaq qopur və yerə düşür. Qurdların ağlı başına gələnədək buzovun ağlına parlaq bir fikir gəlir və quzuya qışqırır:

– Səmizini tut, səmizini tut!

Qurdlar:

– Bunlar necə igid canlardır. Bunları burda qoyub qaçaq. Qurdlar qaçaraq canlarını qurtarır. Buzov ağacdan düşüb quzuyla birlikdə dovşan dərisini alıb Arslanbəyin evinə qayıdıb gəlir. Yarımayıb böyüməyib qurdlar qalır, yarıyıb böyüyüb quzu ilə buzov qalır.

## Yaxşılığa yamanlıq

Bir varmış, bir yoxmuş, bir kəndli varmış. Bir gün o çay sahilində ot biçirmiş. "Vallahi, indi günorta da olub" deyə bu,

çay kənarında oturub, əlini-üzünü yumağa başlayır. Birdən baxır ki, çayın ortasında axıb gələn bir kiçik əl sandığı var. Kəndli, çaya girir, tez sandığı quyudan çıxarır. "Vay, hey, yox yerdən bu nə qadir günüdür!" deyə sevinib, böyük bir bilək daşıyla vurur. Sandığın kilidini qırıb sandığı açır. Sandığı açınca içindən bir böyük ilan çıxıb kəndlinin gövdəsinə dolanıb onu boğmağa başlayır.

– Hey, hey! Ya, niyə məni boğursan? Mən ki səni sandıqdan çıxardım, – deyir kəndli.

– Öldürəcəm səni,– deyir ilan.

– Məni bu sandığa sənin kimi bir adam qoymuşdu. Mən bu sandığın içinə girən vaxtdan çox zaman keçib; ac qaldım, arıqladım. İndi məni sandığa qoyan adamın intiqamını səndən alacağam, – deyə ilan kəndlini birdən-birə sıxmağa, boğmağa başlayır.

Kəndli, bir kömək olar deyə iki yana baxır. Baxdı ki, kolların arasında qopub gedən bir tülkü var.

– Hey, tülkü, mənə bir yardım! – deyə hayqırdı kəndli. Tülkü:

– Nə olub? – deyə soruşur.

– Ya, görmürsənmi, ilan boğub öldürür məni. Allah rizasına, bir çarə tap, bu bəladan qurtar!

– Mən səni bu bəladan qurtararamsa, sən mənə nə verəcəksən?

– Vallahi, bizim qadının iki kök toyuğu var. Bunları alıb sənə verərəm.

O zaman tülkü ilana deyir:

– Ya, ilan, nə edirsən bu yazığın boynundan boğub?

– Öldürürəm. Bunun kimi bir adam qoymuşdu məni bu sandığa. Bunun üçün də qaranlıqda, dünya işığı görməyib, əziyyət çəkib durdum. Ac qaldım, arıqlayıb bitdim. Buna görə də mən bu adamı öldürüb intiqamımı alacağam.

– Yaxşı, axmaq nə danışırsan, bu qədər böyük gövdənlə sən bu kiçik əl sandığına necə sığışmısan? Yalan deyirsən!

– Vallahi, yalan demirəm.

– Qəribədir axı, mən inanmıram sənin bu sandıqdan çıxdığına. Yenidən gir baxım, – deyir tülkü.

İlan, kəndlinin boynundan çıxıb sandığa girir.

– Bax girdim, sığışıram! – ilan sandıqdan başını çıxarıb deyir.

– Yalanın üstü açıldı. Bax başın çöldə qaldı! – deyir tülkü.

İlan başını da sandığın içinə qoyur. Tülkü tez sandığın ağzını örtür, deşiyini də tutur. Sonra, sandığın üstündə oturub:

– İlan, sənə yaxşılıq yaramır! – deyə tülkü qışqırır. Sonra o kəndliyə:

– Mən səni ilandan qurtardım, indi get mənə kök toyuqlarından gətir, – deyir.

– O nədir elə, mən sözümdən çıxarammı heç? Sən ki məni ölümdən qurtardın. Sən bu kolun dibində yat, mən də gedim toyuqları gətirim. Kəndli evinə gedib olan bitəni arvadına danışır. Kəndlinin arvadı deyir:

– Hey axmaq, tülküyə ki, toyuq götürüp verəcəyinə qoşalülə tüfəngini də alıb gedərək onu öldürüb, mənim kürküm yaxalıq üçün dərisini gətir.

– Vallahi, doğru deyirsən qadın. Ver indi bu içəri otaqdakı tüfəngi, deyib tüfəngi də alıb tülkünün olduğu yerə gedir. Tülkü isə kəndliyə inanmayıb, o gedincə başqa bir kolun dibində yatıbmış. Baxır ki, kəndli çiynində tüfəngini də alıb kolluğa doğru gedir. Bunu görən tülkü deyir:

– Hey namərd, bilirdim ki, sənə etibar olmaz.

Tülkü qaçıb gedir.

## Eniligim, Senligim qapını aç

Xəbər xəbər haplis,
Hanbegeni adiylis,
Gülme Mama,
Gülsənə Patima,
Yarım baş Kiştey,
Tüfəng attım marala,
Vurmadı, yar yüksəkdir deyə,

Dərisi tüfəng qılıfına,
Buynuzu xəncər sapına,
İncə bağırsaq Əliyə,
Qalın bağırsaqVəliyə,
Damaq Totaya,
Damaqaltı Bolata
Öldürən çiban çıxsın
Çiyələk Məhəmmədə!

Bir varmış, bir yoxmuş, bir keçi varmış. Keçinin iki balası varmış. Bunların bir qalın qapılı evləri də varmış. Keçi, balalarını evdə qoyub, bunlara qapını da möhkəm bağlatdırıb, özü də hər gün gedib otlayıb, məməsini südlə və arxasını otla doldurub dönərmiş. Hər gün evə gəldiyində keçi balalarına sevinib bunlara oxuyurmuş:

– Enliyim, Senliyim, qapını aç!
Sizin ananızam;
Arxamı doldurub ot da gətirdim,
Məməmi doldurub süd də gətirdim, –

deyirmiş. Bunlarda qapını açıb anasını sevinclə qarşılayıb otdan yeyib, süddən içib, çox ləzzət alırmışlar.

Bir gün qurd otlaqda otlayan keçiylə qarşılaşır. Qurd ondan soruşur:

– Nə edirsən, keçi, otlayırsanmı, harada yaşayırsan, necə yaşayırsan, balaların varmı, neçə balan var, onları saxlaya bilirsənmi?

Keçi cavab verir:

– Evim də var, iki balam da var, xoşbəxt yaşayıram. Qurd soruşur:

– Böyükdürlərmi? Balalarına nə deyirsən?

Keçi:

– Birinə Turkaz, birinə də Böyükmıx deyirəm, – deyə cavab verir. Keçi qurdu çəmənlikdə gördüyündən bəri onun niyyətini anlamışdı. Axşam qayıdıb, balalarını yemlədikdən sonra bunlara belə deyir:

– Mən olmayanda sizin yanınıza qurd gələ bilər. Ona otlaqda rast gəlmişdim. Balaların varmı, adı nədir, harada yaşayırsan – deyə soruşdu. Qətiyyən o gəlib sizə mənim kimi mahnı oxuyarsa, qapını açmayın, o sizin adlarınızı məndən soruşduğunda birini Turkaz, o birini də Böyükmıx çağırdığımı dedim. O gələrsə, belə çağırar, siz də ona deyirsiniz, turkaz taxdıq, böyük mıxı da çıxart. Bundan sonra mən özümü sizə tanıtmaq üçün qapının arxasından qızıllı ağ ayaqlarımı göstərərəm. Ayağımı görməsəniz, qapını açmazsınız – deyir.

Balalarını möhkəmcə tənbehləyib keçi tezdən yenə otlamağa gedir. Bir az sonra qurd, keçinin olmadığını bilib, bunların evinə gəlir, keçinin səsinə oxşadıb bu qapının önündə qışqırır:

– Turkaz, Böyükmıx, açın balalarım qapını, sizə süd də gətirdim, ot da gətirdim.

– Turkaz da taxdı, boyük mıxı da çaxdıq, sən bizim anamız deyilsən, – deyir oğlaqlar.

– Niyə tanımırsınız, mən sizin ananızam, açınız – deyə qurd, səsini keçinin səsinə daha çox bənzədərək deyir.

– Sən bizim anamız deyilsən, bizim anamızın ağ topuğu, topuğunda altın bilərziyi var, – deyir oğlaqlar.

Qurd dəyirmana gedib, ayağını una bulayıb, barmaqların asamandan üzüklər taxıb, qayıdır gəlir və təkrar səslənir:

– Budur mənim ağ biləyim, qızıl üzüklü barmaqlarım, açın indi! Bunlarda inanıb, açırlar. Qurd da girib, oğlaqları udur.

Axşam olur. Keçi yenə arxasına ot qoyub, məməsini südlə doldurub, evinə gəlir. Baxır, qapı açıqdır, evdə heç kim yoxdur. Bunun qurdun işi olduğunu anlayır. Otunu oraya qoyub, çıxır gedir. Yolda mis buynuzlarını itiləyib, birbaşa qurdun qaldığı yerə gedir. Qurdun damına çıxır və hoppanmağa başlayır. Qurd səsi eşidib deyir:

– Kimdir mənim damımda səs-küy salan, yeməyimə toz tökən?

– Mən mən mən, mən mən mən! Bir buynuzum yer süpürür, bir buynuzum göy süpürür, çıx meydana! – deyir keçi.

Qurd cavab verir:

– Mən deyiləm sənin balalarını yeyən, o filan yerdəki ayıdır.

Keçi gedir, ayının damında hoppanır. Ayı da soruşur:

– Kimdir mənim damımda səs-küy salan? Yeməyimə də toz qatan?

– Mən mən mən, mən mən mən! Bir büynuzum yer süpürür, bir buynuzum göy süpürür, çıxsana sən meydana!– deyir keçi.

– Mən deyiləm sənin balalarını yeyən, qurddur, – deyir ayı.

Keçi təkrar qayıdıb, qurdun damına çıxır, yenə hoppanmağa başlayır. Qurd yeməyini yeyib çıxır. Bunlar savaşmağa başlayır. Keçi buynuzuyla birdən vurub, qurdun qarnını yarır. Birdən-birə "məə,məəə!" – deyə qurdun qarnından iki oğlaq çıxır. Keçi, Enilik, Senilik oğlaqlarını alıb evinə qayıdır.

## Baqa kepden çikgan kiz // Qurbağanın qınından çıxan qız

Bir varmış, bir yoxmuş, hər zamanda, qızlar evdə var zamanda, bildirçin qabarıq idi, qabarıq toyuq tərs gedirdi, çilləri qızıl idi, quyruğu uzun idi. Ağacın içi ilə, Allahın gücü ilə, ağzında ağızlığı ilə, içində tütünü ilə bir kənddə, bir şəhərdə bir Xan varmış. O Xanın üç oğlu varmış. Bir gün Xan oğullarını çağırıb deyir:

– Mən ölmədən sizə qız almaq istəyirəm. Siz hər üçünüz ox atınız. Oxunuzun düşdüyü yerdən sizə qız alıb toy edəcəm.

Böyüyü oxunu atır. Ox gedib bir gözəlin olduğu kəndə düşür. Xan oğluna o qızı alıb yeddi gecə, yeddi gün toy edir.

Ortancılı da öz oxunu, öz sevdiyi qızın olduğu kəndin qapısına atır. Xan oğluna o qızı alıb yeddi gecə, yeddi gün toy edir. Kiçiyi də öz oxunu atır. Ox yox olub gedir. Oğlan oxunu axtarmağa çıxır. Hər yerə gedib oxunu axtarır. Heç "Gördük" deyən olmur. Oğlan xeyli zaman axtarıb bir gölün sahilində oturub, başından keçən işə ağlamağa başlayır.

Göldən bir qurbağa çıxıb dillənərək:

– Oğlan, ağlamaqdan muradın nədir? – deyir. Oğlan:

– Muradım, oxumu itirmişəm, onu tapmaqdır – deyir. Qurbağa:

– Elə isə ağlama, budur sənin oxun. Mənə dəymişdi. Mən sahibi çıxar deyə saxladım – deyir. Oğlan:

– Çox sağ ol! Mənim qismətimsən sən, deyərək qurbağanı götürüb gedir. Evinə çatıb atasına deyir:

– Mənim oxum budur!

Xan yeddi gecə, yeddi gün toy edib, oğluna qurbağanı alır. Oğlan evində bir çuxur qazıb, içinə su töküb, qurbağanı salır.

Bir gün Xan oğullarını çağırıb deyir:

– Sabah üçünüz də qadınlarınıza üç cür yemək bişirtdirib gətirin. Baxım, görüm hansı gəlinin yeməyi yaxşıdır.

Kiçik oğul evinə gəlib, çox qəmgin oturur. Qurbağa soruşur:

– Oğlan, niyə qəmginsən?

– Qəmgin olmayıb neyləyim, atamız sabah qadınlarımızın bişirdiyi yeməyi istəyir. Qardaşlarımın arvadları yemək bişirə bilər. Mən isə özüm bişirib aparacağam. Mənim bişirdiyim yeməkdən nə olacaq?

Qurbağa:

– Onun dərdini çəkmə, sabah düşünərik – deyir.

Sabah açılır, stolun üstündə ağzı bağlı bir boşqab qoyulur. Qurbağa deyir:

– Oğlan, bu boşqabı götür, get! Qətiyyən ağzını açma!

Oğlan boşqabı götürüb gedir. Xan əvvəlcə böyük gəlinin bişirdiyi yeməyi yeyib deyir:

– Pis deyil.

Sonra ortancıl gəlinin bişirdiyi yeməyi yeyib deyir:

– Bu da pis alınmayıb.

Sonra qurbağanın yeməyinin qapağını açır, yeməyin gözəl qoxusundan evdəki insanlar doyurlar. Qurbağanın yeməyinə güləcəyik, deyən adamlar bunu necə bişirdiyini düşünüb dəliyə dönürlər.

Günlərdən bir gün, Xan bir daha oğlanlarını çağırıb deyir:

– Sabah günortayadək arvadlarınıza bir xalı toxutdurub gətirin. Görüm, hansınızın arvadı hünərlidir. Kiçik oğlan evinə qayıdıb yenə qəmgin oturur.

Qurbağa soruşur:

– Oğlan, niyə qəmginsən? Oğlan:

– Atamız sabah günortaya qədər qadınlarınıza xalı toxutdurun gətirin dedi. Qurbağa:

– Onun dərdini sabah günorta çəkərsən, indi üzülmə, öz işini gör – deyir.

Səhərisi gün günorta çağı qurbağa deyir:

– Divardaki yataqda mələfəyə sarılmış xalını götür get! Oğlan gedir. Xan böyük gəlinin toxuduğu xalçanı açıb:

– Pis deyil! Az vaxt vermişdim – deyir.

Sonra ortancıl gəlinin toxuduğu xalçaya baxır, o da həsirə oxşayan bir şey olur. Sonunda qurbağanın xalısını açır. Açsa, hamısı da heyran olub qalır. Xalının üstündə xanın, oğullarının və gəlinlərinin, bütün vəzirlərinin, vəkillərinin şəkilləri var. Xan və vəzirlər heyran olub, bunda bir hikmət var, – deyə düşünürlər.

Günlərdən bir gün Xan oğullarını çağırıb deyir:

– Sabah günorta üçünüz də qadınlarınızı yanınıza salıb gəlin.

Kiçik oğlu evinə gəlib, qəmgin oturur. Qurbağa soruşur:

– Oğlan, niyə qəmginsən? Oğlan:

– Niyə qəmgin olmayım ki, sabah atamız günortaya qədər qadınlarınızı da yanınıza salıb gəlin, – dedi. Qardaşlarım qadınlarını götürüb gedəcək, mən də səni əlimə alıb gedəcəm. Qurbağa:

– Onun dərdini sabah çəkərsən! – deyir. İkinci gün getmək vaxtı gəlir. Qurbağa deyir:

– Oğlan, sən get, mən bir azdan gələrəm. Mən gəldiyimdə atanın qalası silkələnəcək, sən elə et ki onlar qorxmasın. Oğlan gedir. Xan soruşur:

– Qadının hanı?

Oğlan:

– Gələcək!– deyə cavab verir, Birdən qala silkələnir.

Xan:

– Yer sarsılır, xeyir iş görmək lazımdır! – deyir.

Oğlan:

– Yer sarsılmır, mənim qadınım gəlir, – deyir.

Bir az sonra qurbağa, qəlibindən çıxıb, gün kimi, ay kimi qız olub gəlir. Xan, vəziri ayağa qalxıb ona hörmət edirlər. Qızın gözəlliyinə, üstündəki geyiminə heyran olub qalırlar. Sonra hər kəs öz yerinə oturur. Süfrə qurulur, Xan yemək üçün izn verir. Qurbağa qız böyük gəlinlərə baxıb bunlar yesə, mən də yeyərəm deyir. Onlar isə buna baxırlar: "Bu necə yeyir görəsən? Bu necə yeyirsə, biz də elə yeyərdik” – deyə düşünürlər. Sonunda qurbağa qız yeməyə başlayır. Süfrədəki mürəbbədən yeyib, paltarının yanına toxundurur, ikinci qaz ətindən yeyib sümüyünü torbasına qoyur. Sonra ördək ətindən yeyib onun da sümüyünü ayrı bir torbanın içinə qoyur. Böyük gəlinlər də bunu kimi etmək istəyəndə mürəbbə ilə paltarlarını ləkələyirlər. Yemək bitdikdən sonra Xan bunları alıb bağçaya aparır. Bağçada gəzib meyvələrdən yeyib, hovuz kənarında otururlar.

Xan deyir:

– Gəlinlərim, mənə bir hünər göstərə biləniniz varmı? Qurbağa qız böyüklərinə hörmətini saxlayıb gözləyir. Onlar da buna baxırlar. Axırda qız deyir:

– Atacan, izin versən mən bir hünər göstərərəm! Xan izin verir.

Qurbağa qız torbasından mürəbbə ləkəsini barmağıyla götürüb:

– Dəniz ol! – deyir. Oturduqları yerdən başqa hər yer göy dəniz olub qalır. Sonra qazın sümüyünü alıb:

– Üzün, qazlar! – deyə atır; sürü-sürü qaz dənizdə üzür. Bu dəfə ördək sümüyünü alıb:

– Üzün, ördəklər! – deyə dənizə atır; sürü-sürü ördək dənizdə üzür. Sonra qurbağa qız soruşur:

– Atacan bu dənizi, qiyamət gününədək saxlayımmı, yoxsa yox edimmi?

Xan:

– Yox et, qızım, seyr edib necə əcayib olduğunu gördüm! – deyir.

Qurbağa qız:

– Gəl, dəniz! – deyir; dəniz gəlib, mürəbbə ləkəsi olub qalır.

– Gəliniz, qazlar! – deyir; qazlar sürü şəklində gəlib, torbaya girdilər.

– Gəliniz, ördəklər! – deyir; ördəklər gəlib sürü şəklində o biri torbasına girdilər.

Sonra böyük gəlin çıxıb:

– Babam, izn verirsən məndə bir hünər göstərərdim, deyir. Xan:

– Göstər, qızım! – deyir.

Böyük gəlin:

– Dəniz ol! – deyə, mürəbbə ləkəsini alıb Xana doğru atır; mürəbbə gedib Xanın saqqalına yapışıb qalır.

Böyük gəlin bir daha:

– Üzün, qazlar! – deyə Xana doğru torbanı yelləyir; içindəki sümüklər gedib Xanın üzünə dəyir.

Xan:

– Çox sağ ol, bəsdir, daha sən hünərini göstərmə, yoxsa dünyanı başıma uçuracaqsan! – deyir.

Sonra ortancıl gəlini çıxıb:

– Atam, mən də göstərim bir hünər, – deyir. Xan:

– Göstərmə! Bu qaş qayırarkən, sən göz çıxararsan. Hünərin varsa, evinə çatanda ərinə göstərərsən! – deyir.

Oğlan – evə gedincə bu qız yenə qurbağa qılığına girəcək – deyə tez tələşa düşüb qıza deyir:

– Açarları ver, evə gedəcəm. Qız deyir:

– Tələsmə, birlikdə gedək. Oğlan deyir:

– Tələsirəm, sən sonra gələrsən. Qız açarları verib deyir:

– Məndən əvvəl evə girsən, peşman olarsan. Oğlan deyir:

– Peşman olmağım önəmli deyil. Evə gedib qurbağanın qılığını oda atır. Bir azdan qız:

– Yandım, kül oldum – deyir. Vay oğlan, üç gün səbr etsəydin, məndən sənə qadın olardı, indi öz başının çarəsinə bax, – deyib göyərçin olub uçub gedir.

Oğlan bunu görüb yerlərə döşənib ağlayır. Bu xəbəri eşidən xan və xalqı cəm olur. Oğlanın isə göz yaşı sel su yerinə axır.

Oğlan – mən yaşadıqca onu tapmamış əl çəkmərəm – deyib, çəkidə yüngül, yeməkdən ləzzətlisini götürüb yola düşür. Yeridiyi yerə alaula bitir, durduğu yerə toburgu bitir. Pencərini yeyib, toburgasını yandırıb müqəddəs göy saraylara çatıb, içinə girir. Girincə, göy saçlı qadının oturduğunu görür. Oğlan:

– Evinizə yaxşılıq, anam! – deyir. Qadın:

– Gələn, sənə də yaxşılıq, balam, xoş gəldin! – deyir.

– Sağ ol!

– Balam, necə gəlib çıxdın bura, – deyə soruşur o qadın. Oğlan başından keçənləri danışır, qadın:

– Oğlan, tələsmisən, – deyir. O qız mənim böyük bacımın qızıdır. Anası hirsləndiyində bəddua edib, bir müddətliyinə onu qurbağa qılığına soxmuşdu. Sən onun qılığını yandırdığın gün vaxtının bitməsinə üç gün qalmışdı. Qız buraya gəldi, sonra dayanmadı, getdi, – deyir.

Oğlan:

– Allahını sevirsənsə, anam, nə tərəfə getdiyini de mənə – deyə yalvarır, qadın:

– Söyləyərəm, əgər məni doyuracaq qədər yemək versən, – deyir.

Oğlan yemək verir, qadın deyir:

– Buradan şərqə doğru gedərsən, ortancıl bacım deyəcək – deyir.

Oğlan oradan çıxıb aylarca gedib, iynə boyu yol gedib başqa bir saraya gəlir. Oğlan sarayın içinə girir. Baxır ki, ağsaçlı qadın oturur.

Oğlan:

– Evinizə yaxşılıq, anam! – deyir. Qadın:

– Gələn, sənə də yaxşılıq, necə gəlib çıxmısan bura? – deyə soruşur. Oğlan başından keçənləri danışır. Qadın deyir:

– Balam, o qız mənim böyük bacımın qızıdır. Məni doyuracaq yemək ver, sənə hara getdiyini deyim. Oğlan yemək verir qadın deyir:

– Şərqə doğru gedərsən, böyük bacımın sarayına çatarsan. Qız orda olur.

"Yeriməklə bütün yollar qısalar" deyib oğlan yeriyərək başqa bir saraya gəlir, içəri girir. Baxır ki, yaşlılıqdan ərimiş bir qadın var. Qadın oğlana hal-xətir soruşduqdan sonra:

– Necə gəldin bura? – deyə soruşur.

Oğlan başından keçənləri danışır. Qadın deyir:

– Balam, tələsmisən. O qız mənim qızımdır. Mən bir şeyə hirsləndiyimdə bəddua edib bir müddətliyinə onu qurbağaya döndərmişdim. Sən qılığı yandıranda onun vaxtının bitməsinə üç gün qalmışdı. Qızım buraya da gəldi. Mən oğlanı niyə pərişan edib gəldin deyə danlamışdım. Sonra o, buradan getdi.

– Anam, hansı tərəfə getdi? – deyə soruşur oğlan. Qadın:

– Məni doyuracaq yemək versən, yerini deyərəm. Oğlan yemək verir. Qadın deyir:

– Düzə düz gedirsən, əjdahanın qalası var. Sənin qismətindirsə, əjdəhanın yatdığı vaxtı ora çatarsan. Qalaya girərsən. Əjdahanın qarşısında yanan körük var, taxtın altında bir balta da var. Taxt ilə körüyün arasında bir qapı var. O əjdahanın hininin qapısıdır. Hinin içi dolu toyuq və toyuqların arasında bir ağ xoruz var. O ağ xoruz sənin arvadındır. Sən o arvadı da, baltanı da alıb qaçarsan. Qaladan uzaqlaşdığında xoruzu yerə qoyub:

– Sən mənim qadınım idin, indi niyə xoruz oldun?! – deyib balta ilə vurub başını kəsərsən. O zaman ağ xoruz qız olar və artıq başqa bir qılığa girə bilməz, – deyir qadın.

Oğlan qadının dediklərini edir. Xoruzun başını balta ilə vurduqda xoruz dönüb gözəl qıza çevrilir. Oğlan qızı alıb anasına aparır. Anasından razılıq alıb onu öz sarayına gətirir. Xan sevinib hökmü altında olan hər yerdən insanları toplayıb Çanaqqala dəfi ilə, turk sazı ilə yeddi gecə, yeddi gün toy çalıb, öz yerinə xan təyin edərək oğlunu taxta çıxarır.

## Qarasaç

Biri var imiş, biri yox imiş. Bir kənddə bir kasıb var imiş. Onun arvadı ölübmüş, üç cavan qızı qalıbmış. Atası qızlarını çox sevirmiş. Bunların qonşuluğunda bir dul qadın var imiş. Bu qadın bu qızların atası ilə evlənmək xatirinə hər gün qızları çağırıb, başlarını yuyub, saçlarını darayarmış.

– Atanıza məni alsanız, mən sizə bunları edərəm. Mənim etməyəcəyim yaxşılıq yoxdur – deyir. Qızlar da hər gün hər gecə atalarına:

– Ata, o qadını al, bizə ana olsun – deyə yalvarırlar. Atası da:

– Qızlar, mən onu tanıyıram, siz deyən qadın yaxşı qadın deyil – deyib geri çəkilir. Qızlar çox incidəndə atası çarıqlarını göstərib:

– Bu çarıqlarım cırılanda alacağam – deyir. Qızlar dərhal bu xəbəri qadına çatdırırlar. Qadın qızların evinə gəlib, çarığı asılan yerindən götürüb, kül su ilə yuyur, sonra qızlara deyir:

– Aparın bu çarıqları yerinə qoyun, o biri cümə atanızla mən dediyim kəndə gedərsiniz – deyir. Qızlar qadın dediyi kəndə gedirlər. Atası baxıb:

– Daha neyləyim. İndi ki belə oldu, alım bu qadını – deyir.

Qadın gəlib rahatlanandan sonra, qızlara hər cür əziyyət edir. Onlarla dalaşır.

Aradan bir az zaman keçdikdən sonra qadın bir gün əri də evdə olmayanda çoxlu yemək bişirir və döşəyini salıb yatır. Əri gəlib:

– Qadın nə olub, ağrıyırsanmı? – deyə soruşur.

– Nə olsun, sənin qızlarının üçü də birləşib məni təklədilər, qabırğalarımı sındırdılar – deyib ağlayır.

– Səbəbi?

– Onların dalınca gələn oğlanı mən qovdum deyə. Sən bu qızlarını başa salmasan, el içində biabir olacaqsan. – deyir.

Kişi bu sözləri eşidib qızlarını qovmaq üçün bir az gəzintiyə gedir. Başı görünməyən böyük dağ olur. Dağın bir yanı böyük yarğan olur. Yarğanın dibində alması yetişmiş bir

ağac vardı. Bu kişi o ağacın dibində bir dərin quyu qazıb üstünə budaqlar döşəyib, onun üstünə ot səpib sonra ağacın almasını yığıb otun üstünə tökür, evinə gəlib qızlarına deyir:

– Bir yerdə çoxlu yetişmiş alma var, 3-4 torba və bir qab da su götürün, gedək onu yığaq. Kişi arabasına minir, qızlarını da mindirir, ağaca çatanda qızlara deyir:

– Siz indi üçünüz də arabadan düşüb gedin. Almaya çatanda üçünüz də tez gedib yığın.

Qızlar atalarının dediyi yerə birlikdə gedib, birlikdə almalığa atılıb, alma olan yerin üstünə çıxırlar. Atası gəlir ağacın birini çəkir və qızlar quyuya düşürlər. Qızlar qışqırışır:

– Ata, bizi burdan çıxar. Qızlar nə qədər yalvarıb yaxarsalar da, atası bunları eşitmir. Qızlar da, üstünə yığılmış almalar da, quyunun dibinə düşür qalır. Atası gətirib qızlara su və bir az da yemək verib gedir. Qızlar atalarının bu rəhmsizliyini görüb quyudan çıxacaqlarına ümidlərini itirirlər. Düşünürlər ki, burda qalsaq, acımızdan öləcəyik. Almaları bir torbaya yığanda yemək olan torbanın içindən çıxan böyük bıçaq tapırlar. Bu bıçaqla quyunun bir tərəfindən qazmağa başlayırlar. Bu deşikdən çıxsaq, özümüzə yemək tapa bilərik, – deyə düşünən qızlar gecə-gündüz demədən quyunu qazmağa davam edirlər.

Bunlar burda dursun. Biz gələk qızların olduğu mədənə.

O dağ göyə qədər uzanan bir dağ idi. O dağın o biri yanında bir xanın şəhəri vardı. O şah ovçuların dediyi “qaranlıq yerdə saxlanan at yaxşı olur” sözünə inanaraq, o dağı deşdirib, at tövləsi düzəltdirib, atları orda saxladır. Xan özünün mindiyi ayğırı xurma ilə bəsləyirmiş. Qızlar deşiyi qazanda bir yarıq görürlər. Baxıb görürlər ki, böyük bir at tövləsi var. Bütün atlardan seçilmiş bir at ayrı saxlanır. Qarşısında xurma da var. Qızlar tez xurmanı götürüb deşikdən geri qayıdırlar. Bir az vaxt keçəndən sonra ata baxan adam gəlib atın çox arıqlayıb üzüldüyünü görüb xana xəbər verir. Xan ayğırını çıxarıb mollalarına göstərir. Mollalar ayğırın ağrısının olmadığını, ola bilsin ki, şeytanın mindiyini deyir. Atı şeytandan qorumaq üçün ona dua yazıb boynundan asmaq lazım olduğunu deyirlər. Xan tez qazısını çağırıb ayğıra dua yazılmalı

olduğunu deyir. Qazı da tez dəstəmaz alıb, iki dua yazıb birini ayğırın yalına taxır, birisini də ayğırın üzünə, başına sürtür. Ayğırı bir cümə saxlayıb baxırlar. Ayğır yıxılacaq dərəcəyə çatır. Xan acıqlanıb qazını çağırır:

– Ayğırıma neyləmisən? Gör nə hala düşüb!!!

Qazı deyir:

– Çarə edə bilməyəcəm. Qazı and-aman edəndən sonra xan ayğırını inandığı bir vəzirinə tapşırır. Vəzir ayğıra xurma tökür, özü də gizlənib pusur. Qızlar gəlib xurmanı götürəndə vəzir bunu görür. Tez gəlib qızın qolundan yapışır, dartıb çıxarır.

– İnmisən, cinmisən, – deyə soruşur. Qız başlarına gəlmiş əhvalatı danışır. Vəzir qızların üçünü də götürüb xanın yanına aparır. Xan qızları söylədib dediklərinə qulaq verir. Qızların gözəlliyinə baxıb heyran qalır. Deyir:

– Mən sizin kimi gözəl qızları heç yerdə görməmişəm. Ola bilməz ki, belə gözəl qızların bir hünəri olmasın. Üzünü böyük qıza tutub – sənin nə hünərin var? – deyə soruşur.

Qız deyir:

– Mənim nə hünərim olsun? Bir iynəyə saplanan ip ilə qırx paltar tikirəm. Xan ortancıl qızdan soruşur:

– Sənin nə hünərin var? Qız deyir:

– Mənim nə hünərim olsun, bir yumurtanın qabığı qədər düyü ilə qırx nəfəri doyururam. Xan kiçik qızdan soruşur:

– Bəs sənin nə hünərin var? Qız deyir:

– Mənim nə hünərim olsun, altın kəkilli oğlan da, ay üzlü qız da doğaram. Xan bu cavablardan razı qalıb, böyük qızı ayğırını saxlayan vəzirə verir, ortancıl qızı da başqa bir vəzirinə verir. Kiçik qızı da özü alır. Aradan bir az vaxt keçdikdən sonra xan qızları sınamaq üçün qırx adamlıq paltar götürüb bir iynəni də sapladıb böyük qızı yanına çağırır:

– Haydı hünərini görüm, – deyib boş bir evə salır. Qız dediyi sözün qarşısında aciz qalır. Kiçik bacısı bunun halından xəbər tutub xandan gizlicə ip verir. Böyük bacı da bir-neçə günə paltarları tikib qurtarır. Xan çox razı qalır. Sonra ortancıl qıza bir yumurta qabığı qədər düyü verib:

– Qırx adama yemək bişir, – deyir. Ona da kiçik bacısı kömək edir, ortancıl qız da dediyni edir.

Aylar, günlər gəlib keçir, kiçik bacı hamilə qalır. Buna böyük bacıları baxır. Vaxt gəlib vədə çatanda bu qız bir qızıl kəkilli oğlan, ay üzlü qız doğur. Qiz özü halsız qalır. Bacılar görür ki, bu qızın hörməti xanın yanında onlarınkından çox olacaq, tez uşaqları bir sandığa qoyub azdırırlar. Alaçıqdan təzə küçükləmiş qancığın küçüklərini gətirib bacılarından olmuş uşağın yerinə qoyub xana xəbər yetirirlər ki, bəs arvadın küçük doğub. Xan gəlib öz gözü ilə görür. Tez buyurur:

– Balalarını öldürün, özünü də qamışlığa qoyun, girən də lənət yağdırsın, çıxan da. Mən xalq arasında biabır oldum.

Vəzirlər dərhal xanın buyruğuna əməl edirlər. Qız tez ölüb qalmasın deyə ona su da, yemək də vermirlər.

Uşaqların olduğu sandıq şəhərdən bir günlük yol getdikdən sonra qoca bir balıqçının rastına çıxır. Qoca qarmaqları dartıb sandığı görür. Çox sevinir. Elə bilir qızıl tapıb. Evdə açıb baxıb görür ki, çox gözəl iki uşaq var. Qadın da bunu görüb çox sevinir. Hər iki qoca övladları olmadığına görə nəsibimizə çıxıb, qismətimizdir, – deyib uşaqlara baxır.

Aylar illər gəlib keçir, oğlan oğlan olur, qız da qız. Qocalar bunlardan şad olub oğlana at, qılınc, ox, yay verir. Oğlan savaşmaq öyrənir. Hər gün ova gedir, qarşısına nə çıxsa, onlardan sadəcə dördünü öldürüb geri qayıdır. Oğlan ova getsə də, şəhər və obanın nə olduğunu bilmir.

Bunlar burda yaşayırlar. Qoca ata-anaları öləndə də yalnız qalırlar. Qocalar bu uşaqlara Tapıldı və Sevcan adlarını qoymuşlar. Tapıldı özünün adətinə görə hər gün ova gedir. Bir gün Tapıldı bir az uzağa gedir. O gün yol ağzında qırx atlısı ilə ov edən xana rast gəlir. Xan qırx adam ilə bir dənə belə ov etməzkən, Tapıldı göydə uçanı da, yerdə qaçanı da öldürür. Xan bu işə heyran qalır. Tapıldını başdan-ayağa süzür. Atına, silahlarına və özünün gözəlliyinə tamaşa edir. “Heyf, mənim atlılarımın arasında bunun kimi bir oğlan yoxdur” – deyə düşünür və deyir:

– Sən kimsən? Görürəm, igid adamsan. Biz qırx adam bir ov edə bilmədik. Sən nə qədər ov elədin.

– Mən də sizin kimi adamam. Hər kəs hünərinə görə ov edir, biz iki ov edərik. Siz də boş qayıtmazsınız, – deyib, öldürdüyü heyvanlardan ikisini alıb qalanlarını xana verir. Xan bu oğlanın kim olduğunu düşünür. Xan Tapıldını tanımaq üçün hər gün ova gedir. Tapıldı ilə hər gün qarşılaşır. O da hər gün ovundan xana verir. Xan almayanda deyir:

– Mən sizə verməsəm, ikisindən artıq vurmaram. Xan nə qədər sorğu-sual eləsə də, Tapıldının adından başqa heç nə öyrənə bilmir. Hər gün, hər gecə xanın evində Tapıldının sözü danışılır. İki bacı bundan təlaşa düşürlər.

– Əgər adı da Tapıldıdırsa, özü də gözəl oğlandırsa, bu bizim azdırdığımız oğlandır, – deyirlər. Biz bir əncam çəkməsək, əvvəl-axır bu işin üstü açılacaq və bizi daşlayacaqlar. Tezdən durub cindər qadının yanına gedirlər. Cindər qadın fala baxıb qısaca bunları deyir:

– Tapıldı sizin azdırdığınız oğlandır. Onun yanında bir qız da var. Bacılar cindərin sovqatını da verib qayıdırlar. Səhəri gün şəhərdən kənardakı ifritə qarını çağırıb istəklərini ona deyirlər. İfritə qarı:

– Çox asan işdir. Gedib tapım, sonra öldürüm, – deyir.

Bunlar ifritə qarıya çoxlu sovqat verirlər. İfritə qarı bir-neçə gün gəzib axırda Suvsara gözü sataşır. Qıza yaxınlaşıb:

– Axşamınız xeyir! – deyir. Suvsar illərdir insan səsi eşitmədiyindən səksənir, qorxusundan danışa bilmir. İfritə qarı:

– Qızım, qorxma, niyə qorxursan? – deyir. Suvsar səsi qısılmış halda, kim olduğunu soruşanda qarı deyir:

– Mənim inəyim itib. Onu axtara-axtara gəlib bura çıxdım. Səni görəndə yanına gəldim. Suvsar dedi:

– Onda xoş gəlmisən. Evə gəl, sənə yemək verim, ana. Qarı evə girir, yeməyə oturanda oğlan gəlir. Qarı qızı aldatsa da, qardaşından qorxuya düşdü. – Bu məni sağ qoymaz, – dedi. Suvsardan soruşdu:

– Qızım, Suvsar, sən təkmi yaşayırsan? Suvsar dedi:

– Anacan, qardaşımı qoyub necə tək yaşayım?

– Sən qardaşın gələndə ona de ki, qardaşım, mən bir yuxu gördüm. Onda qardaşın da səndən nə yuxu gördüyünü soruşacaq. Sən ona deyərsən ki, yuxumda bir ağsaqqallı kişi dedi ki, Günbatışda bir həyət gördüm, içində bir böyük ağac var. Ağacın dibində bir bulaq var, çıxan suyu durudur. Ağacın yarpaqları və budaqları da böyükdür. Kim o bulaqdan su içsə, ağacdan budaq qoparsa, o budaq hansı yerə basdırılsa, o yer şən olacaq. Qardaşın sənə o ağacı gətirəcək, deyərsən. Bax məni gördüyünü, mənim bura gəldiyimi deməzsən. Axşam olanda Tapıldı gəlir. Suvsarın halını pis görür. Soruşur:

– Nə olub, xəstəsənmi? Suvsar deyir:

– Mən keçən gecə bir yuxu gördüm. Yuxumda bir qəribə iş gördüm, sənə danışacam. Qız qarının dediyi yuxunu danışır. Tapıldı:

– Mən gedər, o ağacı sənə gətirərəm. Tapıldı bir qab su götürür, dan yeri söküləndə günbatana tərəf yol alır. Qarı hər gün gəlir, Suvsarın dizlərinə başını qoyur, saçlarını oxşadır, başına baxdırır, Suvsarın budlarından sorub qanın içib “yaxşı kişilər gecə gedib gecə qayıdır” deyib gecə gedir. Qarı Tapıldının on gündən tez qayıtmayacağını bilir. Tapıldı dörd gün gedib beşinci gün bir dağlığa çatır. Baxıb kənardan qalaların olduğunu görür. Bu qalalara yaxınlaşanda görür ki, qalanın bir tərəfində bir at, o biri tərəfində də bir it var. İtin arxasında ot var. Atın arxasında ət var. Tapıldı bunu görüb, bir az baxır. Tapıldı tez itin arxasındakı otu atın altına, atın altındakı əti də itin altına qoyur. İt də, at da yeməyə başlayırlar. Tapıldı isə bunların arasından keçib gedir.

Qalanın yanına yaxınlaşanda yolun iki yanında iki qara tikan görür. Bunların başları bir-birinə dəyirdi. Tapıldı tikanların arasına girib deyir:

– Hey tikanlar, sizdən bacıma iynələr götürürəm. – burdan bir-ikisini götürüb papağının arasına qoyur. Ətrafına baxınır və dəmir həyəti tapır.

Baxıb görür ki, dəmir qapı bağlıdır. Açmaq istəyirsə də alınmır. Qapı paslanıbmış. Tapıldı bir də görür ki, qapının aşağısında bir quyruq var. Quyruğu götürüb qıfıla sürtür. Qapını

açır. Tapıldı həyətə girir. Baxır ki, bir böyük ağac, yarpaqları enli, budaqları böyük, dibindən bulaq qaynayıb çıxır. Bir qara qarğa qalanın divarına qonub. Qarğa "qaaq, qaaq" deyib qarıldayır. Bir səs içəridən deyir:

– Tut qapı, onu! Qapı:

– Məni yağlayanı tutmaram deyib, tutmur. Tapıldı çıxıb qaçır. Div qaladan çıxıb:

– Ağac tut! – deyə qışqırır. Ağac:

– Məni sığallayanı tutmaram, – deyə cavab verir. Sonra at da, it də:

– Bizə yemək verəni tutmarıq – deyir. Tapıldı burdan canını qurtarıb qaçır. Bir-iki gün yolda qaldıqdan sonra gəlib evinə çatır.

Evin qarışısına gəldikdə budağı əkib suyunu tökür. O saat bulaq qaynayıb çıxır. Ağac böyüyür, gözəl yarpaqlar, böyük budaqları olan bir ağac olur. Bu vaxt Suvsar səsə oyanır, gəlib qardaşnı qucaqlayır. Bunlar gün çıxanda, gün batanda ağacın dibində oturub qalırlar. Tapıldı bacısınn alnından öpüb soruşur:

– Ağrıdınmı? Suvsar cavab verdi:

– Ağrımadım, amma darıxdım.

Suvsarın qanına girən Enem bulağın yanında Suvsarla qardaşını qucaqlaşıb oturan görəndə bundan ona xeyir gəlməyəcəyini anlayıb evinə qayıdır.

Tapıldı ikinci dəfə ova çıxanda xanla qarışılaşır. Xan hal-əhval tutduqdan sonra:

– İgid, sən hardaydın, görünmürdün? – deyə soruşur.

Tapıldı əhvalatı danışır. Ovladığından ikisini də götürüb gedir. Xan evinə gələndə yenə Tapıldıdan danışır. Xain bacılar tez Enemi çağırır:

– Qadın, Enem, sən işi bacarmadınmı? – deyə soruşurlar. Enem:

– Vallahi, nə bacardımsa elədim. Onu gedər gəlməz yola da göndərdim. Amma yenə də sağ qayıtdı. Bunlar Enemə yenə hədiyyələr verib:

– Sən istəsən, bacararsan, – dedilər. Enem:

– Onda mən bir daha gedim görüm əlimdən nə gəlir. Qarı yenə yola düşür. Gəzib gəlir Suvsarın yanına çatır. Suvsar isə ağacın dibində iş görür. Enemi görüb tez ayağa qalxıb, xoş gəldin deyərək ona yemək verir. Bunlar yeməyə otururlar. Enem deyir:

– Qızım, ananın sənə elədiyi yaxşılıqları necə dəyərləndirirsən? Suvsar:

– Çox gözəl dəyərləndirirəm. Çox sağ ol, ömrün uzun olsun. – deyir. Enem:

– Qızım, sən istəsən, sənin darıxmamağın üçün sənə həyan olaram – deyir. Suvsar:

– Anam, bildiyin bir şey varsa, elə – deyir. Enem:

– Qızım, sən qardaşına deyərsən ki, yuxumda mən bir Qarasaç qız gördüm. O qızı alsan, mənə də yoldaş olardı. Qardaşını onu alar gətirər, sən də daha darıxmazsan. Qarasaçın gözəlliyini, mehribanlığını sənə izah etmək üçün çox günlər lazımdır. Ancaq mən indi getməliyəm. Evdə işlərim var, – deyib qarı çıxıb gedir. Suvsar qardaşı gələndə "yuxusunu" danışır. Tapıldı bacısına acıyıb deyir:

– Əgər o qız bu dünyada varsa, mən onu taparam. Tapıldı bunu deyib yola düşür.

Ay gedir, il gedir, iynə boyu yol gedir, bir neçə gündən sonra bir qalaya çatır. Qapısının ağzına çatıb dayanır . Dörd tərəfə baxıb qalanın yaxınındakı daşa dönmüş adamları, heyvanları görüb heyrətlənir. Tapıldı qalaya girməyə çox çalışır, ancaq nə eləsə də, girə bilmir. Qapının ağzında dayanıb:

– Qarasaç! – deyə qışqırır, ancaq cavab gəlmir. Tapıldı topuğunadək daşa dönür.

– Qarasaç! – deyib ikinci dəfə qışqırır, belinədək daşa dönür.

– Qarasaç! – deyib üçüncü dəfə qışqıranda:

– Gəldim, oğlan, – deyib, gəlib qapını açır. Tapıldının daşa dönmüş yerləri açılır. Qarasaç Tapıldıya xoş gəldin deyib, qalaya alır. Yeyib-içdikdən sonra Tapıldı soruşur:

– Qarasaç, bu daşa dönən insanlar nə olan şeydir?

– Onların hamısı məni sevib gələn adamlardır. Onlar mallarını da alıb gəliblər. Mən cavab verməyəndə bunlar daşa dönüb. Sənin yaxşılığından, sənin səsindən onların hamısı

adama döndülər. Tapıldı qayıdıb baxıb gördü ki, həqiqətən bayaqdan daşa dönmüş insanların hamısı gəzinir.

Bunlara baxıb Qarasaç qışqırdı:

– Ay insanlar, sağ olunuz. Qayıdınız. Məndən sizə fayda yoxdur. Adamlar da mal ilə bərəkalla deyib, qayıdıb getdilər. Qarasaç dedi:

– Oğlan, sən mənim yanıma kefə gəlməmisən, bacın üçün gəlmisən. Mən bilirəm. Mən sənə nəsib oldum. Mənim atam dünyada birinci alim insan idi. O bilməyən şey yox idi. O özü bildiyi şeyləri mənə də öyrətdi. Atam-anam öldü. Mən onların qəbirlərini qoyub gedə bilmədim deyə yalnız qaldım. Kim gəlsə də, cavab vermədim. Ancaq indi səninlə gələcəm və sənə nəsib olacam. Bunlar durub atlarını yəhərləyirlər və yola çıxırlar. Bu vaxt Tapıldı atına baxır. Qarasaç soruşur:

– Noldu? Tapıldı:

– Mənim başqa bir diləyim qalmadı,– deyir.

Bunlar bir neçə gün yol gedib Suvsarın yanına çatırlar. Qarasaç ilə Suvsar qucaqlaşırlar. Bunlar bir-birini çox sevirlər. Tapıldı öz adətincə ova gedəndə Suvsar ona yemək hazırlamaq üçün köz yandıranda Enemi görür. Qarasaç Enemə xoş gəldin demədən tutub körüyə soxub yandırır, daha sonra çıxarıb daşlayır. Suvsar bunu görüb ağlamağa başlayır.

Qarasaç:

– Bacım, sən ağlama! Biz bunu öldürməsək, o bizi öldürəcəkdi – deyib onu sakitləşdirir.

... Xan Tapıldı ilə qarışılaşdıqda ona deyir:

– Sizi sarayımda qonaqlığa dəvət edirəm. Tapıldı:

– Sabah gələrik. Biz də üç nəfərik – deyib ovundan üçünü götürüb gedir. Evə çatanda Qarasaç Enemi göstərib Enemin Suvsara elədiyi işləri danışır. Tapıldı da xanın onları qonaqlığa çağırdığını deyir.

Qarasaç deyir:

– Çağırıblarsa, oğlan, sən get. Ancaq mənim dediyim kənddən get. Xan özünün qaravaşını lənətləyib. Sən də "Sənə lənət deyənə lənət olsun!" deyib onun başını sığallayarsan.

Yeməyə oturanda sənə "ye!" deyəcək. Sən də bu ağac göyərçinə yeməsini söylərsən. Xan "bu göyərçin ağacdır, yeməkmi yeyər?" deyəcək. Onda sən ona "İnsan küçük bala doğarmı?" deyərsən. Səndən gecə qalmağını istəyəcək. Sən də qalarsan. Səhər xan da, vəzirləri də, vəkilləri də götürüb bizə qonaqlığa gətirərsən. Gələndə suyun o biri yanınadək yol ilə gəlib, qalanın yaxınlığına gələndə qorxmadan gələrsən – deyir. Tapıldı deyir:

– Axı o yerdə sudan keçmək olmaz. Qarasaç deyir:

– Siz gələnədək mən orda şüşə körpü salacam. Tapıldı gedir, ovlaqda xanla qarşılaşır. Xanın istəyincə onunla qonaqlığa gedir. Xan nə qədər deyirsə, Tapıldı Qarasaçın dediyi kənddəki qaravaşın üzünə tüpürmür. Bunlar evə girib otururlar. Xan deyir:

– Oğlan yesənə. Bu da göyərçinini çağırıb "Sən ye, göyərçinim" deyir. Xan ondan soruşur:

– Oğlan, ağac göyərçin yeməkmi yeyər? Tapıldı deyir:

– İnsan küçük doğarmı?

– Ah evin yıxlmasın sənin, o məsələni sonra danışarıq, gəlin yemək yeyək. Yeyirlər, içirlər, kef edirlər. Gecə də qalırlar. Səhər tezdən oyanırlar. Tapıldı xana deyir:

– Mən də səni vəzirin, vəkilin ilə özümün kasıb evimə qonaqlığa aparmaq istəyirəm. Xan çoxdan bəri Tapıldının yaşadığı yeri görmək istəyirdi. Odur ki, fürsəti fövtə vermədi. Tez yola düşdülər. Gəlib çayın yanına çatanda şüşə körpünü görürlər. Xan yanında gələnlərlə heyran olub körpüdən keçirlər. Suvsarla Qarasaç bunlar qarışılayıb, "Xoş gəldin" deyirlər. Xan bir az ağlı başına gələndən sonra Suvsarla Qarasaçı görür. Gözəlliklərinə heyran olub "necə edim ki, bunlar mənim olsun" deyə xain-xain düşünür. Qarasaç onun bu xain düşüncəsindən xəbərdardır. Gəlib xandan soruşur:

– Xanım, qonaqlığınız necə keçdi? Bizimki sizin adətlərinizi yerinə yetirə bildimi? Xan:

– Bilmədi. Bu cavan adətdən kənara çıxdı. Qarasaç:

– Neylədi?

– Bu oğlan ağac göyərçini çağırıb, ye, göyərçinim deyib sinini geri çevirdi. Mən ağac göyərçin yeyərmi deyəndə, o da adam küçük balası doğarmı deyə cavab verdi. Qarasaç:

– Xanım, izn ver. Qarasaç Tapıldı ilə Suvsarı xanın qarışısına gətirib:

– Bunlar sənin qadınının doğduğu küçük balalarıdır,– dedi. Qarasaç hadisəni necə vardısa eləcə danışdı. Xan:

– Elə isə mən bu saat gedib hər iki qadını da öldürərəm! – deyib adamlar ilə ayağa qalxdı. Qarasaç:

– Çox gözəl olar! – dedi.

Xan adamlar ilə ayaqlananda Suvsar da, Qarasaç da bunların qulluğunda durdular. Xan Qarasaçı təpədən-dırnağa süzüb onun gözəlliyinə heyran qaldı. Görəsən, bu gözəli necə qoynuma alım deyə düşünərək sağollaşdı.

Yola düşüb şüşə körpüyə gələndə Qarasaç gözü ilə işarə edib körpünün üstündəki hər kəsi çaya tökdü. Tapıldı bunu görüb:

– Sən neylədin? Sən deyəsən mənim düşmənimsən. Təzə tapılmış atamı bütün adamları ilə çaya tökdün!

Qarasaç:

– Aman ver, oğlan! Onu öldürməsək, o səni öldürəcəkdi. Ona görə mən belə etdim. Səhər olanda bunların hər üçü yığışıb xanın qalasına gedirlər. Gedib görürlər bütün camaat yığılıb. Qarasaç olanları xalqa danışır. Xalq gedib Tapıldının anasını gətirib ona gözəl paltarlar geyindirib əvvəlki vəziyyətinə gətirirlər. Tapıldını da xan edirlər. Tapıldı abır həya ilə xalqı idarə edir. Bacısı Suvsarı da igid bir oğlana ərə verir.

## *Yaşav turuş yomaklar // Ailə-məişət nağılları*

### Külbay

Biri var idi, biri yox idi, üç ağa oğlu vardı. Kiçiklərinin adı Külbay idi. Böyük qardaşları bir eşşək də verib Külbaya odun daşıtdırırlarmış.

Bir gün Külbay odundan gələrkən yolda bir iynə tapır. Külbay iynəni alıb eşşəyə yüklədiyi yükün üstünə qoyur. Evə gələndə yükü eşşəkdən boşaldanda qardaşlar gəlir.

– Külbay nə edirsən? – deyə soruşurlar.

– Nə edim, yoldan bir iynə tapdım, odunların üstünə atdım. İndi onu axtarıram.

– Evin yıxılsın, iynəni də odunların arasına atarlarmı?

– Bəs harda saxlayaydım?

– Paltarının üstünə sancaydın.

– Yenə tapsam belə edəcəm.

İkinci gün Külbay odundan evə gələndə yolda bir biz tapır. Külbay bizi alıb paltarına sancır. Biz qursağını deşir.

Evə gələndə qardaşları baxır ki, Külbayın üstü-başı qan içindədir.

– Noldu? – deyə soruşurlar.

– Nə olsun, paltarına sanc dediniz, mən də sancdım, üstüm də qana bulaşdı. Qursağım da ağrıyır.

– Ay evin yıxılsın, sanc dediksə, daha bizi sanc demədik. Bizi tapanda kisənə atıb gəlməzlərmi?

– Yenə tapsam elə edərəm.

Üçüncü gün odundan gələndə Külbay bir küçük balası tapır. Evə gələndə torbadan küçük balasını çıxararkən küçük zəngildəyir.

– Küçük balasını torbaya salmaqmı olar? Ona yemək versən, sənin dalınca özü gələcək.

– Yenə tapsam elə edərəm.

Dördüncü gün odundan evə gələndə yolda bir böyük qazan tapır. Qazana çörək atıb, "küç, küç" deyə çağırır. Yemək bitir, amma qazan gəlmir. Sonra Külbay qazanı ip ilə eşşəyin quyruğuna bağlayır. Bir enişə çatanda qazan səs salır. Səsdən diksinən eşşək də hürküb qaçır. Külbay – eşşəyimi hara aparırsan, – deyə qışqırır. Qazan eşşəyin budlarına dəydikcə eşşək qaçır. Külbay birtəhər gəlib eşşəyə çatıb balta ilə qazanı eşşəyin quyruğuna bağladığı ipi kəsir. Sonra baltanın tərsi ilə qazanı döyür, əzir.

– Külbay, neyləyirsən? – deyə qardaşlar soruşur.

– Neyləyim, sizin dediyinizi elədim! – deyir Külbay. Sonra başına gələnləri danışır.

– Qardaş, bu ki qazandır, qazanı eşşəyin quyruğuna bağlamırlar, yükün üstünə qoyurlar.

– Yenə tapsam elə edərəm.

Beşinci gün də Külbay oduna gedib bir ağacı kəsə bilərmi, – deyə baxanda görür ki, ağacın gövdəsi oyuqdur, oyuğun içi bal ilə doludur. Külbay baldan bir az götürmək istəyəndə birdən pətək deşilir və bal Külbayın üzünə sıçrayır.

– Mənə niyə tüpürürsən deyib, acıqlanır və pətəyi dağıdır. Pətəyin içindəki arılar çıxıb üz-gözünü sancırlar. Külbay birtəhər canını qurtarıb qaçır. Evinə çatıb qapıları kilidləyib, sakitləşir. Qardaşları soruşur:

– Külbay nə olub, qapını niyə bağlayırsan?

– Daş əsgər gəlir, daş əsgər gəlir! – deyir Külbay. Bunu arının sancdığını bilib:

– Hardadır daş əsgər? – deyə soruşurlar.

– Meşədə bir ağac kəsirdim, onun içindən çıxıb çapdı daş əsgər! – deyə Külbay cavab verir.

– O daş əsgər çıxan ağacı bizə göstər. Bizimlə gəl, biz daş əsgəri qovaq.

– Vallah gəlmərəm, göstərmərəm, qovursunuzsa özünüz qovun! Qardaşlar əl çəkmir. Külbayı aldadıb aparırlar.

– Bax bu ağacdan çıxdı, özünüz gedin qovun, mən gəlmərəm – deyib Külbay sakitləşir.

Qardaşlar tüstüləyib arıları qovur, Külbayın dediyi ağacın yanına gəlib deyirlər:

– Biz eşşək ilə evə gedib bal qoymağa qab gətirəcəyik. Biz burda olmayanda sən balı axmağa qoymazsan. Külbay razılaşır. Bir azdan bir tülkü gəlib:

– Külbay, bir az bal ver yalayım – deyir.

– Qardaşlarım vermə deyib. İstəyirsən özün ye – deyir Külbay. Tülkü baldan doyunca yeyib gedir. Tülkü getdikdən sonra ayı gəlir:

– Külbay, bir az bal ver yeyim – deyir.

– Qardaşlarım vermə deyiblər. Mən verə bilmərəm. İstəyirsən özün ye – deyir Külbay. Ayı baldan doyunca yeyir. Sonra ayı deyir:

– Külbay, qardaşların evdə olmayanda gəlsəm, mənə yeməyə bal verərsənmi? Külbay bir az düşünüb:

– Verərəm,– deyir.

Ayı getdikdən sonra, qardaşları gəlib qablarını bal ilə doldurub eşşəyə yükləyir, Külbayı da götürüb gedirlər.

İkinci gün qardaşlar Külbaya deyir:

– Biz balın yarısını götürüb bazara aparırıq satmağa. Sən qalanını saxlayıb evdə qal. Kimsə gəlsə yeməyə qoymazsan! Qardaşlar gedirlər.

Bir azdan ayı gəlir:

– Qardaşlarım vermə deyib. Mən verəmmərəm. İstəyirsən get özün götür. Ayı evə girib, evdə baldan doyunca yeyir. Sonra deyir:

– Külbay, sabah yenə gəlsəm, mənə bal verərsənmi yeməyə? Külbay deyir:

– Mən verə bilmərəm, özün girib alarsan. Ayı "yaxşı!" deyib gedir. Qardaşlar gələndə görür bal azalıb. Tez soruşurlar:

– Külbay, balı kim yedi? Külbay cavab verir:

– Ayı gəldi. Məndən bal istədi. Mən də qardaşlarım vermə deyib, mən vermirəm, yeyirsən, özün ye" dedim. Özü girib yedi. Sabah yenə gələcəyini dedi.

– Elə isə sabah sən həyətdə durarsan, ayı gələndə özü girib yesin deyərsən, biz onu öldürərik, – deyir qardaşlar.

Külbay "Yaxşı!" deyir. İkinci gün ayı gəlir:

– Külbay, bir az yeməyə bal ver! – deyir.

– Mən vermirəm, özün gir ye – deyir. Ayı evə girəndə:

– Hey, qardaşlarım evdədir – deyir. Ayı qaçmaq istəyəndə

– Yox əşi, aldadıram səni – deyir.

– Belə zarafatmı olar, Külbay?! Qorxutdun məni, – deyib evə girir. Külbayın qardaşları ayını iki tərəfdən xəncərlə öldürürlər. Bunlar gecə yatırlar. Külbay ayının dərisini ağacdan asır. Gecə ayının dərisindən qanlar damıb Külbayın üzünə düşür. O da hirslənir "Mənə niyə tüpürürsən?! Bal yeməsəydin, qarnın yarılmazdı" deyir. Qardaşları:

– Külbay, səs salma, qoy yataq – deyir.

– Mən neyləyim, ayı tüpürür mənə! Tüpürür, dur ayrı yerdə yat deyirlər. Külbay durub başqa yerdə yatır. Aradan bir neçə gün keçir, kənddə birinin toyu olur. O toya Külbayın qardaşlarını çağırırlar.

Qardaşları Külbaya deyir:

– Sən evdə otur, biz toya gedək. Pəncərədən, qapıdan muğayat ol – deyirlər.

– Yaxşı, – deyir Külbay.

Qardaşları toya gedir. Birazdan Külbay baxır ki, cavanlar o yana bu yana qaçırlar. Birinin qolunda ət kəsiyi, birinin qolunda çörək kisəsi.

– Cavanlar, hara gedirsiz?

– Külbay, filan yerdə toy var. Ət, çörək var, durma sən də get. Külbay baltasını da, pəncərələri də, qapını da yerindən söküb özü ilə həmin yerə aparır.

– Külbaya baxın! – deyə uşaqlar da arxasınca gəlirlər. Külbay getdiyi kəndə plov qazanının, qovurma qazanlarının arasında gedir. Gətirdiyi qapı pəncərələr açılıb-bağlanıb plov, qovurma qazanlarına dəyir. Qadınlı-kişili hər kəs Külbaya baxıb onun niyə belə gəldiyinə heyrət edirlər. Qardaşlar gəlib, "ay evin yıxılsın, sən nə edirsən?" – deyirlər.

– Siz demədinizmi qapı-pəncərədən muğayat ol. Cavanları toya gələn gördüm, mən də gəlmək istədim. Qapı-pəncərəni də kənddə qoyub gəlsəm, siz danlayacaqdınız. Odur ki, özümlə götürüb gəldim.

Camaat bunu eşidib gülməkdən uğunub gedir. Külbayın qardaşları utanıb Külbayı da, qapı-pəncərələri də alıb ordan gedirlər.

Gecə Külbay yatanda qardaşları düşünürlər: "Bu bizi eldə-obada biabır elədi. Bunu yatdığı yerdə qoyaq, özümüz eşşəyimizi də götürüb gedək, Külbay da burda qalsın" deyirlər. Bunların oyununu eşidən Külbay oyanıb yatdığı yerdə yorğanın altına çör-çöp doldurur. Özü də gedir, qardaşlarının torbasının arasına girir. Qardaşları bundan xəbərsiz çıxıb gedirlər.

Bunlar gedib gecə bir yurda çatırlar. Baxıb görürlər ki, bir dükan var. Qapıları açıqdır, ama içində adam yoxdur. Külbayın qardaşları bir-birinə deyir:

– Bu dükanın qapıları açılıb, içində bir adam yox, gəl, görək pul varsa, alıb qaçaq.

– Qardaşlarım, mən girib baxaram dükana. Budlarım ağrıdı, daha məni burdan çıxarın, – deyə Külbay qışqırır. Qardaşlar deyir:

– Evin yıxılsın, biz səndən qaçırıq, səni də alıbmı qaçmışıq? Sonra Külbayı çıxarıb üçü də dükana girirlər. Axçadan, dükanda olandan alıb çıxırlar. Dükanda kiçik bir dəyirmandaşı olur. Külbay onu alıb çıxır. Qardaşları bu daşı neyləyirsən, qoy yerə? – deyirlər. Külbay:

– Yerə qoymaram, kəndə çatanda kəndin yaxınında çayda dəyirman düzəldib, un üyüdəcəm.

– Biz kəndə getməyəcəyik, – deyir qardaşlar .

– Hara getsəniz, adam olan yerə gedəcəksiniz. – deyir Külbay.

Bunlar gedirlər, Külbay da daşını götürüb gedir.

Bunlar kənddən bir az uzaqlaşanda, bunlara yaxınlaşan karvanın səsini eşidirlər. Qardaşlar tez eşşəyi bir bir ağaca bağlayıb özləri də böyük bir ağaca çıxır. Külbaya deyirlər:

– Külbay, daşını yerə qoy, sən də ağaca çıx! Karvan gedincə gizlənməsək, bizi tutarlar. Külbay:

– Daşımı vallahi, yerə qoymaram, – deyir. Daşıyla birlikdə ağaca çıxır. Karvan ağacın altından gedəndə karvanbaşı deyir:

– Bu yerdə qalaq. Burda ağac da var. Karvan ağacın yanında durur. Ağacın dibində ocaq qalayıb qazan asırlar. Karvanbaşı da ayaqlarını ocağa tutub oturur.

– Daşı tutmaqdan biləyim ağrıdı, – deyir Külbay. Qardaşlar deyir:

– Aman daşı əlindən salma, ver biz tutaq.

– Alanda mən almışam, buraxanda da mən buraxacam deyib daşı əlindən buraxır. Daş gəlib qazanın yanında duran karvanbaşını qazanla bərabər tikə-tikə edir. Oturanlar Allah daş

saldı deyib, ordan qaçırlar. Qardaşlar ağacdan düşüb: – Külbayın hünəri ilə bizim var-dövlətimiz oldu. Biz Külbaydan ayrı qalmarıq, – deyirlər. Külbayı da, karvanın mallarını da alıb gedirlər. Evlərinə çatıb, özlərinə arvad alıb, üç qardaş bir qazanda yemək asıb, bir həyətdə yaşayırlar.

## "Üç armud ver, üç ağıl al"

Bir kənddə Camav deyilən bir gənc vardı. Camavın çox gözəl arvadı vardı. Bu qadın kəndin kətxudasını sevirmiş. Qadının kətxudanı sevdiyini Camav da bilirmiş. Camav da kəndə çavuş olmağa çalışırmış. Əgər çavuş olsam, arvadım məni sevər deyə düşünür. Ancaq heç cür çavuş ola bilmir. Camav iki torba armud alıb bir eşşəyə yükləyir "əvvəl sövdəgər olum, sonra çavuş olaram" deyib yola düşür. Axşam vaxtı bir kəndə çatıb təkbaşına ocaq qalayan bir nurani qocanın yanına çatır. Salam verib, salam alır. Qoca soruşur:

– Balam, torbandakı nədir? Camav cavab verir ki, armuddur. Özü də yaxşı armuddur, çox yaxşı armuddur. Elə isə üç armud ver, üç ağıl verim deyir qoca. Camav çıxarıb bir armud verir. Qoca armudu yeyib deyir:

– Hara getsən, öz yerini tapıb oturarsan.

Camav çıxarıb ikinci armudu verir. Qoca onu da yeyib deyir:

– Əsla sənə yalvaran adama heç nə vermə.

Camav üçüncü armudu verir. Qoca üçüncü armudu da yeyib deyir:

– Gördüyün işi heç vaxt arvadına danışma.

Sonra Qoca soruşur:

– Bala, bu kənddə qalacağın ev varmı? Camav "yox" deyir. Qoca Camavı evinə aparıb qonaq edir. Axşamdan bir az keçmiş xanın çavuşu gəlir:

– Qoca, xanım səni məclisinə qonaq çağırıb – deyir.

– Qonağım var – deyir qoca. Çavuş cavab verir:

– Qonağını da alıb gəl. Bunlar məclisə gəlirlər. Qoca gedib öz yerində oturur. Camav da gəlib qocanın yanında oturur. Sonra adamlar gəldikcə Camav yavaş-yavaş sürüşür, axırda yersiz qalır.

Xan soruşur:

– Qoca, qonağın kimdir? Qoca deyir:

– Armud satmağa gəlib.

– Qonaq, armudun yaxşı armuddurmu?

– Çox yaxşı armuddur. Elə isə gətir bura, mən alım, məclisdəkilər yesin. Camav armudu gətirir. Xan deyir:

– Tök ortalığa, yesinlər! Sonra da çıxarıb axçasını verir. Hər kəs armuddan yeməyə başlayır. Xanın vəziri böyük bir armud alıb, yemək üçün bıçaq axtarır, lakin tapmır. Camav – buyur, mən verim deyib, cibindən bıçağını çıxarır. Vəzir bıçağı alıb baxır. Bıçağın gözəlliyini görüb deyir:

– Xanım, görürsənmi necə gözəl bıçaqdır. Xan – görürəm, – deyir.

– Bu bıçaq mənimkidir. İtirmişdim. Bu qonaq oğurlayıbmış onu. Elə isə mən hər kəsin qarışısında onun başını kəsərəm, – deyir xan. Məclis bitir. Qoca deyir:

– Qonağımı alıb gedim mən. Gecə evdə yatsın, səhər tezdən gedər. Xan deyir:

– Qoca, biz səni tanıyırıq, bu məclisdən çıxdıqdan sonra heç kimə heç nə deməyəcəyini bilirik. Ancaq gərək qonağın kimsəyə bir şey deməyəcəyinə dair and içsin, sonra getsin. Qoca da, qonaq da and içir və məclisdən çıxıb gedirlər. Qoca Camava yatmağa yer salır. Camav yatır. Qoca qəlyanını doldurur, maşanı da əlinə alıb düşünür.

– Ay axmaq, – deyir. Özü özünə hay verir. Mən səndən üç armud aldım, üç ağıl verdim. "Aldın" deyir.

Birinci armudu yeyəndə demədimmi öz yerini tap otur.

– Dedin.

Sən oturmadın, axı. – deyir qoca.

– Oturmadım, ayaqüstə qaldım. Bu vaxt Camav da oyanır.

– İkinci armudu yeyəndə istəmədiyi müddətcə heç kimə bir şey verməzsən demədimmi?

– Dedin.

– Sən niyə verdin, o bıçağı vəzirə? O ki, səndən bıçaq istəməmişdi.

– Vallah artıq vermiş oldum – deyir od.

– Verdin, indi də öləcəksən. Bu ölümdən qurtulmaq üçün sənə bir yol öyrədəcəyəm.

– Öyrət, – deyir.

– Səhər vəzir gələcək. Bu bıçağın onun olduğunu deyib səni oğru elan edəcək. Xalq sənə tənə edəcək. Onda sən də ayıq ol, bu bıçağın sənin olmadığın, onun vəzirin olduğunu de. Bura armud satmaq üçün yox, qisasını almaq üçün gəldiyini de. De ki, vəzir sənin atanın yüz axçasın da alıb onu öldürərkən, bu bıçağı orda unudub gedibmiş. Sən də bu bıçağı götürüb diyar-diyar gəzib atanın qatilini axtarırmışsan. İndi o qatili tapdığını deyərsən. Belə eləsən, sən ölümdən qurtulacaqsan, yoxsa vəzirin tələsinə düşəcəksən. Qoca bunları deyib yatır. Sabah ertədən gəlib Camavı alıb gedirlər. Vəzir də bıçaq əlində dayanıbmış. Camav deyir:

– Bu bıçaq səninkidir? Vəzir deyir:

– Bəli, mənimkidir. Camav deyir:

– Ay camaat eşitdinizmi, bıçaq vəzirinkidir?

– Eşitdik, – deyə xalq cavab verir.

– Elə isə demək mənim vəzirdə hayıfım var deyərək, Camav qılıncını sıyırıb çıxarır.

– Sən nə edirsən, – deyə xalq Camavı sakitləşdirir.

– Neyləyəcəm, mən armud satmağa gəlməmişəm, birisi mənim atamı öldürüb, yüz tümən axçasını da alıb, bu bıçağı da orada unudub gedib. Mən bıçağın sahibini axtarırdım. Əgər bıçaq vəzirinkidirsə, elə isə atamın qatili odur. Xalq vəzirə deyir:

– Gəl, sən bunun yüz tümənini ver, biz onu razı salıb göndərək. Vəzir sandığı gətirir və doxsan tümən axça verir. Xalq on tüməni də istəyir. Vəzir "başqa axçam yoxdur" deyir. Bıçağın da onun olmadığını deyir. Nə qədər əlləşirsə, xan da, xalq da məhəl qoymur. Camal qayıdıb gəlir. Qoca soruşur:

– Oğul, neylədin?

– Vallah, qoca, doxsan tüməndən başqa pulu yox idi, mən də bıçağı da alıb qayıdıb gəldim.

–Yaxşı eləmisən. O nacins çox qudurğan idi. Bax, bundan sonra mənim sözlərimi unutmayasan.

Camav qayıdıb gələndə ağ qarın üstündə yaşıl bir xiyar kolu görüb, bir plan qurub evinə qayıdır. Qadın soruşur:

– Neylədin?

Camav deyir:

– Filan dağın dibində qarın üstündə yaşıl xiyar kolu var, onu kətdxudaya deyəcəm, o inanmayacaq, onda mən də onu kətxudalıqdan çıxartdıraram. Sonra özüm doxsan tümənim var, onu da orda qoymuşam. O gedib onu orda tapsa, onda mən də çavuş olaram. Qadın deyir:

– Yaxşı. Əri yuxuya gedəndə qadın gedib işi kətxudaya danışır.

Səhərisi gün Camav dəftərxanaya gəlir.

– Gəzdiyin yerlərdə nə gördün? – deyə çavuş soruşur.

– Nə görüm, filan dağın dibində ağappaq qarın üstündə yamyaşıl xiyar tutan gördüm – deyir Camav.

– Ay axmaq, qışda xiyar bitərmi? – deyir çavuş.

– Vallah var! – deyir Camav.

– Mənimlə söz güləşdirirsən?

– Yox, söz güləşdirmirəm. Gəl, belə edək. Sən çavuşluğunu qoy mərcə, mən də 90 tümənimi, gedək baxaq.

– Yaxşı, mən çavuşluğumu qoyuram, gedək baxaq, əgər dediyin orda varsa, səni üç günə çavuş edərəm, əgər yoxsa, 90 min tümənin onsuz da yoxdur, dördüncü gün gəlib sənin evində eşiyində nə varsa götürüb apararam.

Yaxşı, – deyib, razılaşır, insanlarla gedirlər baxmağa. Gedib görürlər ki, heç nə yoxdur. Camav düşünür ki, nə edim, necə edim. Çavuş gələndə arvadını da aparacaq. Tez qaçır qocanın yanına:

– Camav, oğlum, sən neylədin? – deyir qoca. Camav deyir:

– Olana çarə yoxdur.

– Balam, axı mən sənə dedim ki, gördüyün işi arvada demə. Mənim sözümü niyə eşitmədin? – deyə qoca soruşur.

– Vallah, bir səhvdir eləmişəm, kömək et, bir daha sənin sözündən çıxmaram.

– Çavuş sənin həyətində əlini nəyə vursa götürüb aparacaqmı?

– Hə, aparacaq.

– Şahidləriniz varmı?

– Var.

– Varsa, çavuş gələn gün arvadına bir xəlbir və buğda verib dama çıxar. Oraya nərdivan da qoy. Arvadına da tapşır ordan aşağı düşməsin. Əgər çavuşun məqsədi sənin arvadını aparmaqdırsa, onda dama çıxmaq üçün nərdivandan tutacaq. Sən də əli dəydi deyib hamının gözü qarşısında nərdivanı çavuşa verib yola salarsan.

Camav qayıdıb gəlir. Vədə çatıb, gün gələndə arvadını dama çıxarıb şahidlər ilə çavuşu gətirir. Çavuş baxır ki, qadın damdadır. Dama necə çıxım deyir. Gedib nərdivandan tutur. Camav nərdivanı ona verir.

Çavuş soruşur:

– Neynirsən?

– Nərdivanını da al, həyətimdən get, – deyir Camav. Çavuş deyir:

– Mən nərdivanı neynirəm?

– Mən bilmirəm, sən əlim nəyə dəysə, onu götürüb aparacam demişdin. Nərdivana dəydi, indi nərdivanını da götürüb get. Beləcə Camav çavuşu yola salır.

## Qazın başında bitən qoz ağacı

Biri var imiş, biri yox imiş. Uzaq eldə, şəhərdə bir xan var imiş. Bu xanın bir qızı var imiş: aya deyir sən çıxma, mən çıxım, günə deyir sən çıxma, mən çıxım. Xan bu qızını evləndirməyə dünyada bir adam tapmır. Axırda xan belə şərt qoyur: Kimsə üç yalan desə, üçündən biri yalan olsa, ona mən qızımı verərəm.

Hər yerdən igidlər gəlib xana yalan danışır, hətta olması imkansız şeyləri də danışsa da, xan “hə”, “doğrudur” deyir amma hamısının sərsəm olduğunu düşünür.

Xanın elində buzovlar otaran bir yetim oğlan var imiş. Bir gün bu yetim gəlib deyir:

– Xanım, üç yalan desəm, qızını mənə də verərsənmi? Xan:

– Verərəm – deyir.

– O zaman deyirəm, dinləyiniz. Mən bir elin ilxısına baxırdım. Yayın qızmar günləri idi. Bir gün ilxını suya salıb, sərinliyə girib yuxladım. Oyandım ki, ilxı yoxdur. Ordan burdan ilxının yerini soruşdum, ora-bura vurnuxdum, axırda dəniz sahilinə gəldim. Yayın qızmar çağında dənizin üstü tamamilə buz bağlayıb. Elə o iz ilə bir az da getdim. Getsəm, gedim, dənizin ortasında bir böyük ağac var. Lap canlı. Budağı, yarpaqları üstündə. Təəccüb qaldım ki, bu necə ağacdır, burda nə işi var. Buna baxdım. Baxsam baxım, topuğuna qədər saqqalı olan bir noqaylı bu ağacın budağı üstündə oturub mənim ilxımı da yeyib sinirməyə əziyyət çəkir. Tanrı salamı da yerə tökülüb, bütün samanlar yerə tökülüb, sadəcə kökü üstündə qalıb. Ondan ilxımı da alıb, buz körpüdən keçib gəldim, yayın qızmar günündə, xanım – deyib yetim söhbətini bitirir.

Dünya böyükdür, müxtəlif yerlər vardır, o danışdıqların yalan deyil, həqiqətdir. – deyir xan. Yetim ikinci gün ikinci yalan danışır:

– Xanım, bir gün bir yurddan çıxıb gedib baxdım. Kisəmdə bir az qoz var idi. Onları da sındırıb, yedim. Axıra qalanı əlimlə nə qədər sındırmağa çalışdımsa, sınmadı. Dişim ilə sındırmaq istədim, sınmadı.

Bir daşın üstünə qoyub başqa bir daş ilə vurdum sınmadı. Acıqlanıb yerə atdım, heç nə olmadı, daşlar parça-parça oldu. Daş olub qalasan – mən atdım bu qozu. Bu qoz getdi bir az kənarda otlayan qazlar vardı, bu qazın başına dəydi. Qazın başında yekə bir qoz ağacı bitdi. Çox baxdım, bu ağacın başında nə varsa, çıxım baxım, – dedim. Ağaca çıxdım.

– Çıxsam çıxım, ağacın başında bağlar, bağçalar, axan sular, ötən quşlar, dağlar, dənizlər. Baxıb heyran qalıb, dolananda bir xiyarlığa girdim. Susuzluğumu yatırmağa bir xiyar varmı, – deyə bir gövdəsinin ucundan tutub, yuxarı qaldırdım, xiyar yoxdur, başından çiçəyi də düşməmiş bir kal xiyar var. Kal olsa da, yanğımı yatıraram deyib, bıçaqla başını kəsdim, yeyəndə bıçağım düşüb getdi kal xiyarın içinə. Ardınca atıldım düşdüm, axtardım, axtarmaqdan halsız qalıb, bıçağı da tapmayıb, bir günəbaxanın üstündə oturub, səkkiz atlı gəlib mənə dedi:

– Cavan, burda nə edirsən?

– Bıçağım düşüb, onu axtarıram, – dedim.

– Ay evin yıxılsın, səkkiz səkkiz itmi. Heyvanı səkkiz gün at ilə axtardıq tapmadıq. Heç bıçaq da tapılarmı, – dedi atlılardan biri. Atlı belə deyəndə bıçaqdan ümidimi üzüb qayıdıb gəldim, xanım – deyib yetim söhbətinə son qoydu.

– Bu da olası şeydir, – deyir xan.

Yetim fikirləşir ki, görəsən, buna nə danışmaq lazımdır. Nə desəm, gerçəkdir deyib durur.

Yetim gecə yurdu gəzib dolaşır. Bir kişinin komasında böyük, boş bir qafa tası olduğunu görür. Gəlib xanın qapısının ağzında oturur. Xan bayıra çıxmaq istəyəndə, görür ki, qapısnın ağzında bir böyük koma var. Xan acıqlanıb, qışqıraraq deyir:

– Bu komanı kim mənim qapımın ağzına salıb? Xanın qulluqçuları gəlib, komanı yıxıb dağıdanda yetim içəridən:

– Nə edirsiniz? Öldürəcəksinizmi məni? – deyə qışqırır. Xan soruşur:

– Nə işin var bunun içində?

– Mən indi nə qədər yalan danışsam da, sən gerçəkdir deyirsən, mən də gerçəyini danışmağa gəlmişəm. Adamlarını yığ! – deyir yetim.

– Deyəsən, sənin bu gün başının kəsiləcəyi gündür, – deyib xan adamlarını yığır, – danış danışacağını, – deyir.

– Desəm, mənim atamın atasından sənin atan bu koma dolusu qızılı borca alıb. Onu vermədən ölüb gedib. Atam mənə vəsiyyət etdi ki, xandan bir koma altın borcunu geri al. Mən də indi onu almağa gəlmişəm – deyir yetim.

– Ay qəhbənin balası! Bu boyda da yalan olar? Sənin danışdıqların yalandır. Atanı da tanımıram, bu koma dolu gızıl hardaydı sənin atanda? Söylədiklərin açıq aydın yalandır. – deyir xan.

– Yalandırsa, vallah qızını mən alacağam! – deyir yetim. Adamlar da hər yerdə yetimin xanı aldatdığını danışırlar. Xan qızını da yetimə verib, kürəkən edir özünə.

Onlar yüz yaşasın, biz də onlarla bərabər!

## BAĞLAMALAR. MƏSXƏRƏLƏR. LƏTİFƏLƏR

* * *

Bir kişi ilə bir qadın ata minib gedirlərmiş. Yolda bunları görən hər kəs deyirmiş:

– Kişi də, qadın da ata miniblər. Atın tərkindəki qadın deyir:

– Bu oğlanın anası mənim anamın qaynanasıdır – mən bu oğlanın nəyiyəm, oğlan mənim nəyimdir?

– Atdakı oğlan bu qadının anasıdır. "Atam ilə mən bir ata minə bilmərəmmi, niyə belə baxırsınız?"

* * *

Bir qadın qucağında körpə uşaqla oturubmuş. Bir kişi soruşur:

– Ay qadın bu uşaq sənin nəyindir?

– Bu uşaq mənim oğlumun da oğludur, ərimin də kiçiyidir. Bəs bir kənddə iki qadın olur, ikisi də sonsuz olur. İki qadının hərəsinin yetişdirdiyi bir oğlu da olur. Qadınlar da oğlanlar da fərz olub, birisinin anasını o biri alır, o birisinin anasını bu birisi alır. Bu qadının qucağındakı uşaq da özünün oğlundan olandır. Ərinin anası doğan uşaqdır.

* * *

Loğman həkimin qadınına yolçunun söylədiyi sözlər: Azından-əsilindən, mürgü az, yatmaq çox, gündə – bir, ayda bir, ildə bir. Qadın əri gələndə yolçunun sözlərini deyir. Loğman həkim deyir: "O adam məndən dərman istəyib, mənim yanıma gəlib məndən dərman istəyəcək adam deyil. Onun ağrısı əziyyəti olmaz. Azından-əsilindən deyərkən az yediyini, az mürgüləyib, çox yatır deyərkən az yatıb, çox oyaq qaldığını, gündə bir dəfə deyərkən keyfiyyətli yaşamaq üçün işləməyi, ayda bir deyərkən başını qırxdırmağı, ildə bir dəfə dediyi zaman da qan aldırmağı nəzərdə tutduğunu" deyir.

### Bir sən qalmışdın mənə qul deməmiş!

Bir yaşlı kişi var imiş. Bu kişi qullardan imiş. Adamlar da bu kişinin adını çağırmırmış, elə qul deyə çağırırmış.

Bu qul buğda olan yerə hamballığa gedər. Susayınca su içir, iki dəsti də yolda içmək üçün götürür. Dəstinin içindəki su qul hərəkət etdikcə "qul-qul" deyə səs çıxarır. Yaşlı kişi hirslənir, dəstini yerə vurur, parça-parça edib deyir:

– Ey, bir sən qalmışdın mənə qul deməmiş. Sən deməsən, mən bilmirdim qul olduğumu?! Ömrümüz qulçuluq, nökərçiliklə keçib gedib!

**Ozokda, öküz pırapal! ...**

Şamilin əsgərləri Endireydən keçib, Bırtınanın yoxuşuna çatıb, qala tikməyə qərar verirlər. Əsgərləri Endireylilәri və başqa yurdları qala tikmək üçün onlara sursat gətirməyə məcbur edir. Bunlar da bir dəfə un və başqa şeylər yüklənib, vermək üçün Endireylilər Bırtına dağının yoxuşuna çatanda dağdan bir daş qopub gəlir, birinin öküzünü öldürür. Bir zabit öküzün üstünə gəlib:

– Ay-ay, öküz propal, öküz propal! – deyir (öküz getdi, itdi anlamındadır). İki öküzündən biri qanına qaltan olur öküz sahibi əsgərə acıqlanıb, bunları deyir:

– Nə öküz pır apal, öküz pır apal (qumuqca pis görünmək anlamını verir) salmısan? Sənin də başına qaya düşsün, görüm necə olarsan!

**Allah nə etsin aşan arabaya**?

Molla Nəsrəddinin yüklü arabası yol ilə gedirmiş. Qarışısına bir uçurum çıxır. Araba səndərləyir, yük arabadan az qalır aşsın. Vəziyyəti belə görən Molla Allaha bu cür dua edir:

– Ya, Allah, Allah! – deyir və arabanı bir təhər uçurumdan çıxarır. Arabasını çıxarıb rahatlayan Molla:

– Ya, Allah neyləsin düşən arabaya? – deyərək arabaya baxa-baxa qalır. Sözünü deyər-deməz onun arabası düz yolda aşır. Molla üzünü Allaha tutub deyir:

– Zarafatdan heç anlamırsanmış!

## Başlılının qarğışı

Bir başlılı tərkəməyə qonaq gedir. Qonağın arvadı düyü şorbası bişirir. Bunlar oturub yeyir.

Qaynar şorbayla ağzı yanan qonaq gözlərini tavana dikir.

Tərəkəməli qonaqın tavandan xoşu gəldiğini düşünür:

– Dana verib tikdirdim,– deyir.

– Ya Allah öküz verib dağıdarsan, ağzımı bişirdi şorban!– demiş başlılı.

## Motoru xarab oldu

Evdə xorlayıb yatan atasının birdən səsi kəsilir. Bunu görən Murad qaçıb anasına deyir:

– Anam, anam get bax, atamın motoru pozuldu.

## Özü danışdığı yalanlara özü inanan qoca

Bir qoca kişi var imiş. Çox yaxşı yalan danışırmış. Onun bir yaxın qohumu da varmış. Bu bir gün bu kişiyə deyir:

– Sən nə yaman çox yalan danışırsan? Ancaq xalq da sənin yalanına inanır. Mən də sənin kimi yalan danışmaq istəyirəm. Qoca deyir:

– Yox, sən bacarmazsan. Qohumu deyir:

– Bacararam!

Bir gün hər ikisi oçara[16] getdiyi zaman qohum deyir:

– Dünən ova gedəndə bir maral vurdum. Qulağına da, dırnağına da ox atdım, dəydi. Ancaq yenə də qaçıb getdi. Oçardakılar:

– Evini Allah yıxsın, qulağına da, dırnağına da ox dəyərmi heç? Yalan danışma! Buna cavab verməyə söz tapmayanda qoca deyir:

– Nə baxırsınız? Dırnağı ilə qulağını qaşıyırmış. Oçardakılar:

– Həəə, belə isə, onda dəyəcək. Qoca qohumuna deyir:

– Evin yıxılsın, yalan danışanda da elə yalan danış ki, sənə kömək edə bilim. Bu yalanına bunları inandırmaq üçün göbəyim çatladı.

---

[16] Oçar - kişilərin toplaşıb söhbət etdikləri məkan

## TAPMACALAR

Bir kiçik kağızdır, tər tökməsək almarıq
**(sertifikat)**
"Gir" də deyir, çıx da deyir
**(zəng, zil)**
Bazarda satılmır,
Tərəzidə dartılmır,
Özü baldan şirin,
Yemək də olmur
**(gözəl söz)**
Ağı tək dadı var,
Sağlıq üçün yarayır
**(dərman)**
Yar yağalda yarım ekmek
**(ay)**
Odda yanmaz, suda batmaz
İstidə kaş, soyuqda – daş
**(buz)**
Çarşaftək ağappaqdır,
Günü görsə, yox olur
**(qar)**
Səsi var, ağzı yox,
Hürür tək ayağı yox
**(yel, külək)**
Qışda yatır, yazbaşında səs salır
**(çay)**
Çapsa da, çatmır, çatsa da tutmur
**(kölgə)**
Arxasında evi var, alıb gedən kəndi var.
**(ilbiz)**
Qapaqlı – qazan deyil,
Suda yaşayan – balıq deyil
**(tısbağa)**

Yolboyunca çiy qayış

**(ilan)**

Yolda gedərkən "Oh-oh"

**(tikan)**

Teldən gəlir, budu yoxdur, işıq verir odu yoxdur

**(elektrik)**

Qarqarası – dönərək, silah tikanıdır

**(kirpi)**

Donanda da, qurd görəndə də, otlaqda mələyib durur

**(qoyun)**

Bir ağacda beş budaq

**(əl, barmaqlar)**

Otuz ikisi kəsir, biri daşıyır

**(diş, dil)**

Quyruğundan tutsa, pəyəyə girər

**(qaşıq)**

Qursağından yeyir, arxasından qusur

**(rəndə)**

Yemək versən, yaşayar, su versən ölər

**(od)**

Yayda boş qalır, qışda işləyir

**(fırın)**

Suda doğular, suda da ölər

**(duz)**

Bir şey bilmirəm, ömrümün hər saatı işləyib durur

**(qələm)**

Ağ yerdə qara toxum, saçanda edir qulluq

**(yazı)**

Qaynaq deyil bişirə, tikan deyil şişirə

**(gicitkan)**

Yaxından baxıram, özüm ağlayıram

**(soğan)**

Alt – süpürgə
Qabaq yaba,
Südlü bulaq

Semiz, dönərək.

**(sığır, inək)**

Qapıb alır,
Kürəyinə vurur,
Üçü bağlanır,
İkisi sallanır.

**(At üstünə salınan yerdə
üç tapqırı, iki üzəngi)**

Həyət bacadan çıxmaz, sür –sümük yeyər,
Pişiklə yola getməz, geçib gedir həyatı

**(it)**

İsti evdə, yumşaq yerdə yatar,
Əl qolunu uzadar,
Seçilməz onun rəngi
Nə olduğunu bildinizmi?

**(pişik)**

Samanlıqda may gürzə.

**(siçan)**

Çox səbrli heyvandır,
Durmadan donqarlaşar,
Ac qalanda kükrəyər,
Gedər-gələr tüpürər.

**(dəvə)**

Gözləri qıyıq,
qarnı yarıq,
uşaq qaçsa qurtular,
böyük qaçsa tutular.

**(qoyun)**

Ağaclarda yaşayar,
Çırtlıv qoz yeyər,
Uşaq görsə qaçar,
Budaqlardan uçar.

**(sincab)**

Ovlaqda axtarar, heyvanın dərisini soyar.

**(qurd)**

Dağdan gəlir, dağ ayğırı,
Quyruğu uzun, özü alçaq

**(eşşək)**

Baxsan, kürkə oxşayır,
Tikanlı don geyinər,
Özü çəməlikdə yaşayır –
Adını deməyə kim başlayır??

**(kirpi)**

Üstü – gil, dibi – daş,
Ortasında – ləzzətli aş

**(qurbağa)**

Otarda oturur,
Ornun ağdan doldurur,
Gecələr görmür – kordur,
Balasını, tutsan dimdikləyər

**(toyuq)**

Suda çimir,
Su olmasa, çıxır.

**(qaz)**

Quyruğu – oraq,
Kəkili – daraq.

**(xoruz)**

Geyinər ala paltar,
Salar başına daraq,
Hər gün səhər səsinə,
Oyanar bütün xalq.

**(xoruz)**

"Bax-bax" – deyib oxuyar
Yırğanalaraq gəzər çəmənlikdə.

**(ördək)**

Qızıl ayaqlı, uzun boyunlu,
Damarlarından haba
Qorxudub, ardınca gələr.
Fit çalıb, hörmət etsən,

Oynayıb ləzzət alar,
Hörmət etməsən əgər,
Burnunu sallayıb durar.

**(hind toyuğu)**

Üst tərəfdə gürzələr.

**(sərçə)**

Ağac başında daş yuva.

**(quş yuvası)**

Qazandan qara,
Qardan ağ.
Mamuktək ağ – mamuk deyil,
Qartək ağ – təkcə qar deyil,
Südtək ağ – süd də deyil,
Bortək ağ – bor da deyil,
Suda əriyir, duz da deyil,
Şirin gələr dilinizə,
Nədir, uşaqlar, bildinizmi?

**(şəkər)**

Ağzı bitişik, ağ fallıq.

**(yumurta)**

Canlıdan cansız doğular,
Cansızdan canlı doğular.

**(yumurta)**

## ATALAR SÖZÜ VA AYTIVLAR //
## ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR

Seni Vatanıng va bavung – seni Cannatıng va Bağdatıng.
*Sənin vətənin və bağın – sənin cənnətin və Bağdadın.*

Vatandaşım – kardaşım, kıyınlı gün gelgende meni ullu sırdaşım.
*Vətəndaşım, qardaşım, çətin gün gələndə, mənim böyük sirdaşım.*

Yat elde sultan bolğunça, özünü elinde ultan bolğan kolay.
*Yad eldə sultan olunca, öz elimdə dərisatan olmaq asandır.*

Atangnı ulanı bolma – elingni ulanı bol.
*Atanın övladı olma, elin övladı ol.*

El namusun kütmegen el arada abur-sıyğa yetmegen.
*El namusunu çəkməyən el abır-hörmətə çatmaz.*

Ayırılğan el azar, kobulğan el ozar.
*Ayrılan el azar, ayıran el qabağa gedər.*

Akçağa satılğan adam vatanın satar.
*Pula satılan adam, vətənin satar.*

Xalknı sözü igitni kılıçından güçlü.
*Xalqın sözü igidin qılıncından güclüdür.*

Yat elni yazbaşı da erşidir.
*Yad elin yazbaşı da çirkindir.*

Uyasın da çıçkan da arslandır.
*Yuvasında siçan da aslandır.*

Ata - anağa sıyetmegen sıydan tüşer
*Ata-anasına hörmət etməyən, hörmətdən düşər*

Adamnı adam etegen anadır.
*Adamı adam edən anadır.*

Atasu ölgen - yartı yetim, anası ölgen - gerti yetim.
*Atası ölən yarı yetim, anası ölən həqiqi yetim.*

Ata arka tayavdur.
*Ata arxa dayaqdır.*

Abay urğan avurtmas.
*Ana vuran yer ağrıtmaz.*

Yaşsız ocak - paraxat kabur.
*Uşaqsız ev qəbir kimidir.*

Yaman avlet artık barmak yimik: gesseng - avurta, gesmeseng kayğırta
*Yaman övlad artıq barmaq kimidir: kəssən ağrıdar, kəsməsən qayğısı artar.*

"Ulan" dese uy tola.
*"Oğlan" dedikdə ev dolur.*

Atanı osallığı - ulanğa ilık.
*Atanın zəifliyi – oğulda bilinər.*

Karğa balasi, "Ap - ağım!" kirpi balası, "yımşağım!"
*Qarğa balasına "ağappağım", kirpi balasına "yupyumşağım"*

Ata kardaş mal kardaş, ana kardaş can kardaş.
*Ata qardaş mal qardaş, ana qardaş can qardaş.*

Kan bulan girgen can bulan çığar.
*Qanla girən canla çıxar.*

Bolur adam on yaşında baş bolur, bolmas adam kırk yaşında yaş bolur.

*Olan adam on yaşında da bilən olar, olmayan adam qırx yaşında da uşaq qalır.*

Erni er etegen de, yer etegen de katındır.
*Ərini ər edən də, yerlə bir edən də qadındır.*

Şerbetni tökme, katınnı sökme.
*Şərbətini tökmə, qadınını danlama.*

Katınğa inanmağan katınsız kalır.
*Qadına inanmayan qadınsız qalar.*

Özüng kim ekenigni bilme süye busang, kız geleş.
*Özünün kim olduğunu bilmək üçün qız nişanla.*

Anası maktağannı alma xonşuları maktağannı koyma.
*Anası tərifləyəni alma, qonşuları tərifləyəni əldən vermə.*

Hakıllı uylengençe, haygevnü eki yaşı da bolur.
*Ağıllı evlənincə, övliyanın iki uşağı olar.*

Ersiz katın yugensiz.
*Ərsiz qadın yüyənsizdir.*

Gəlinni yahşı sıylasa, yügürük bolur.
*Gəlinə yaxşı hörmət etsən, yüyrək olar.*

Konak yıkğan uy tura, katın yıkğan uy turmas.
*Qonaq yıxan ev durar, qadın yıxan ev durmaz.*

Yaman arba yolbuzar, yaman katın uy buzar.
*Pis araba yolu, pis qadın yuvanı dağıdar.*

Katını ölmegen kayğı görmegen.
*Qadını ölməyən, qayğı görməmiş.*

Kırnı komuzu, uynü donguzu.
*Çəmənin komuzu, evin donuzu.*

Temirçini kolları altun, xalq yırçını sözleri altun .
*Dəmirçinin qolları, aşığın sözləri altındır.*

Terek yemişi bulan, adam işi bulan bahalana.
*Ağac barı ilə, adam işi ilə qiymətləndirilir.*

İne - giççi, işləri - ullu.
*İynə kiçik - işləri böyük.*

İşden yalkma - işsizlikden yalk.
*İşdən qorxma, işsizlikdən qorx.*

Harakatğa - bereket.
*Hərəkətə bərəkət.*

Zahmatsız rahatlık bolmay.
*Zəhmətsiz rahatlıq olmur.*

Urüseng sayak, ahırda tiyer tayak.
*Boş gəzsən, sonda dayaq yeyərsən.*

İşleygende erinme, işde çolak görünme.
*İşləməyə ərinmə, işdə çolaq görünmə.*

Yaşda oram kıdırsang, ulluda aş kıdırarsan.
*Cavanlıqda boş gəzsən, qocalanda yemək axtararsan.*

Hazir aşğa, "Bismillah."
*Hazır aşa "Bismillah".*

Boş turğannı boyu ösmes.
*Boş duranın boyu uzanmaz.*

Kazançı kaynamasa, kazan kaynamas
*Qazançı qaynamasa, qazan qaynamaz.*

Arığan atğa kamuçu avur.
*Yorulan ata qamçı ağırdır.*

Hünersiz adam gişige külər.
*Hünərsiz adam başqalarına gülər.*

Sıyır savup bolmayğanğa abzar kıyşık
*İnək sağılmayanda həyət əyridir.*

Ağaç gesseng, uzun ges - kısğa busa, buzarsan;
Temir gesseng, kısğa ges - kısğa busa, sozarsan.
*Ağac kəssən, uzun kəs, qısa olsa, xarab edərsən;*
*dəmir kəssən qısa kəs, qısa olsa, uzadarsan*

Kıyınnı ömürü kısğa.
*Əyrinin ömrü qısadır.*

İlmu terek biyikdir, başına çıkğan igitdir.
*Elm ağacı böyükdür, başına çıxan igiddir.*

Ösmeygen bilim,gün sayın kemiy.
*Böyüməyən elm, günbəgün azalır.*
Cahil busang, canıngnı kıynarsan;
âlim busang, başıngnı sıylarsan.
*Cahilsənsə, canına qıyarsan,*
*alimsənsə, başını hörmətli edərsən.*

Bitmeygen hazna süyseng, ilmu al.
*Bitməyən xəzinə sevsən, elm al.*

Bilimi bar başğa balah gelmes.
*Elmi olanın başına bəla gəlməz.*

Başda ilmu kökde gün yimik.
*Başdakı elm, göydəki gün kimidir.*

Bilgen birni aytar, bilmegen yuznü aytar.
*Bilən birini deyər, bilməyən yüzünü deyər.*

Avam anglamas, haysız tınglamas.
*Avam anlamaz, axmaq dinləməz.*

Alim bolmakdan adam bolmak kıyın.
*Alim olmaqdan adam olmaq çətindir.*

Kalam kılıçdan itti.
*Qələm qılıncdan itıdir.*

Sav hakıl yengmeygen balah bolmas.
*Sağlam ağıl yetməyən bəla olmaz*

Başda hakılbolmasa, eki ayakğa güç bola.
*Başda ağıl olmadıqda iki ayağa güc olar.*

Haygev yuvukdan hakıllı duşman kolay.
*Ağılsız dostdan, ağıllı düşmən yaxşıdır.*

Hakıllı - tili bulan, haygev – kolu bulan.
*Ağıllı dili ilə, ağılsız qolu ilə.*

Haygev aytdı – ahmak inandı.
*Ağılsız dedi, axmaq inandı.*

Bir taşga üç keren sürünegen – haygev.
*Bir daşa üç dəfə sürünən – ağılsız.*

Kursağı bek össe, baş asta öse.
*Qursağı böyük olanın, başı yavaş böyüyür.*

Hakıl yaşda tügül – başda.
*Ağıl yaşda deyil – başdadır.*

Eki ayaz bir tarak uçun yabuşgan.
*İki keçəl bir daraq üçün dayanıb.*

El – haznası esgi söz, er çırağı – eki göz.
*El – xəzinəsi əski söz, ər – çırağı iki göz.*

Tilde süyek yok, tek süyekni sındıra.
*Dildə sümük yox, tək sümüyü də sındırır.*

Til – ürəkni tilmaçı .
*Dil – ürəyin dilmancıdır.*

Aytğan söz atğan – ok
*Deyilən söz, atılan ox kimidir.*

Adamlık ne? – anglamak, az soylep, köp tınglamak.
*Adamlıq nədir? – anlamaq, az danışıb, çox dinləmək.*

Köp bilə busang, az soyle.
*Çox bilsən də, az danış.*

Gördüngmü – inan, eşitdingmi – tergete.
*Gördünmü – inan, eşitdinmi – şübhələn.*

Aytar sözung gümüş busa,aytmay koysang, altundur .
*Deyilən söz gümüşdüsə, deməsən qızıldır.*

Aytılğan söznü artından yıl çapsang da, yetmessen.
*Deyilən sözün arxasından bir il də çapsan çatmazsan.*

Gişini bahasi sözünden biliner.
*Kişinin səviyyəsi sözündən bilinər.*

Köp söznü azı yahşı az söznü özü yahşı.
*Çox sözün azı yaxşı, az sözün özü yaxşı.*

Kolungda malıng yok busa, avzungda balıng yokmu?
*Əlində pulun yoxsa, ağzında balın yoxmu?*

Kapıyalı sözge karıv yok.
*Qafiyəli sözə düzəliş yox.*

Ornu yok yatğanda, opurağı yok turğanda küstüner.
*Yeri yox yatanda, paltarı yox duranda.*

Yel bolmasa suvuk yok, mal bolmasa, yuvuk yok.
*Yel olmasa soyuq yox, mal olmasa yaxın yox.*

Yarlını ölgeni yaz biliner, baynı ölgeni tez biliner
*Kaslb ölər yaz bilinər, bəy ölər tez bilinər*

Köp de yaman, yok da yaman.
*Çox da yaman, yox da yaman.*

Tilənçi urudan korkmas.
*Dilənci oğrudan qorxmaz.*

Birevlege qarappikir et, birevlege qarap şükür et.
*Birlərə baxıb düşün, birlərə baxıb şükr elə.*

Baynı yaşı tuzğa, yarlını yaşı şekerge çaba.
*Bəyin uşağı duza, kasıbın uşağı şəkərə qaçar.*

At minmegen at minse, çaba, çaba öltürer,
ton giymegen ton giyse, kağa, kağa bitdirer.
*At minməyən at minsə, çapa-çapa öldürər,*
*don geyməyən don geysə, vura – vura bitirir.*

Az – bitgençe, köp – toyğunça.
*Az – bitincə, çox – doyunca.*

Sen biy, men - biy, atğa biçen kim salır?
*Sən bəy, mən bəy, ata otu kim salır?*

Barlıkga tarlık yok.
*Varlığa darlıq yoxdur.*

Yarlı ahlünü yaş basar.
*Kasıb ailəni uşaq basar.*

Yoknu gerek tapdırar.
*Yoxu lazım tapdırar.*

Karımdan kardaş bolmas.
*Cimridən qardaş olmaz.*

İna bermegenden irk umutlama.
*İynə verməyəndən qoyun gözləmə.*

Dünyada maldan toymağan topurak tüpde toyar.
*Dünya malından doymayan, torpaq altında doyar.*

Aç gelgenni toydurğan, geç gelgenni kondurğan.
*Ac gələni doyurar, gec gələni yerləşdirər.*

Köpge umut etip, azdan da quru kalğan.
*Çox istəyən, azdan da qalar.*

Salğan çıgar kazandan.
*Salan çıxar qazandan.*
Bir koydan eki teri çıkmas
*Bir qoyundan iki dəri çıxmaz.*

Barda bayram yokda – hayran.
*Olanda bayram, olmayanda hüsran.*

Sakla salamnı – gelir zamanı.
*Saxla samanı, gələr zamanı.*

Kardaşıngnı tanımağa süyseng, ondan satıp mal al.
*Qardaşını tanımaq istəsən, ondan alver et.*

* * *

Kap avzu // *Qab ağzı*

Aşlav goz //*Yeyilən qoz.*

Yarka burnu //*Donqarı burnu.*

Deli taş cıyar // *Dəli daş yığar.*

Kıçitğan urluk // *Gicitkan nəsli.*

Kınğır gulentgi //*Əyri kölgə.*

Az-az tatli-tatli //*Az-az, şirin-şirin.*

Eşşək işlar at aşar //*Eşşək işlər at yeyər.*

Ur dese uyun yiğa //*Vur desə, evini yıxar.*

Belbet çişğan baş // *Bel üzlü siçan baş.*

Giçi başli ullu işli // *Kiçik başlı, böyük işli.*

Bir kıyıni bir tinçi // *Bir çətini bir rahatı.*

İşlamagan aşamas // *İşləməyən dişləməz.*

Eki betli guldaray // *İki üzlü güldaray.*

Barda yilar yokda //*Var da ağlayan yox da.*

Kızı barnı nazı bar // *Qızı varın, nazı var.*

Atga minip at izlay // *Ata minib at izləyir.*

Sakal uzatıp koydu // *Uzadıb saqqal qoydu.*

İt itga it kuyruğuna // *İt itə, it quyruğuna.*

Kazangani kazakga // *Qazananı qazağa.*

Talihima taş yavup // *Taleyimə daş yağıb.*

İxtiyarim belimda // *İxtiyarım belimdə.*

Balık başindan çirir // *Balıq başından çürüyür.*

Uvak uvak soğanlar // *Kiçik kiçik soğanlar.*

Adam surat kudurat // *Adam sifət qüdurət.*

Öle duşman ota yav // *Elə düşmən, ota yağı.*

Bolmas işga inanma // *Olmaz işə inanma.*

Saklağanni sakalina // *Saxlayanın, saqqalına.*

Tervense terek yığa // *Tərpənsə ağac yıxar.*

Eşşekge yuk yaraşsin // *Eşşəyə yük yaraşsın.*

Tuşdansongu naqara // *Toydan sonra nağara.*

İt aş bergenge xavar // *İt yemək vərəni dişlər.*

Esgi tondan er çigıp // *Əski dondan ər çıxıb.*

Yel gəltirib suv elter // *Yel gətirib, su aparır.*

Talihsizga tar dünya // *Bəxtsizə dar dünya.*

Başina kolu yetişgan // *Başına qolu çatır.*

Yaşmusan kağmusan // *Uşaqmısan, dəlimisən.*

Halivaga tuz salagan // *Halvaya duz salan.*

Bir yığılğan bir turar // *Bir yıxılan bir durar.*

Gok dese gongu tarta // *Göy desə, gönü dartar.*

İt haplar kervan geter // *İt hürər karvan keçər.*

Bolgan işga bolat bol // *Olan işə polad ol.*

Katun aytar er kaytar // *Qadın deyər, ər eşidər.*

Ölgen eki kollap aşar // *Ölən iki əlli yeyər.*

Karğa balasi appağım //*Qarğaya balası ağappaq.*

Çolak kıznı yivi uzun // *Çolaq qızın sapı uzun.*

Beter getsede bet kala // *Pis getsə də, üz qalar.*

Namart nasibina tever // *Namərd nəsibinə təpər.*

Salğan çiğar kazandan // *Qazana nə töksən o çıxar.*

Donguznu orta suyegi // *Donuzun orta sümüyü.*

Hayalsizga haz dunya // *Xəyalsıza həzz dünya.*

Ana yokga dunya yok // *Anası olmayana dünya yox.*

Yoraganinga yolukgur // *Düşünənin olsun.*

Tayavsuz gişi ayavsuz // *Dəyənəksiz insan ayaqsızdır.*

Quru barib boş gəldim // *Quru gedib boş gəldim.*

Yaş bahana avay çamp // *Uşaq bəhanə nənəyə yemək*

Suv giççiga, sıy ulluğa // *Su kiçiyin, hörmət böyüyün.*

Bali bar bal aşamaymu? // *Balı olan bal yemirmi?*

Avzung tiling kurtlangir // *Ağzın dilin qurd bağlasın.*

Kaptaldan goylek aldin // *Kaftandan köynək yaxın.*

Kim söylense kim çiğar // *Kimdən danışsan o çıxar.*

Ağu çaynap uv yutdum // *Ağı çeynəyib zəhər uddum.*

Kan tamğan taşnı yalay // *Qan damar daş yalar.*

Yalinsiz tütün çiğarmu? // *Alovsuz tüstü olarmı?*

Ornusuznu ornu bolmas // *Yersizin yeri olmaz.*

Er gotergenni el geterir // *Ər tutanı el tutar.*

Tatli til talihga tup salir // *Şirin dil taleyə üstün gələr.*

Yangız ulan – yarli ulan // *Yalnız oğlan kasıb oğlan.*

Çop çikgan çopura aşar // *Çöp çıxan çöpü yeyər.*

Aş tapganda bet tapmay // *Yemək tapanda üz tapmaz.*

Kazanni halin çolpu bila // *Qazanın halından çömçə anlar.*

Yaşama kıyin turma guç // *Yaşamağa əziyyət durmağa daha güc..*

Geç gelip tez uyrengen // *Gec gəlib tez öyrənən.*

Artinga bakmay soyleme // *Arxana baxmadan danışma.*

Yaman katun torga çavar // *Pis qadın başa qaçar.*

Balani balasi baldan tatli // *Balanın balası baldan şirindir.*

Tişina karamay işina kara // *Görünüşünə baxma, işinə bax.*

Kop bila busang az söyle // *Çox da bilsən, az danış.*

Kıyin bolmay tınç bolmas // *Zəhmət olmasa dinc olmaz.*

Aşına qarama kaşina qara //*Yeməyinə baxma, qaşına bax.*

Ullunu buzup giççi etgen // *Böyüyü pozub kiçildir.*

Yaşğa buyur artdan yugur // *Kiçiyi buyur, ardınca yüyür.*

Uyda komuz kırda donguz // *Evdə komuz, çəmənlikdə donuz.*

Sensenekge men kurekge // *Sən yabayla, mən kürəklə.*

Aldi daray artı huya haray // *Üstü təzək, altı bəzək.*

Bir ongmagan heç ongmas // *Bir dəfə düz olmayan, heç vaxt olmaz.*

Bir bolsada yarar pir bolsa // *Bir olsa da yarayar, pir olursa.*

Bir içgan bulakga taş atma // *Bir içdiyin bulağa daş atma.*

Ölgen oguzga otgere bıçak // *Ölmüş öküzə korş biçaq.*

Anam, anam it cibin yutdu // *Ana, ana, it milçək uddu.*

Yanganyerden çiğar yalıni // *Yanan yerdən alovu çıxar.*

Ornusuznu işi oçerde bolur // *Yalançının işi oçarda olar.*

Dəli biyimas, biyısa tinmas // *Dəli oynamaz, oynasa da, dinməz.*

Kayğı Ahmatğa kayğı artıp // *Dərdli Əhmədin dərdi artıb.*

Taşga surunma başga surun // *Daşa sürünmə, başa sürün.*

Ölgen oguznu suvugan başi // *Ölən öküzün soyuq başı.*

İlingan kulağima kurt yimik // *Asılıb qulağıma qurd kimi.*

Akıllını aldinda at surunmas // *Ağıllının qarışısında at sürünməz.*

Avlıya baltasiz ağaçga barır // *Dəli baltasız meşəyə gedir.*

Ata yurt ay tutulsada, yarıklı // *Ata yurdu ay tutulsa da işıldar.*

Oh tilim tilim-tilim bolgur // *Oh dilim dilim-dilim olsun.*

Arvasina mingan yırın yırlar// *Arabasına minən yırını oxuyar.*

Borudan kurkgan koy etmes // *Qurddan qorxan qoyun saxlamaz.*

El bulan gelgen toy bayram // *Elnən gələn toy bayramdır.*

Yılan gorgen yipdan kurkup // *İlan görən kəndirdən qorxub.*

Erge inanma suvga tayanma // *Ərə inanma, suya güvənmə.*

Kurkuvnu savusu on eki sah // Q*orxunun gücü on iki sahı.*

Kayır katun qarani da ak eter // *Bacarıqlı qadın qaranı da ağ edər.*

Oğuz elup ortaklikdan ayrılıp //*Oğuz ölüb ortaqlıq ayrılıb.*

Çaltik çaçib buday ormassan//*Çəltik əkib buğda biçəmməzsən.*

Tatuvsuz til talaysizlikni başi//*Dadsız dil bədbəxliyin başıdır.*

Bolmas kişi ullu tayak goterir // *Olmaz insan böyük dayaq götürür.*

Urunu – antı, kançıknı – kantı // *Oğrunun – andı, qancığın – qandı.*

Bayğa inanma suvğa tayanma // *Bəyə inanma, suya söykənmə.*

Aşatgan içirgan yardan tuşsun // *Yedirdiyin içirdiyin dağdan düşsün.*

Adamni yere baxanindan kurk // *Adamın yerə baxanından qorx.*

Yurugan yol alir, toktagan yal // *Yeriyən yol alar, dayanan yal alar.*

Kırk kişi da bir kıngır kişi da bir // *Qırx nəfər də bir, əyri kişi də bir.*

Yalğançını şahati yaninda bola // *Yalançının şahidi yanında olar.*

Yaş bar uyda yarlık olur // *Uşaq olan evdə kasıblıq yox.*

Geçe yurugan, gunnuz suyunar // *Gecə yeriyən, gündüz sevinər.*

Soyleme bilmaygan urup kaçar // *Söyləyə bilməyən vurub qaçar.*

Korkaçni amuru uzaq bola dey // *Qorxağın ömrü uzaq olar deyiblər.*

Alğasağan suv dengizga yetmes // *Tələsən su dənizə çatmaz.*

Kız da bir yarilmagan xarvuzda // *Qız da bir, kəsilməyən qarpız da.*

Altun kapu aygız kapuga tarığar // *Altın qapı taxta qapıdan asılıdır.*

Manasız kulku edepsizlikni başi // *Mənasız gülüş ədəbsizliyin əlamətidir.*

Atangni yurtuna alabata ornaşsın//*Atanın yurdunda otlar bitsin.*

Sozlu opbaşda bereket toktamas// *Sözlü yerdə bərəkət olmaz.*

Aylana aylana ayli bolğan(urçuk)// *Gəzə gəzə hamilə oldu.*

Uyu ulku bolsa, başi kulku bolur// *Evi açıq olsa, başı gülünc olur.*

Eki katun oltursa uçunçusu arada//
*İki qadın otursa, üçüncüsü aradadır.*

Uyda kıyişmagan kırda kıyişmas//
*Evdə əyilməyən, çöldə əyilməz.*

Meni gormegenleni gozləri çiksin//
*Məni görməyənlərin gözü çıxsın.*

Kağni ya soyletip bak ya yurutup//
*Gicbəsəri ya söylədib bax, ya yeridib.*

Et gormegenge eşşək eti de hurma//
*Ət görməyənə eşşək əti də xurmadır.*

İt kuyrugun kesgenge amirak bola//
*İt quyruğunu kəsənin əmrinə amadədir.*

Ölme eşegim yazda buçen aşarsan//
*Ölmə eşşəyim, yazda ot yeyərsən.*

Uy işlagan balta eşik artda bolur//
*Evdə işləyən balta əl altında olur.*

Talihsiz gişiga kamuş tuvek atilir//
*Bəxtsiz insana qamış silahdan atəş açılır.*

Talihsiz ulandan talayli kız kolay//
*Bəxtsiz oğlandan, xoşbəxt qız yaxşıdır.*

Kişiga ğüyü kazsa ozu tuşar içina//
*Özgəyə quyu qazan özü düşər içinə.*

Rahmusuz giçini atar ullunu satar//
*Rəhmsiz kiçiyi atar, böyüyü satar.*

Namussuz kişi akçağa atasin satar//
*Namussuz insan axçaya atasını satar.*

Sırın yaşirgan adam sıydan tuşmas//
*Sirrini qoruyan adam hörmətdən düşməz.*

Ulunu aytganin etmegen ulugaymas//
*Böyüyün dediyini etməyən insan böyüyəmməz.*

Yaman atni yal kuyruğu uzun bola//
*Yaman atın yal quyruğu uzun olar.*

Borçluğa ne amal – berib kutulmak//
*Borclunun nə vecinə – verib qurtulmaq.*

Alma terekni tuvuna armut tuşmas//
*Alma ağacının dibinə armud düşməz.*

Gongusuz katunnu gunu yarli bolur//
*Könülsüz qadının günü kasıblıqla keçər.*

Kıyin bolsa kiyiz kazık yerge girar//
*Zəhmət çəkilsə, küt paya da yerə girər.*

Anasi kap goterse kızi çaşal goterir//
*Anası çuval götürsə qızı torba götürər.*

Eri tergevlu bolsa katunu uru bolur//
*Əri diqqətcil olsa, arvadı oğru olar.*

Sen tulku busang men kuyruguman//
*Sən tülküsənsə, mən quyruğunam.*

Bilmasdan kurkma bolmasdan kurk//
*Bilməzdən qorxma, olmazdan qorx.*

Kaydasan qara cıbin çaki gorunmay!//
*Hardasan qara çibin kimi görünməz!*

Yalğançıni gunu yamanyerde batar//
*Yalançının günü yaman yerdə batar.*

Katunu yahşıni gongundan bilarsan//
*Qadının yaxşısını könlündən bilərsən.*

İtdan kutulma qarap boruğa tutulma//
*İtdən qurtulmaq istəyib qurda yaxalanma.*

Sen dep tursang sağa deygen bolmas//
*Sən deyib dursan sənə dəyib toxunan olmaz.*

Ana yurek balada bala yurek havada//
*Ananın ürəyi balada, balanın ürəyi havadadır.*

Dosnu kıyinli gun gelgende tanirsan//
*Dostu dar gündə tanıyarsan.*

Oguz yardan tuşa dep eşşək akıra edi//
*Öküz qayadan düşər deyə eşşək bağırırdı.*

Bolgansong baysingandan payda yox//
*Olduqdan sonra təəssüflənməyin faydası yoxdur.*

Borçlu bolgunça boranda kalsa kolay//
*Borclu olunca boranda qalmaq yaxşıdır.*

Çor mangay ong aytganni ters anglay//
*İnadkar ona deyiləni tərs anlayar.*

Un bolsa haliva eter edim yav da yok//
*Un olsaydı, halva bişirərdim, yağ da yoxdur.*

Haramni aşasang halalingni kosarsan//
*Haram yesən, halalı qusarsan.*

Gelirsini gevi yok gelip kalsa evi yok//
*Gələsinin yeri yox, gəlib qalsa çarəsi yox.*

Çir tuplarina çivara yilanlar kozlasin//
*Hasar diblərində zəhərli ilanlar balalasın.*

Ering eki golekli bolsa evin kim tavar//
*Ərin iki köynəkli olsa, onunla kim bacarır.*

Kop gelegen konakga eki şayi borç et//
*Çox gələn qonağa iki şeyi borc et.*

Ersiz katun ozu uyda bolur etegi elde//
*Ərsiz qadının özü evdə olur, ətəyi eldə.*

Elni nas etgen elliy çapsada tazalanmas//
*Elini pisləyən əlli ağartsan da təzələnməz.*

Yamanlikni suvunu qurusada layi kalir//
*Yamanlığın suyu qurusa da, layı qalır.*

Yaş beşikdan turgunça beş turlü bola//
*Uşaq beşikdən durunca beş cür olar.*

Aşaganim ağudu oltugan yerim suvdu//
*Yediyim ağıdır, oturduğum yerim sudu.*

Nasibingni kozdan gorme kızdan gor//
*Nəsibini qozdan görmə, qızdan gör.*

Maldan toymağan toprak tupda toyar//
*Maldan doymayan torpaq altında doyar.*

Ma deygen dosu, ber deygen duşmani//
*Ma deyən dostu, ver deyən düşməni.*

Uyalmaygan adam uynu kırni ayirmas//
*Utanmayan adam evin bayırını anlamaz.*

Yaman bolğunça yabalak bolsa kolay//
*Yaman olunca bayquş olmaq yaxşıdır.*

İnek savma bilmayganga abzar kıngir//
*İnək sağmaq bilməyənə həyət əyridir.*

Namussuz ozu ölsede etgen işi ölmes//
*Namussuz özü ölsə də, etdiyi işi ölməz.*

Kıyinga çıdağan tınçni gormey kalmas//
*Zəhmət çəkən dinclik nədir bilməz.*

Yamanni beti yav surtsada yalı bolmas//
*Yamanın üzü yağ sürsə də, yaxşı olmaz.*

Adam bolağan adam cucegindan bilina//
*Adam olan adam cücüyündən bilinər.*

Kakina baxma onu giygan katunga bax//
*Görünüşünə baxma, onu geyən qadına bax.*

Kızım sağa aytaman, gəlınim sən angla//
*Qızım sənə deyirəm, gəlinim sən anla.*

Katun almasa çarasi avuldan aylanamu//
*Arvad almasa təknəsi məhəllədən dönərmi.*

Terek boyu yapurak adam boyu opurak//
*Ağac boyu yarpaq, adam boyu paltar.*

Oguzuna guçu yetmegen arişin pakalar//
*Öküzünə gücü çatmayan, arışını vurar.*

Yangurnu artindan yamuçu alıp çapmas//
*Yağışın arxasından keçəni alıb çapmazlar.*

Ozunu or etegende yer etegende ozudu//
*Xəndək qazan da özü yer edən də özüdür.*

Kıznı tanıma suye busang anasina baк//
*Qızını tanımaq istəyirsənsə anasına bax.*

Atani avzu puç bolsa ulanina guç bolur//
*Atanın ağzı puç olsa, oğluna güc olur.*

Er namusun gutganni el goterir avurun//
*Ər namusu güdənin el aparır dərdini.*

Yamannı gormey yahşını kadirin bilmay//
*Yaman görməyən, yaxşının qədrini bilmir.*

Alğasagan surunur savur etgen suyunur//
*Tələsən sürünür, iş görən sevinir.*

El araga girmagan el namusun bilmagan//
*El arasına girməyən, el namusunu bilməyən.*

Gezevuç katun uyuna yetegende alğasay//
*Gəzəyən qadın evinə gələndə tələsər.*

Xonşu xonşuga bağar kavirin otga yağar//
*Qonşu qonşuya baxar, qəbrini oda yaxar.*

Bilmasni başi avrutmas bolmasni bulegi//
*Bilməyənin başı ağrımaz, olmayanın biləyi.*

Aç bolsang azav aşa ata yurtungda yaşa//
*Ac olsan, qaratikan ye, ata yurdunda yaşa.*

Oguz bolmaygan tana gozlərindan bilina//
*Öküz olmayacaq dana gözlərindən bilinir.*

Süygenni gozü kaşi süymegenni goz yaşı//
*Sevənin gözü qaşı, sevməyənin göz yaşı.*

Ustung aruv bolğunça icing taza bolsun//
*Üstün gözəl olunca, için təzə olsun.*

Gunnuznu duv yiberib, geçeni satıb alıb//
*Gündüzünü boş buraxıb, gecəni satıb alıb.*

Elde yaman kim bolsa emgek onu başina//
*Eldə yaman kim olsa, əmgək onun başına.*

Kapu yapgan akıllidan aradagi kağı kolay//
*Qapı bağlayan ağıllıdan aradakı gicbəsər yaxşıdır.*

Yarliliğın bilmasa yaziği gəlmes kuyuna//
*Kasıblığını bilməsə, yazığı gəlməz özünə.*

Erni beti aylanginça yerni beti aylansin//
*Ərin üzü fırlanınca, yerin üzü fırlansın.*

At tuyağın tayı basar anasindan kızı ozar//
*At dırnağını tay basar, anasından qızı ötər.*

Ozu avurun saklasa kişilar salmas sıydan//
*Özü abrını qorusa, heç kimi hörmətdən salmaz.*

Bergen gozu kaşi bermegen ozenni daşi//
*Verən gözü qaşı, verməyən çay daşı.*

Atasıni tor yağından erini eşik arti kolay//
*Atasının isti yanından ərinin qapı arxası yaxşıdır.*

Atingni erşi etginça aydan atilsang kolay//
*Adını düşürüncə aydan atılsan yaxşıdır.*

Torğaylaring tuzelse tuzdan kala tizarsan//
*Uşaqların düzəlsə, duzdan qala düzərsən.*

Namussuz dosdan namuslu duşman kolay//
*Namussuz dostdan namuslu düşmən yaxşıdır.*

Kişiga goz tikganni bereket girmas uyuna//
*Birinə göz dikənin bərəkət gəlməz evinə.*

Bir mişikni kuyruğu savlay kutanni buzup//
*Bir pişiyin quyruğu bütün sürünü pozub.*

Yamanlik salğan yara yapurakday yangırır//
*Pislik salan yara, yarpaqtək təzələnir.*

Eçki bergen koy ala heç bermegen ne ala?//
*Keçi verən qoyun alar, heç verməyən nə alar?*

Sensenekge uzansang sağa kurek goterir//
*Sən yabaya əl atsan, sənə kürək götürər.*

Yatlağa yalbarginça yatıb yaning hamarla//
*Yadlara yalvarınca yatıb yanını hamarla.*

Tav tavğa yolukmas adam adamga yoluğar//
*Dağ dağa yaxınlaşmaz, adam adama yaxınlaşar.*

Ulav kalsin yarlilik yayda boyav kazdirgan//
*Andıra qalsın kasıblıq, yayda boya qazdırır.*

Barsin gəlsin bu kişi heç bitmasin bunu işi//
*Qoy gəlsin bu kişi, heç bitməsin bunun işi.*

Yatdan bolğan kardaş yamanyerde yayar//
*Yaddan olan qardaş dar gündə qaçar.*

Yaş yox oçakda yallik bolsada çuvluk bolur//
*Uşaq olmayan evdə sakitlik olsa da, hüzur olmaz.*

Katun alsang baltada al ayaklaringni çalt al//
*Qadın alsan baltada al, ayaqları cəld al.*

Allahda netme bolsun avup getgen arvaga//
*Allah da neyləsin yıxılıb gedən arabaya.*

Uzaqdagi kardaşdan yuvukdagi xonşu aldin//
*Uzaqdakı qardaşdan, yaxındakı qonşu üstündür.*

Koynu başina gelgen kozunukunada geledi//
*Qoyunun başına gələn quzunun da başına gələr.*

Ongsuz adam oylap ozuğar ongaysizni eter//
*Narahat adam düşünüb özünü narahat edər.*

Yamanni bilma suyseng yahşilik bulap olçe//
*Yamanını bilmək istəsən yaxşılıq ilə ölç.*

Birlar yaşar tili bulan birlar – gozu kaşi bulan//
*Kimi dili ilə, kimi qaş-gözü ilə yaşar.*

Uyda altunnu koyup kırdan gumuş izlaygan//
*Altını evdə qoyub çöldə gümüş izləyər//*

Açi almani tuvuna tatli alma kaydan tuşsun//
*Acı almanın dibinə şirin alma hardan düşsün.*

Yarası yahşı bolsa, yaraçisi kırayinda tavulur//
*Yara yaxşı olsa, yaraya baxan yanında olur.*

Otbaşlaring oyulsun ağaçlari otlağa yağılsın//
*Ocağın oyulsun odunları odlara yayılsın.*

Yalğan aytmasang saktıyaning boyalmaymu?//
*Yalan deməsən tumacın boyanmırmı?*

Ozunu gevenin gormey xalknı çerenin gore//
*Özünün kəpəyini görmür, başqasının tayasını görür.*

Otbaşingda kız kalsin kız kalmayli buz kalsin//
*Ocağında qız qalsın, qız qalmasa, buz qalsın.*

Katunnu tili erni toşektede yal alma koymas//
*Qadının dili ərini döşəkdə də rahat qoymaz.*

Getse gelme bilmaygan Mahti girsin uyunga//
*Gedəndə gəlmək bilməyən Mehdi girsin evinə.*

Otga salsa çiş demey tamğa ursa tap demey//
*Oda düşsə çiş deməz, dama dəysə, tap deməz.*

Balık – suvdan adam sıydan toymas//
*Balıq sudan, adam hörmətdən doymaz.*

Edepsizni evin tapgunça elni evin tapma tinç//
*Ədəbsizlə dil tapınca ellə dil tapmaq yaxşıdır.*

Ulanı yokga uyda yok uylar tolse malda yok//
*Oğlu olmayana ev də yoxdur, evlər dolsa mal da yoxdur.*

Otbaşingdan suv çıksın balali ördek yozarday//
*Ocağından su çıxsın balalı ördək üzsün.*

Etmegen işi burhağa minip kıçırsada eşitilmas//
*Etmədiyi işi bacaya minib çığırsa da eşidilməz.*

Er tapgan manatdan katun tapgan şayi artikdi//
*Ər tapan manatdan qadın tapan qəpik yaxşıdır.*

Namartlağa inansang, elge tayanganday bolur//
*Namərdlərə inansan elə dayandığı düşünülər.*

Konak konakdan kaçar goz tuvundan ot çaçar//
*Qonaq qonaqdan qaçar, göz bəbəyindən od saçar.*

Anani suyundurmagan yaşavundan suyunmas//
*Anasını sevindirməyən həyatından sevinməz.*

Uyalmaygan bet gaymuşnu gonundanda kalın//
*Utanmayan üz camışın gönündən də qalındır.*

Suv tokga suv tokdurma açga xamur basdirma//
*Su tökənə su tökdürmə aca xəmir yoğurtma.*

Etgen katun nas katun etdirgan katun xas katun//
*Edən qadın nəhs qadındır, etdirən qadın has(əsaslı) qadındır.*

Tupdan tuzelmegen uyga tumen akçalar ne etsin//
*Təməlindən düzəlməyən evə tümən axçalar neyləsin?*

Gəlinni yağasindan ilinsang ulaningni yutarsan//
*Gəlinin yaxasından yapışsan oğlunu udarsan.*

Kazanni avzu açik bolsada itdada namus gerek//
*Qazanın ağzı açıq olsa da itdə də namus gərək.*

Kanatsiz kuşdanda ongsuz – kıyişmaygan adam//
*Qanadsız quşdan da narahat adam yaraşmayandır.*

Başım suymeygen baş barmak çakı ölü gomsun//
*Məni sevməyən baş barmağım kimi ölü gömsün.*

Tuznu tatuvun bilmagan etni tatuvunda bilmas//
*Duzun dadını bilmyən ətin dadını da bilməz.*

Anasindan kop bilsada artina tuşgan hokunmas//
*Anasından çox bilsə də arxasına düşən heyfslənməz.*

Taktak takar eter tirman ozuğar suygenni eter//
*Tak-tak təkər edər, dəyirman öz bildiyini edər.*

Oylap aytsang sozungnu uyaltmassan yuzungnu//
*Düşünüb desən sözünü, qızartmazsan üzünü.*

Kop yaşagan kop bilmas, kop gezegen kop bilar//
*Çox yaşayan çox bilməz, çox gəzən çox bilər.*

Konakni kavlama suyseng konaklıkga adam çakır//
*Qonaq qovmaqa istəsən, qonaqlığa adam çağır.*

El bulan gelgen kıyinda yangızni toyundan kolay//
*El ilə gələn əziyyətdə yalnızın toyundan yaxşıdır.*

Yuvurğanga gore uzat kakişlaring artik çiksa uşur//
*Yorğanına görə uzat, ayaqların açıq qalsa üşüyər.*

Utsukar kardaş can kardaş tepsi kardaş mal kardaş//
*Böyük qardaş, can qardaş, sini qardaş, mal qardaş.*

Sizin uyda kazan asıb ozge yerde çeten asamanmu?//
*Sizin evdə qazan asıb başqa yerdə çətənmi yeyim?*

Kutsuz katun olturgan ocak ongsuz bolmay kalmas//
*Xoşbəxt olmayan qadının oturduğu ocaq bədbəxt olacaq.*

Dosnu duşmanı boş dosdumaldanda kolaysiz bolur//
*Dostunu düşməni boş dəsmaldan da faydasız olur.*

Ol eşşəkde yugumda yok yardan tuşsa kaygımda yok//
*O eşşəkdə ağırlığım yox, uçurumdan düşsə vecimə deyil.*

Tari burtugu getmeygen tamağından tanani başi hurp//
*Darı dənəsi getməyən damağından dananın başı hop.*

Busurmanni song hakılı da bolayim dep aytgan cuhut//
*Musurmanın sonrakı ağlında olaydım deyib cuhud.*

Taming taşing dağılsın çirlaringdan sari suvlar ağilsin//
*Damın daşın dağılsın, divarlarından sarı sular axılsın.*

Bilmasni bulegi avrutmas kırayindagni yuregi avrutar//
*Bilməzin biləyi ağrıtmaz, yanındakının ürəyin ağrıdar.*

Xalknı uyundagi baldan seni uyungdagi balannur kolay//
*Xalxın evindəki baldan öz evindəki duzlu su yaxşıdır.*

El namusğa etilagan iş eşşək etgen osal işdanda kolaysiz//
*Başqasının namusuna dil uzatmaq eşşəyin etdiyi ayıbdan da betərdir.*

Kapusuna bağıp da bola bilma katunnu iş suymeygenin//
*Qapısına baxıb qadının iş sevmədiyi bəlli.*

Yer kati girma bolmayman kok bıyık minma bolmayman//
*Yer qatıdır girmək olmaz, göy böyükdür minmək olmaz.*

Yangız terek bav bolmas, yangız ulannı sozu kav bolmas//
*Yalnız ağac bağ olmaz, yalnız oğlanın sözü qəbul edilməz.*

Başi ullu bolganni suyevusang başindan başlap kulluk et.
*Başı böyük olanı sevirsənsə, başından başla qulluğa.*

Erni sakali, baş çaksiz ağarsa, katunu gayır ekenni belgisi.
*Ərin saçı, saqqalı vaxtsız ağarsa, qadının fərsizliyindəndir.*

Haman haman haliva barmay pirlaga
haman haman dovren bolmay birlaga//
*Həmən həmən halva getməz pirlərə,*
*həmən həmən dövlət olmaz birlərə*

Sav erkekni yanina yatsangda kayavsuzsan
osal erkekni kırayindan otsangda biyavursan//
*Əsl kişiylə yatsanda ar olmaz*
*yaramazın yanından keçsən biabır olur.*

Toyğa barsang toyup bar aç bolusan
kaytginça bişgan tavuk aşayim sağa yalğan aytğınça//
*Toya getsən tox get ac olarsan*
*döndüyündə bişmiş toyug yeyim sənə yalan deyincə.*

Bir kozunu saklasang aşap avzung yav bolur
avursuznu saklasang arti gunung dav bolur.
*Bir kuzunu saxlayıb yesən ağzın yağ olar*
*dili uzunu saxlasan ömrün sonu dava olur.*

# OĞUZ KÖKƏNLİ QUMUQLARIN FOLKLORU

## Duxa Xocan oğlu Dəli Domrulun hekayəsi və yırı

Mənim xanım! Oğuzda Duxa Xocan oğlu Dəli Domrul deyilən bir igid oğlan var idi. O suyu quruyan çayın üzərində körpü qurmuşdu. Keçəndən otuz axça alırdı, keçməyəndən dörd axça alırdı. Niyə belə edirdi? O belə cavab verirdi:

– Məndən dəli, məndən güclü igid varmı, mənimlə savaşa? Mənim ərliyim, igidliyim, qoçaqlığım Rumda, Şamda bəllidir.

Bir dəfə körpünün yanından bir sürü insan keçir. Dəli Domrul görür ki, bir igid yatır, bütün tayfa da ağlayır, ah fəğan edir. İgidin tayfasına böyük bəla üz verib. Dəli Domrul bunların yanına gəlib soruşur:

– Siz niyə ağlıyırsınız? Mənim körpümün yanında bu qovğa nədir, nə dərdə düşmüsüz? Tayfadan bir kişi dilləndi:

– Xanım, bizim yaxşı bir igidimiz ölüb, biz ona ağlayırıq. Dəli Domrul:

– İgidinizi kim öldürdü? – dedi.

– Vallah, bəyigid, Allah taaladan buyruq oldu, al qanadlı Əzrayıl o igidin canını aldı.

Dəli Domrul:

– Sizin Əzrayıl necə adamdır ki, adamların canını alır? Ya Qadir Allah, birliyin, varlığın haqqı üçün Əzrayılı mənim gözümə göstər! Savaşıb-vuruşub yaxşı igidin canını qurtarım. Bundan sonra yaxşı igidlərin canını almasın. Dəli Domrul evinə gəldi. Tanrı Domrulun sözünü bəyənmədi:

"Bax bir, dəli axmaq mənim birliyimi tanımır, köməyimə, kərəmimə şükür eləmir. Mənim böyük sarayımda gəzib məğrurluq eləyir?" – dedi. Əzrayıla əmr etdi ki, ey Əzrayıl, get o dəli əbləhin də gözünə görün, bənizini saralt, xırıldadıb canını al! Dəli Domrul qırx igidlə yeyib-içib oturarkən birdən Əzrayıl gəlib çıxdı. Əzrayılı nə qapıçı gördü, nə gözətçi. Dəli Domrulun görən gözü görmədi, tutan əllərində qüvvət qalmadı. Dünya-aləm Dəli Domrulun gözündə qaraldı. Dəli Domrul çağırıb soylayır, görək, xanım, nə soylayır, – deyir:

Vay, nə heybətli qocasan?
Qapıçılar səni görmədi.
Gözətçilər də duymadı.
Görən gözüm qaraldı,
Tutan əlim yoruldu.
Canıma titrətmə düşdü,
Qızıl qədəh əlimdən yerə düşdü.
Ağzım dondu buz kimi,
Sümüklərim ovuldu duz kimi,
Ay saqqallı ağ qoca,
Gözləri domba qoca,
Vay, nə qorxunc qocasan, de mənə!
Qadam-balam toxunar bu gün sənə!
Belə deyəndə Əzrayılın acığı tutdu. Dedi:
Ədə, dəli əbləh!
Gözümün dombalığın nə bəyənmirsən?
Göyçək gözlü qızların-gəlinlərin, canını çox almışam!
Saqqalımın ağlığın nə bəyənmirsən?
Ağsaqqal, qarasaqqal igidlərin canını çox almışam!
Saqqalımın ağardığının mənası budur!

Ay dəli axmaq, öyünüb deyirdin "al qanadlı Əzrayıl mənim əlimə düşəydi, öldürəydim; yaxşı igidin canını onun əlindən qurtaraydım".

İndi, ay dəli, gəlmişəm ki, sənin canını alım. Verirsənmi, yoxsa mənimlə döyüşürsən?

Dəli Domrul deyir:

"Aya, al qanadlı Əzrayıl sənsənmi?".

"Bəli, mənəm!" – dedi.

"Bu yaxşı igidlərin canını sənmi alırsan?" – dedi.

"Bəli, mən alıram", – dedi. Dəli Domrul deyir:

"Ədə, qapıçılar, qapını örtün! Ay Əzrayıl, mən səni gen yerdə axtarırdım, dar yerdə yaxşı əlimə keçmisən, deyəsən? Mən indi səni öldürüm, yaxşı igidlərin canını qurtarım!. Böyük qılıncını siyirdi, əlinə aldı. Hücum etdi ki, Əzrayılı vursun.

Əzrayıl bir göyərçin olub, pəncərədən uçdu-getdi. İgid Dəli Domrul əlini əlinə çaldı, qah-qah güldü. Dedi:

– "İgidlərim, Əzrayılın gözünü elə qorxutdum ki, gen qapını qoydu, dar bacadan qaçdı. Mənim əlimdən göyərçin kimi bir quş olub uçdu. Ay hay, mən onu qızılquşa aldırmayınca qoyarammı canını qurtarsın?!" Durdu, atına mindi. Şahini əlinə alıb, ardınca düşdü. Bir-iki göyərçin öldürdü, döndü evinə gələrkən Əzrayıl onun atının gözünə göründü. At ürkdü. Dəli Domrulu götürüb yerə vurdu. Qarabaş fırlandı, huşsuz qaldı. Əzrayıl ağ köksünün üstünə qondu. Dəli Domrula mırıldanırdı. Sonra onu boğmağa başladı. Dəli Domrul dedi:

Ay Əzrayıl, aman!
Tanrının birliyinə şübhə yox, inan!
Mən səni belə bilməz idim.
Oğru kimi can aldığın duymaz idim.
Bizim böyük sahəli dağlarımız olur,
O dağlarımızda bağlarımız olur.
O bağların qara salxımlı üzümü olur.
O üzümü sıxırlar, al şərabı olur.
O şərabdan içən sərxoş olur.
Sərxoşdum, duymadım; nə dediyimi bilmədim.
Bəylikdən usanmadım, igidlikdən doymadım.
Canım alma, Əzrayıl, aman ver!

Əzrayıl deyir:

– "Ay dəli axmaq, mənə nə yalvarırsan, Allah-taalaya yalvar. Mənim əlimdə nə var? Mən buyruq quluyam". Dəli Domrul deyir:

– "Bəs can verən, can alan da Allahdırmı?". "Bəli, odur!" dedi. Dəli Domrul Əzrayıldan soruşdu:

– "Bəs sən nə iş görürsən? Sən aradan çıx, mən Allah-taala ilə xəbərləşim". Dəli Domrul burada soylamış, görək, xanım, nə soylamışdır:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən.
Gözəl Tanrı!

Neçə cahillər səni
Göydə arar, yerdə istər.
Sən möminlər könlündəsən.
Sən böyüksən, qüdrətlisən,
Əbədi sirr sahibisən.
Canım alsan, özün al.
Qoyma, Əzrayıl alsın!

Dəli Domrulun sözü burada Allah-taalaya xoş gəldi. Əzrayılı çağırıb dedi ki, bu dəli mənim birliyimi bildiyi, birliyimə şükür etdiyi üçün onun can əvəzinə can tap; qoy Dəli Domrulun canı azad olsun!

Əzrayıl dedi:

– "Ay Dəli Domrul, Allahın əmri belə oldu ki, Dəli Domrul öz canı yerinə can tapsın, onun canı azad olsun!". Dəli Domrul deyir:

– "Mən canı necə tapım? Bir qoca atam, bir qarı anam var, gəl gedək, ikisindən biri bəlkə canını verdi, al, mənim canım qalsın!". Dəli Domrul durub atasının yanına gəldi. Atasının əlini öpüb soylamış, görək, xanım, nə soylamışdır; dedi:

Ağsaqqallı əziz, hörmətli, canım ata!
Bilirsənmi, nələr oldu?
Günah söz söylədim, –
Allaha xoş gəlmədi,
Göydə al qanadlı Əzrayıla
Əmr elədi, uçub gəldi.
Basıb qonmuş ağ köksümə,
Şirin can alır məndən.
Ata, səndən can istərəm, verərsənmi?
Yoxsa "oğul, Domrul!" deyə ağlarsanmı?

Atası deyir:

Oğul, oğul, ay oğul!
Canımın bir parası oğul!
Doğulanda doqquz buğra öldürdüyüm aslan oğul!
Qızıl tağlı uca evimin dirəyi oğul!
Qaza bənzər qız-gəlinimin çiçəyi oğul!

Qarşı yatan uca dağım gərəksə,
Söylə, olsun Əzrayılın yaylağı!
Soyuq-soyuq bulaqlarım gərəksə,
Onlar olsun Əzrayılın bulağı!
Tövlə-tövlə şah atlarım gərəksə, onun miniyi olsun!
Qatar-qatar dəvələrim gərəksə, onun yüklüyü olsun!
Yaylaqdakı ağ qoyunum gərəksə,
Mətbəxlərdə olsun ona şülənlik!
Qızıl-gümüş pul gərəksə,
Xərcləsin, qursun böyük bir şənlik!
Dünya şirin, can əzizdir,
Canıma qıya bilmərəm!
Məndən əziz, məndən yaxın
Anan vardır, get yanına!

Dəli Domrulun, atasından ümidi üzüldü, atını sürdü, anasının yanına gəldi. Dedi:

Ana, bilirsənmi nələr oldu?
Al qanadlı Əzrayıl göy üzündən uçub gəldi.
Mənim ağca köksümü basıb qondu,
Xırıldadıb canımı alır indi.
Atamdan can istədim, amma vermədi.
Səndən can istəyirəm, ana, canınI mənə verərsənmi,
yoxsa "Oğul, Domrul!" – deyə ağlarsan?
Ağ üzünə iti dırnaq çalarsan?
Qarğı kimi qara saçını yolarsan, ana?

Anası burada soylamış, görək, xanım, nə soylamışdır. Anası dedi:

Oğul, oğul, ay oğul!
Doqquz ay dar qarnımda gəzdirdiyim oğul!
Bələyini beşiklərdə bələdiyim oğul!
On ay deyəndə yer üzünə gətirdiyim oğul!
Doyunca ağ südümü əmizdirdiyim oğul!
Ağca bürclü hasarlarda tutulsaydın, oğul!
İyrənc dinli kafir əlində dustaq olsaydın, oğul,
Qızıl-gümüş gücünə səni qurtarardım, oğul!

Yaman yerə gedibsən; gedə bilmərəm,
Dünya şirin, can əzizdir,
Canıma qıya bilmərəm, yəqin bil!-dedi.

Anası da canını vermədi. Belə deyəndə Əzrayıl Dəli Domrulun canını almağa gəldi. Dəli Domrul dedi:

Ay Əzrayıl, aman!
Allahın birliyinə yox şübhə, inan.

Əzrayıl deyir: “Ay dəli axmaq! Daha nə aman istəyirsən? Ağsaqqallı atanın yanına getdin, canını vermədi. Ağ birçəkli ananın yanına getdin, can vermədi. Daha kim verəcəkdir? Dəli Domrul deyir:

– “Həsrətlim vardır, onunla görüşüm”.

Əzrayıl dedi:

– “Ay dəli, həsrətlin kimdir?”

Dedi:

– “Yad qızı arvadım var, ondan iki oğlum var; əmanətim var, onlara tapşırım, ondan sonra mənim canımı alarsan”. Atın sürüb arvadının yanına gəldi. Dedi:

Bilirsənmi nələr oldu?
Al qanadlı Əzrayıl göy üzündən uçub gəldi.
Mənim ağca köksümü basıb qondu.
Mənim şirin canım alır indi.
Atama dedim, canın vermədi,
Anama dedim, canın vermədi,
“Dünya şirin, can şirin!” – dedilər.
İndi uca-uca dağlarım yaylağın olsun!
Soyuq-soyuq sularım bulağın olsun!
Tövlə-tövlə şahanə atlarım sənin miniyin olsun!
Qızıl tağlı uca evim sənin kölgəliyin olsun!
Qatar-qatar dəvələrim sənin yüklüyün olsun!
Yaylaqdakı ağ qoyunum sənin şülənliyin olsun!
Gözün kimi tutursa,
Könlün kimi sevirsə, ona ərə get!
İki oğlancığı yetim qoyma!

Arvad burada soylamışdır, görək, xanım, nə soylamışdır – demişdir:
Nə dedisən, nə ötürsən,
Göz açaraq gördüyüm!
Könül verib sevdiyim!
Qoç igidim, şah igidim,
Şirin damağ verib öpüşdüyüm,
Bir yasdıqda baş qoyduğum,
Qarışı yatan uca dağları
Səndən sonra mən neylərəm?
Yaylayarsam, gorum olsun!
Soyuq-soyuq suların mən içərsəm, mənim qanım olsun!
Qızılını-gümüşünü xərcləsəm, kəfənliyim olsun!
Tövlə-tövlə atların mən minsəm, mənim tabutum olsun!
Səndən sonra bir igidi sevib seçsəm,
ərə getsəm, birgə yatsam,
Bir əjdaha ilan olub, məni çalsın!
O müxənnət, et barsız atan-anan
Cannədir ki, sənə qıya bilməmişlər?
Yerlər şahid olsun, göy şahid olsun,
Qüdrətli Allah şahid olsun, qurbanam sənə,
Mənim canım qurban olsun sənin canına!

Əzrayıl razılaşdı, qadının canını almağa gəldi. İgid Domrul ömür yoldaşına qıya bilmədi. Burada Allaha yalvarmış, görək, necə yalvarmışdır, dedi:
Ucalardan ucasan,
Kimsə bilməz necəsən!
Gözəl Tanrı, çox cahillər
Səni göydə arar, yerdə arzular.
Sən möminlərin könlündəsən.
Sən əbədi hökmransan.
Böyük yollar üzərində
İmarətlər yapım-qurum səninçin.
Harda görsəm, ac doyurum səninçin.
Çılpaq görsəm, don geydirim səninçin.

Alırsansa, ikimizin canını birgə al!
Sağ qoyursan, ikimizə də rəhm et!
Kərəmi çox, Qadir Allah!

Dəli Domrulun sözü Allaha xoş gəldi. Əzrayıla əmr etdi: "Dəli Domrulun ata-anasının canını al! Dəli Domrula və arvadına yüz qırx il ömür verdim", – dedi. Əzrayıl da dərhal onun atasının-anasının canını aldı. Dəli Domrul ömür yoldaşı ilə yüz qırx il də yaşadı.

Dədə Qorqud gəlib boy boyladı, soy soyladı. "Bu dastan Dəli Domrulun olsun. Məndən sonra igid ozanlar söyləsinlər! Alnıaçıq, əliaçıq igid şəxslər dinləsinlər!" – dedi.

Xeyir-dua verək, xanım:
Köklü uca dağların yıxılmasın!
Kölgəli iri ağacın kəsilməsin!
Coşğun axan gözəl suyun qurumasın!
Allah səni namərdə möhtac etməsin!
Ağ üzün qarşısında beş kəlmə dua qıldıq qəbul, olunsun!
Yığışdırıb saxlasın günahınızı,
Gözəl adlı Məhəmmədə bağışlasın, xanım, hey!!!

## Cavatnı yırı // Cavadın yırı

Macalis oqurugnu elinde,
*Məcalis bölgəsi elində*,
BaşlIkent uçastkaniyErinde,
*Başlıkənd uçastkanın yerində,*
Calalgentli Cavat değen sən edin.
*Cəlalkəndli Cavad deyilən sən idin.*
Zamanda bir aygırına mine edin,
*Zamanında bir ayğırını minərdin,*
Atnı başın Mirza suvga bura edin,
*Atın başını Mirza çayına burardın*,
Yorgalatsan, taş kalanı buza edin,
*Yortsan, daş qalanı dağıdardın.*
Çapdırsan, passacirden oza edin!
*Qaçsan, qatardan sürətli gedərdin!*

Anan ölsün, Cavatbiyni aygırı:
*Anan ölsün, Cavad bəyin ayğırı:*
Beşisinde beşev tutup yerlegen,
*Beşini də beşi tutub yəhərləyən,*
Altısında adam tilin söylegen,
*Altısı da adam dili söyləyən,*
Yettisinde, yetıb, yavlar qaytargan,
*Yeddisində çatıb düşməni geri qaytaran,*
Segizinde, sermenişip, at bolgan,
*Səkkiz yaşında yapışıb at olan,*
Toguzunda toqsan türlü nal qaqgan,
*Doqquz yaşında doxsan cür nal çaxan,*
Onunda örlep - türlep çul yapgan!
*Onunda bəzək düzəyini yapan!*
Anan ölsün, Cavatbiyni aygırı,
*Anan ölsün, Cavad bəyin ayğırı,*
Yarışlarda maladetsge aytılgan!
*Yarışlarda afərin aldığı söylənən,*
Bu aygırnı har-bir sanın maqtayman,
*Bu ayğırın hər yerini tərifləyirəm,*
Hali busa hayran bolup toqtayman!
*Artıq ona heyran olub baxıram!*
Hali busa bir başgasın küyleyim
*İndi isə bir başqasını da danışım,*
– Cavatbiyni igitligin söyleyim.
*Cavad bəyin igidliyindən söyləyim.*
Cevatbiyni Adugudur atası,
*Aduğudur Cavat bəyin atası,*
Atasına çıqmay bolgan xatası.
*Atasına olmazdı xətası.*
Artda qalgan etgen alay sancak,
*Arxada qalan elə etmiş,*
Amuzgili qılavlangan xıncalı.
*Amuzgili qınlanmış xəncəri.*
Xıncalına bek arkasın tayay edi.

*Xəncərinə çox arxayın idi.*
Bahmutunu aziz canın ayay edi.
*Bahmudun əziz canı əsirgərdi.*
Cavat batır avrup yatgan ölmeğe,
*Cavat igid ölüm döşəyində yatır,*
Azireyil girip gelgen görmeğe.
*Əzrayıl gəlir onu görməyə.*
Cavat batır savutların tolturgan,
*Cavad igid silahını doldurur,*
Azireyil Cavatbiyni başlığında olturgan.
*Əzrayıl Cavad bəyin başında oturur.*
Gəlsəne, Azireyil, gəlsəne!
*Gəlsənə, Əzrayıl, gəlsənə!*
Savutlarım – qara savat xıncalım –
*Silahlarım – qara silah xəncərim*
Yetmegen çi hali de meni accalım!
*Çatmayıb ki hələ mənim əcəlim!*
Cavat batır qol uzatgan savutlaga, teşikge
*Cavad igid əl uzatdı silahlara, deşiyə,*
– Azireyil göz qaratgan, deymen, eşikge.
*Əzrayıl göz gəzdirmiş eşiyə.*
Cavat batır tartıp algan savutların teşikden
*Cavad igid alıb silahlarını deşikdən*
– Azireyil kaçıp çıkgan eşikden.
*Əzrayıl qaçıb çıxdı eşikdən.*

## Koroğlu

Biri varmış, biri yoxmuş, bir ölkənin bir şəhərində bir xan varmış. O xanın ilxıçılarının arasında yaşlı biri varmış. O qoca hər gün səhər ilxıya getdiyi zaman da, axşam dönüb gəldiyi zaman da yol kənarında bir ağ sümük varmış, onun yanına gedib "Tulpar at idin, tulpar at" deyərmiş. Digər ilxıçılar yaşlı adamdan xana şikayətlənirlər:

– Yaşlıdır, ağlını itirib. Sən onu alıb bizə yoldaş ver. Hər gün sabah-axşam ilxını buraxıb, bir ağ sümüyün yanına onu

ziyarət edirmiş kimi: "Tulpar at idin, tulpar at" deyir. Xan, qocanı çağırıb:

– Sən tulpar atı tanıyırsanmı? – deyə soruşur. Yaşlı adam:

– Çox yaxşı tanıyıram, deyir. Xan:

– Mənim ilxımda var mı? – deyə soruşur. Yaşlı adam:

– Baxımını eləsəniz, doğulacaq tayı var. Xan:

– Get onu bura gətir!

Qoca gedib, ilxıdan bir alçaq, əyri belli qısraq gətirir.

– Xanım, baxsanız, bu taydan olacaq tulpar at, – deyir. Xan öfkələnərək qışqırır:

– Sən həqiqətən də, çaşmısan! Başını çiynəyib əzsin o gətirdiklərin! Vurun bunun boynunu! Vəzirlər deyirlər:

– Bunun başını kəssək el bizə nə deyər. Bu sənin atanın zamanından bəri sənə ilxı saxlayır. Bunun çox əməyi var, öldürsən, səni ahı tutar.

– Elə isə ödürməyin, iki gözünü çıxarıb, gətirdiyi qısraqla tay da verin qoltuğuna, mənim elimdən qovun! – deyir xan. Vəzirlər nə qədər yalvarsa da, xan qocanın gözünü çıxartdırmaqdan əl çəkmir. Qocanın gözlərini çıxartdırıb, oğlunu çağırırlar və deyirlər:

– Tez ol, atanı da, bacını da, tayı və qısrağı da al, bu vilayətdən çıx, get!

Oğlan atasını qısrağa mindirib, özlərinin geyimlərini də qısrağa qoyub:

– Bibi, sən qısrağın başını tut, mən kənddən çıxıncaya qədər tayı haylayım, – deyir. Qadın, qısrağın başını tutub, üstündəki qardaşına baxıb, ağlamağa başlayır. Qoca deyir:

– Bacım, sən ağlama. "Gülmə qonşuna, gələr başına" deyərlər. Bunlar hələlik yatırlar, "Yuxusunda gülən, oyananda ağlayar". Bunların zülmləri onları oyandırar, oyandıqlarında bunlar da ağlayar. Sən qısrağı çək, – deyir.

Bacısı qısrağı çəkir, bunlar çıxıb gedirlər.

Bir-neçə gün gedərək bir şəhərə çatırlar. Qoca adamlardan soruşur:

– Bu hansı xanın şəhəridir? Adamlar filan xanın şəhəridir dediklərində, qoca – bizə boş ev tapılarmı, – deyə soruşur. Tapılar, – deyirlər ona cavabında.

– Bax, filan ev bomboşdur, – deyirlər.

Qoca gedib o evdə yaşayır. Bunlara xalq da kömək edər. Yaşlanmış, gözü kordur deyə, zəkat verirlər.

Qoca oğluna belə deyir:

– Oğlum, sən ot yığ, qışda atlarına yedirtmək üçün. Qışda tayı axırda saxla, miniləcəyi zaman o çəmənliyə çıxmasın. Oğlan heyvanın yeyə biləcəyi qədər ot yığır, suyunu da arxa çəkir. Qış gəlir. Tayı qaranlıq axıra bağlayırlar. Qısrağı işlədib, qazanc əldə edirlər. Yaz gələndə də tayı axırdan çıxarmırlar.

Bunların yaşadığı vilayətin xanı bu qocanın bacısının gözəlliyini eşidib, ona aşiq olur. Bir gün xan bu qadını görməsəm öləcəyəm, deyə yanına bir vəzir də götürüb, atlanıb gəlir bu qocanın evinə qonaq. Xan qadını gördüyü zaman ona olan eşqi birə min artır. Qocaya deyir:

– Hörmətli böyüyüm, mən sənin bacına aşiq olmuşam. Mən onu qoyub gedə bilmərəm. Qoca xana deyir:

– Sən minib gəldiyin ayğırı bir kişnət səsini eşidim, – deyir. Xan ayğırına küçədəki qısrağı göstərir. Ayğır kişnəyir. Qoca atın səsini eşidib deyir:

– Xanım, mənim bir qısrağım var. Bu qısrağıma ayğırını mindirsən, bacımı öz rizamla verərəm, deyir. Xan ayğırın bir dəfə qısrağa mindirib qızı da alıb gedir. Qoca oğlu ilə qalır.

İkinci il qısraq bir erkək tay doğur. Süddən ayrıldığı zaman o tayı da axıra bağlayırlar. Beləliklə, ilk tay beş yaşını bitirib altısına keçir. Bir gün oğlan atasına deyir:

– Atam, "Yapağılı pis tay, ilk yaza çıxarsa, at olar." Deyirlər. Böyük tayım altıncı yazına girir. Nə zaman at olar? Atası:

– İndi böyük ayğırı çıxarmaq zamanı gəldi. Başını tutub suya apar. Məbadə minmə! Miniləcəyi zamanı mən sənə deyəcəm! – deyir.

Oğlan böyük ayğırın başını tutaraq, bayıra çıxarır. Ayğır gün işığını görüb yellənir, oğlan onu belə yelləndiyi halda suya

aparır. Ayğır su içib, dörd yana baxıb, gərilib oynamağa başalyır. Oğlan düşünür ki, bu yəqin qaçmaq istəyir, qaçsa qurtulub gedəcək! Nə olar olmaz deyə atı minir. Ayğır oğlanı alıb qaçır. Oğlan nə qədər çəksə də, at durmur ki, durmur.

Ayğır o qaçışıyla bir dağın başında oğlanı yıxır, dənizə enib yox olur. Oğlan gördüyü işdən peşman olur, atasının da qorxusundan dağın başında ağlayaraq, yatır qalır.

Bir müddət sonra oğlan oyanıb dənizə doğru baxır. Baxır ki, dənizdən oğlana doğru bir ağsaqqal kişi gəlir. Ağsaqqal kişi oğlanın yanına gəlib deyir:

– Balam, niyə ağlayırsan? Oğlan başından keçənləri danışır. Ağsaqqal kişi deyir:

– Elə isə sən ağlama, ağzını aç, deyir. Oğlan ağzını açır. Ağsaqqal oğlanın ağzına tüpürüb belə deyir:

– Oğlan, indi sən rahat ol. Bu dünyada səndən igid ər olmaz. Sənin ayğırından da yaxşı at olmaz! Bu gündən sonra sənin adın Koroğludur! Qoca bu sözləri deyir və yox olur. Koroğlu bu işə məəttəl qalır. Baxır ki, dənizdən əhliləşmiş, sakitləşmiş, oynaya-oynaya ayğırın gəldiyini görür. Ayğır gəlir Koroğlunun yanında durur. Koroğlu dərhal ayğırı tutaraq minir, şəhərə doğru yol alır.

Atası Koroğlunun gəldiyini bilib soruşur:

– Oğlum, harda qaldın? Koroğlu başından keçənin hamısını anladır: Atası deyir:

– Oğlum, ağzına da tüpürdümü? Oğlan:

– Tüpürdü! – deyir. Atası:

– Elə isə, oğlum, sən çox nəsibli olmuşsan. O kişi Xızır peyğəmbərdir. Onun sözü yalan olmaz, – deyir.

Bir gün qoca xəstələnir. Koroglunu yanına çağırıb belə deyir:

– Oğlum! Mən sənə vəsiyyət edirəm: yaxşılığa gedəcəyin zaman kiçik ayğıra minərsən, pisliyə gedəcəyin zaman böyük ayğıra minərsən. Oğlum, qətiyyən, yanlışlıqla birinə minəcəyin yerdə o birinə minmə! Qoca atanın uda bilməyərək çeynəyib durduğu zülmləri bir gün sən çeynəmədən udarsan! Xızır peyğəmbərin tüpürüyü sənin ağzına düşdükdə mən rahatladım. Qoca bunları deyir və canını tapşırır.

Atasını dəfn etdikdən sonra Koroğlu düşünür:

– Mənim adım Koroğlu olduqdan sonra, mənim ayğırımdan yaxşı at da olmadıqdan sonra, mən niyə bu qorxaq xanda atamın bacısını saxlayım?! Qonşusuna kiçik ayğırı əmanət edib, böyük ayğırına minərək çıxıb gedir.

Koroğlu xanın şəhərinin yaxınındakı böyük axar suya çatır. Suyun kənarı boyunca o tərəfə bu tərəfə yeriyir, ancaq keçə bilmir. Koroğlu: "Atalardan qalmış söz də var: Atı yaxşı kişidən yol soruşma!" deyə, ayğırını suya vurub haylayır. Ayğır “zıp!” deyə atlayır, suyun o biri yanına çıxır. Koroğlu şəhərə girib, bir çayxanaya gedib, xanın sarayını soruşur. Xanla çəkişib yarışıb, xanın qızını da alıb, ayğırını hoppandıraraq, suyun o biri yanına çıxıb qalır. Xan da atın o yana hoppandırır; ayğır arxa ayaqları suya girərək o biri yana çətinliklə keçir. Koroğlu atını hoppandırıb bu biri tərəfə çıxır. Sonra xan qışqırır: "Koroğlu, mən sənə zərər verməyəcəyəm, məni hirsləndirmə!" Koroğlu dayanır. Xan, çətinliklə bu yana çıxaraq Koroğlunun yanına gəlib salamlaşır; hal-xətir soruşduqdan sonra belə deyir: "Koroğlu, qızımı da sənə verərəm. Yalnız mən sənə bir nəsihət edəcəyəm: Qətiyyən, dünyanın malını versələr belə, ayğırını qısraqlara mindirmə! Bu axar su mənim o tərəf bu tərəfinə də atımla hoppanıb oynadığım suyum idi. Sənin atanın qısrağına mindirdikdən sonra belə zəifləyib qaldı. İndi gülə-gülə gediniz, rifah içində yaşayın!

Koroğlu qızı da alıb, evinə qayıdır və xanın qızıyla evlənir. Bu xəbər xalq arasında yayılıb gedir. Kənddəki ağsaqqallar dərin-dərin düşünürlər: "Koroğlu çox igid oğlan, özü də çox mərhəmətlidir. Belədirsə, biz Koroğlunu xan edərək, suyu sərhəd edərək, xandan ayrılaq" deyirlər.

Ağsaqqallar, qonşu kəndlərə xəbər göndərib, adamları toplayırlar, bu toplantıda Koroğlunu xan edərək, suyu da sərhəd etməyi qərarlaşdırırlar.

Koroğlunun böyük ayğırının xəbəri hər yerə yayılıb gedir. Bu xəbəri Koroğlunun atasının gözlərini çıxaran xan da eşidir. Xan ayğıra aşiq olur. Öz buyruğu altındakı xalqı toplayıb, soruşur:

– Bu ayğırı mənə gətirəcək adam varmı? Gətirən olsa, bir küp altun verərəm, deyir. Heç kim cavab vermir. Bu xəbəri bir çiftliktə oturan yaşlı bir qadın eşidərək gəlib, xana belə deyir:

– Xanım, qurban olum! Bir kisə altun mənə versən, mən gətirəcəyəm ayğırı, deyir. Xan:

– Verərəm. Qadın:

– Versən, mənə bir eşşək də ver minməyə, bir də bir torba azuqə ver, deyir. Xan dərhal hazırlayıb verir.

Qadın eşşəyə azuqə də qoyub, özü də minib, gedir. Qadın bir ay yeriyir, bir il yeriyir, iynə boyu yol gedib Koroğlunun şəhərinə çatır. Qadın qamışlığa eşşəyini göndərib, azığını da gizləyib, özü də yol kənarında yatır.

O gün Koroğlu kiçik ayğırına minibmiş. Ovdan dönərkən qadına rast gəlir:

– Anam, burada nə edirsən? – deyə soruşar. Qadın:

– Nə edim, övladım! Baxacaq kimsəm yox; belə burda qalmışam, – deyir. Koroğlu:

– Elə isə mən baxaram, deyir və alıb aparır evinə.

Evinə gəldiyində Koroğlunun qadını bəyinə belə deyir:

– Bu yaxşı bir şey deyil, bunu qorumaq bizə yaramaz! Koroğlu:

– Pis olub neyləyəcək? Qadını saxlayırlar. Koroğlunun ayğırları Koroğludan və arvadından başqa kimsənin yanlarına gəlməyə qoymurdular. Yaşlı qadın belə deyir:

– Övladım, Koroğlu, ayğırlarınla məni tanış elə. Gecələr yuxum olmur, qalxıb bunlara xidmət edərəm. Koroğlu:

– Doğru söyləyirsən, – deyərək ayğırlara onu tanıdır.

Qarı ayğırlarla tanış olub, onlara çox yaxşı baxmağa başlayır.

Günlərdən bir gün Koroğluya başqa bir kənddəki dostundan toy dəvətnaməsi gəlir. Koroğlu kiçik ayğırına özü minib, başqa ata arvadını mindirib, pisliyə gedərkən mindiyi böyük ayğırı da yaşlı qadına əmanət edərək toya gedir.

Yaşlı qadın bunlar getdikdən sonra böyük ayğırı yüyənləyib, o gecə minərək çıxıb gedir.

Qadın böyük ayğırı gətirib, xana söyləyir:

– Xanım, haradadır, mən enmədən ayğır qoyacaq yeri göstərin! Mən buraxdıqdan sonra artıq kimsə bunu tuta bilməz! – deyir.

Xanın özünün sürətli atlarını qoyub saxladığı çox yüksək divarlarla əhatəli axırı varmış. Bu axıra göndərməyi əmr edir. Qadın ayğırın yüyənini, qoşqusunu alaraq, atı axıra qoyaraq, qapını bağlayıb, bir küp altınını alıb gedir.

Xan, azğın atlara baxan mehtərlərini toplayıb "Ayğırı tutun!" – deyə buyurur. Mehtərlər ayğırı tutmağa axıra girirlər. Ayğır, yanına hər girənin üstünə qaçaraq çeynəyir. Adamlar ayğırdan qorxub, axırın yanına belə gedə bilmirlər. Xan, ayğırı tutacaq insana alma qədər altın verəcəyini elan edir.

Koroğlu toydan qayıdır. Görür ki, ayğır da yox, qarı da. Koroğlu "Pislik üçün gedərkən kiçik ata minəmmərəm. İki atım olmadıqdan sonra bir daha ata da minmərəm, deyib piyada yola düşür. Gethaget axırda Koroğlu xanın şəhərinə çatıb, kənardakı bir evin həyətinə girib:

– Hey, varlılar! – deyə qışqırır.

– Varlı Alallahdır, deyə ev sahibi dillənir. Koroğlu:

– Allah qonağıyam, qonaq edərsənmi? – deyə soruşur. Ev sahibi:

– Edərəm! – deyir və Koroğlunu evinə gətirir, yedirir içirir. Gecə yatır, tezdən oyanırlar. Yeməkdən sonra dəllalların hayqıran səsini eşidən Koroğlu:

– Bunlar niyə qışqırışır? – deyə soruşur. Ev sahibi ayğırın məsələsini danışır. Koroğlu:

– Mən gedib tutum, deyir. Ev sahibi:

– Boş ver, qonaq! Sənin kimi neçələrini öldürmüş bir ayğırdır, səni də öldürər. Koroğlu:

– Allahın dediyi olar! – deyərək gedir.

Baxsa, axırın içində ayğır var, uzaqdan baxan xanla birlikdə xalq da var. Koroğlu xana gedib:

– Bu ayğırı tutacaq kişiyə nə yaxşılıq edirsən? – deyə xandan soruşur. Xan:

– Alma boyda altın da verərəm, başqa da ərmağanlar da verərəm, – deyir. Koroğlu:

– Gətirin qoşum dəstini! – deyir. Vəzirlər gətirib verirlər. Koroğlu dizgini də alıb, axıra girir, ayğırı tutur, yüyənini də qoyur və atı minir. Xan deyir:

– Ay, oğlan! Axırdan çıxarmadan, içində yor, gətir! Bir minib, ürəyimi dindirim!

Koroğlu ayğırla divardan hoppanıb çıxır. Sonra xalqa doğru qışqıraraq deyir:

– Ay, insanlar! Siz məni tanıyırsınızmı? Xalq:

– Tanımırıq! – deyir. Koroğlu:

– Tanımırsanızsa, mən özümü tanıdım! Filan vaxt bu xanın gözlərini çıxarıb göndərdiyi yaşlı ilxıçısını tanıyırdınızmı? Camaat:

– Tanıyırdıq! Koroğlu:

– Tanıyırdınızsa, mən o qocanın qalan oğluyam, adım da Koroğludur! Bu ayğır da mənim atamın xana tulpar at olacaq deyə göstərdiyi taydır! – deyib, Koroğlu qılıncını çəkib xanın başını kəsir və gövdəsindən ayırır. Atasının gözlərini çıxarmağa hökm verən vəzirlərin də bir yandan başlarını kəsib atır.

Sonra Koroğlu qışqırır:

– Ay insanlar! İndi istədiyinizi xan seçiniz! Camaat yer yerdən qışqırır:

– Bu zalımlardan bizi qurtaran səndən başqa bizə xan olmağa layiq adam yoxdur!

Sonra Koroğlu xanın taxtına çıxır. Xanın çox gözəl bir qızı varmış, bu qızı da alır. O biri arvadına da xəbər göndərir ki, kiçik ata min, buraya gəl. O qadın da xalqa vida edərək kiçik ayğıra minib ərinin yanına gəlir.

## ƏDƏBİYYAT


1. Сокровищница песен кумыков. Махачкала: 1959 (на кумыкском языке)
2. Кумыкские народные сказки. Махачкала: 1959 (на кумыкском языке)
3. Фольклор Азербайджана и прилегающих стран /Ред. Багрия А.В. Баку: 1930, с. 3-54.
4. Аджиев А.М. Дальние дороги песни. Махачкала: 1977, с.31-54, 74, 100;
5. Аджиев А.М. Нартский прозаический фольклор кумыков и его место в кавказской нартиаде// Дагестанская народная проза, с. 4-23.
6. Аджиев А.М. Къумукъланы йырлары. Махачкала: 2001.
7. Аджиев А.М. Специфика, связи и типология кумыкского фольклора в историческом освещении. Махачкала: 2008
8. Тейлор Э. Первобытная культура. М., 1939, с. 921-942.
9. Шахнович М.Ш. Мифы о сотворении мира. М., 1969, с. 6-43.
10. Сказки и мифы народов Чукотки и Камчатки. М., 1974, с.9-10.
11. Вирсаладзе Е.Б. Нартский эпос и охотничьи сказания в Грузии // Сказания о нартах: Эпос народов Кавказа. М.: Наука, 1969, с. 254.
12. Вирсаладзе Е.Б. Грузинский охотничий миф и поэзия. М.: Наука, 1976, с. 129.
13. Домусульманские верования и обряды в Средней Фзии. М.: Наука, 1975.
14. Алиев С.М. Акаев М-Г.Д. Хрестоматия по дореволюционной кумыкской литературе, Махачкала: 1989, с. 22-30. (на кумыкском языке)
15. Гаджиева С.Ш. Кумыки. М.: АН СССР, 1961, с. 325.
16. Халипаева И.А. Мифологическая проза кумыков// Исследования и тексты. Махачкала,1994.
17. Халипаева И.А. Преданья старины глубокой. Записки о народно-поэтических традициях селения Башлыкент. Махачкала: 2007.
18. Халипаева И.А.Словарь ритуально-мифологический (на основе кумыкского фольклора). Махачкала, 2013.
19. Южнокумыкские тексты в разные годы зап. Халипаевой И.А. в с.Башлыкент Каякентского р-на от Пашаевой Умуханнат, Пашаевой Айханум, Арсланбековой Гаджикиз, Султанова Султана, Рустамовой Сувалжат, Телеева Гаджи, Джапаровой Тотуш, Бабасовой Хава, Исаевой Кихили, Кадиевой Тоту и др.

## İÇİNDƏKİLƏR

**Qumuq folkloru haqqında**
**bir neçə söz (*A.Hacıyev, İ.Xalipayeva*)........................... 3**

**MİFLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Kosmoqonik miflər ................................................ 6
Ovçuluq mifləri və demonik varlıqlar .................... 9
Mifoloji əfsanələr. Çevrilmələr............................. 15

**MİFOLOJİ İNAMLAR. YASAQLAR.**
**SINAMALAR. OVSUNLAR. DUALAR ..................... 30**

**MƏRASİM FOLKLORU**
Mövsüm mərasim mətnləri .................................... 34
Ailə-məişət mərasimləri ........................................ 40

**ALQIŞLAR. QARĞIŞLAR**
Alqışlar .................................................................. 65
Qarğışlar ................................................................ 67

**SARINLAR, MASHARA SARINLAR........................ 76**

**UŞAQ FOLKLORU**
Düzgülər. Sanamalar ............................................ 103
Uşaq oyunu .......................................................... 105
Beşik nəğmələri.................................................... 106
Laylalar, nazlamalar ............................................ 107
Oyunlar //Oyunlar ................................................ 108

**YIRLAR // DASTANLAR**
***Qəhrəmanlıq dastanları***
Minküllünün yırı ........................................... 115
Kartkocak ilə Maksuman.............................. 124
Nart Dünk-Batırav......................................... 136
Anci-namə...................................................... 142

Oğlanbəyi .................................................... 147
Qıssa – Kazak yırları .................................... 148
Qazaq idin, ər idin ....................................... 151
Ərənlər deməklə ər olunmaz ......................... 153
***Tarixi-qəhrəmanlıq yırları***
Abdullanın yırı ............................................ 156
Ayğazinin yırı .............................................. 161
Zoruşun yırı ................................................. 172
***Tarixi yırlar***
Molla Nəsrəddin və axsaq Temir .................. 177
Yahsaylı dəli Osman .................................... 178
Abdullətifin yırı ........................................... 181
Şamilin yırı .................................................. 185
Axsaq Temirin yırı ....................................... 186
Altın yazılı xətt var ....................................... 188
Amanhorun yırı ............................................ 190
Tarğunu haqqında yır ................................... 194
Arslanxanın yırı ............................................ 197
Dağıstan haqqında yır ................................... 199
Şamil haqqında yırlar ................................... 202
Başlının yırı (Mahtının yırı) ......................... 205
***Ballada yırlar***
Zubayırın yırı ............................................... 207
Aznavurnu yırı ............................................. 210
Oçarlarda gömsünlər .................................... 215
Yurdlar haqqında deyilmiş yırlar .................. 218
***Zarafatyana yırlar. Qaravəllilər***
Balış balışa dəyəndə ..................................... *220*
Dovşanın yırı ................................................ 221
Səkkiz xoruzun yırı ...................................... 223

**YOMAKLAR // NAĞILLAR**
***Heyvanlar haqqında nağıllar***
Tülkü-tülkü – tükü qızıl ................................ 226
Tülkünün nağılı ............................................ 229
Buzov, quzu və qurdlar ................................. 232

Yaxşılığa yamanlıq ...................................... 233
Eniligim, Senligim qapını aç ........................ 235
Qurbağanın qınından çıxan qız ..................... 238
*Sehirli nağıllar*
Qarasaç ......................................................... 245
*Ailə-məişət nağılları*
Külbay .......................................................... 255
"Üç armud ver, üç ağıl al" ............................ 261
Qazın başında bitən qoz ağacı ...................... 265

**BAĞLAMALAR. MƏSXƏRƏLƏR. LƏTİFƏLƏR.... 268**

**TAPMACALAR ........................................................ 271**

**ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR ...................... 276**

**OĞUZ KÖKƏNLİ QUMUQLARIN FOLKLORU**
Duxa Xocan oğlu Dəli Domrulun hekayəsi
və yırı............................................................... 307

**ƏDƏBİYYAT ........................................................... 324**

**Türk xalqları folkloru,**
**V kitab,**
**Qumuq folkloru.**
Bakı, Elm və təhsil, 2020.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 328 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də hazır diopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.